**Sudef Sail Molla**
**Abbas Fədai oğlu**

# ƏNBİYALAR MƏCLİSİ

## I CİLD

*Dərə-təpəni sel tanır.*
*Yaxşını-pisi el tanır.*

**"ADİLOĞLU"**
**Bakı - 2010**

***Sudef sail Molla***
***Abbas Fədai oğlu***
***“ƏNBİYALAR MƏCLİSİ” I CİLD***
***«ADİLOĞLU» Bakı 2010 248 səh***

*KİTABDA ŞƏRQ XALQLARININ MİFOLOJİ DÜŞÜNCƏSİNİ ƏKS ETDİRƏN ƏFSANƏ VƏ ƏSATİRLƏR, ELƏCƏ DƏ ORTA ƏSRLƏRDƏN BƏRİ XALQ ARASINDA DOLAŞAN VƏ MÜƏYYƏN HALLARDA İNSAN TƏXƏYYÜLÜNÜN TƏSİRİNDƏN XALI OLMAYAN RƏVAYƏTLƏR TOPLANILMIŞDIR.*

*NƏZƏRƏ ALINMALIDIR Kİ, KİTABDA MÜƏLLİFİN BƏZİ DİNİ MƏHFUMLARLA BAĞLI VERDİYİ İZAHATLAR VƏ AÇIQLAMALAR ONUN ÖZ TƏXƏYYÜLÜNÜN MƏHSULUDUR VƏ ŞƏXSİ MÜLAHİZƏLƏRİNİ ƏKS ETDİRİR.*

4722110018
———————
121 - 2010

qrifli nəşr

© ***Sudef sail Molla Abbas Fədai oğlu*** 2010

# AÇILAN QAPI

***Ənbiyalar məclisinə daxil olan qonaqlarıma salam olsun.***

Əziz oxucularım! Mənim bu məclisi qurmaq, sizinlə tanış olmaq, arzu və məqsədim olmamışdır. Lakin mənim istəyim xaricində vücuda gələrək, məni sizinlə birlikdə bu məclisdə həmsöhbət etdi.

Səfər ayının iyirmi yeddisi idi, yatmışdım. Yuxuda gördüm isti yay fəslidir, qumlu susuz bir səhrada bostan var. Bu bostanda mən qarpıza çevrilmişəm. Və burada bir kürsü qurulub, kürsünün üstündə on dörd üzü örtülü ənbiyalar əyləşib, dünya və axirətdən söhbət edirlər. Rəhmətlik atam Molla Abbas Fədai də onlara qulluq edir.

Xidmətkarlığına görə yaradan, sahibi xilqətə şükür edir. Qonaqlardan biri atama xitabən dedi: Ey Ənbiya dostu, əkdiyin bostanda yetişmiş qarpız varsa bir ədəd dər gətir. Bizdə təzə qarpızdan yeyək nobar edək. Atam bostanda yetişmiş qarpız gəzə-gəzə mən olan tağa catdı, mənim yetişməyimi bilmək üçün qabığıma bir neçə çırtma vurub dedi: Yetişməsədə sulanıb, İNŞAALLAH yetişmiş olar məni ALLAH qonaqlarının yanında xəcalətli etməz. Əlqərəz məni öz tağımdan qoparıb süfrəyə qoydu. Qonaqlardan biri iti alətlə mənim başımı kəsib on

dörd dilimə böldü. Onlar mən qarpızdan dadıb dedilər: Ey Fədai, sənin becərdiyin qarpız baldan şirin, buzdan sərin, qan rəngindədir kal deyil əcəb gözəldir. Ənbiyalar məclisində sərilən süfrəyə laiqdir. Rəhmətlik atam dedi: Bu qarpızın adı Sudefdir, otuz il bu qarpızı becərib bütün afətlərdən qorumuşam, vəhşi və ev heyvanlarından kanar tutub bəsləmişəm ki, əziz qonaqlarıma hədiyyə edim. Onun insan qəlbinə şəfa verən ətirli dəvası var. O, Ənbiyalar dedilər: Bu qarpızın toxumlarını dünyanın hər yerinə səp ki, insanlar bu Allah nemətindən bi nəsib olmasınlar.

## *(RƏVAYƏT)*

Ravi söhbət edib deyir. Bir gün MÜCTƏHİD AYƏTULLA ƏLLAMƏ Rəhmətullah on dörd yaşını tamamlamışdı, onun ad gününə görə Atası Sahib kişi alimlərdən ibarət məclis qurur. Əllamənin on dörd yaşını və Müctəhid dərəcəsinə yüksəldiyinə görə təbrikə gələn Ali mərcə sahibləri onun ədəb və ləyaqətinə heyrətlə tamaşa edirdilər. Əllamə Rəhmətullah ehsan yeyən alimlərin əllərinə su tökər, hamıdan sona atasını saxlayar, əl yuyulan qabı öz qabağına qoyar, su dolçasını atasının əlinə verib deyər: suyu tök əllərimi yuyum. Atası oğlunun əlinə

su tökər. Əllamə əllərini yuyandan sonra özü atasının əllərinə su töküb yuyar. Atasının əlini yuduğuna görə RƏHMAN RƏHİM olan ALLAHA şükr edib deyər bu gündə atamdan bir şey qazandım. Məclisdə olan alimlər Əllamənin bu hərəkətinə etiraz edib dedilər: Ey uşaq sən öz valideyninə ehtiram etmədin. Onu bu məclisdə kiçiltdin, bu əməlini açıqla ki, bizdə sənin elminə şahid olaq. Əllamə alimlərə cavab verib dedi: Ey alimlər sizdə Sudef kimi elm sailisiz?. Bir alim əlinə su tökən insanın ALLAH dərgahında günahları bağışlanar, Cənnət qapıları üzünə açılar, məndə bu məclisdə yetmiş alimdən aman kağızı aldım, onları alim atama hədiyyə etdim. Atamdan aldığım bir aman kağızı məni qane edir. Atam qocadır, istəmədim ki, atam sizin əllərinizə su töküb qazandığı savabı mənə versin. Mən onun əlinə su töksəydim mən o şərəfə layiq olardım. Atamın günahlarını ALLAH bağışlasın. Sizi də ALLAH öz rəhmətindən binəsib etməsin. Mən bu məktubun yazılmasında köməyi olan nəvələrimə MƏŞHƏDİ SƏKİNƏ, FERUZ və bilgisayarda yardımçım ÜFÜQ balama təşəkkür edir, onlarda Zəka, Elm sahibi olmağı təmənna edirəm Allah yardımçıları olsun. Kitabda olan rəsm və foto şəkillər ZİYA ƏSƏD oğlunun əl əməyi göz nur-

udur. Bu kitabın cansız cisminə redaktası ilə ruh verən o böyük insan ƏLİZAMAN BAXIŞA, yazılarıma bədii gözəllik verən DİLBƏR TÜRKAYA, SEYMUR MİRZƏ-yə və mənə mənəvi köməklik edən FAZİL MƏHƏRRƏMLİYƏ minnətdarlığımı bildirirəm. Onlara şad günlər uzun ömür, can sağlığı vahid Yaradandan təmənnamdır.

***Açıq qapını bir təmsillə qapayıram.***

**İNŞAALLAH**

# ƏLİF LAAM RA

*Yandırma canımı Adəm əlindən.*
*Yaradan məxluqla peyman bağladı,*
*Binəsib olmasın rəhmət selindən.*

*Neçə min məleykə işə başladı,*
*Torpaq qarasından məhlul etdilər.*
*Hamvakil su ilə torpaq yaşladı,*
*İnsan hüceyrəsin həmqul etdilər.*

*Biri od gətirdi, İsrafilsə can,*
*Hamtail o cismə doldurur hava.*
*Kimi damar cəkir, işləsin ki, qan,*
*Məbud deyil insan, fanidir dünya.*

*Cəbrayıl Allahdan müjdə gətirdi,*
*Nəqş etdi əqlinə elmi, ürfanı.*
*Adəm xəlq olandır, Ruhu ənbərdir,*
*Rədd etdi qəlbindən şəri-şeytanı.*

*Asqırıb Adəm diz ustə düşdü,*
*Oxudu La İlahə İlləllah.*
*Mələklər heyrətlə səcdəyə düşdü,*
*Dedilər həqqən, həqqən, həqqən Billah.*

***Müəllif: Sudeyf Sail***

# YA SİİN (EY İNSAN)

## *"Fürqanda"*

***Məhəmməd Əleyhissalam (SALAM OLSUN ONA və Əhli-Beyitinə).***

Rəbbim ona insan adı vermişdir, odur Əşrəfi Kainat.

Ulu Xaliq Babamız həzrəti Adəmi Behiştdə altı ünsürdən (yəni torpaqdan, sudan, havadan, oddan, can və ruhdan) xəlq edərək, canlılar dünyasına Şah, özünə isə qul yaratmısdır.

Allah Təbarəkə və Təala (O Görən və Biləndir) Mələklərə deyər:

- Siz nurdan xəlq oldunuz, aləmləri yaradan Tanrını tanımağa, təlim-tərbiyə və səcdəyə elmləndiniz. Mən topraqdan məxluq yaradacağam ki, onlar məni görmədən, bilmədən tanıyıb, təslim olacaqlar. Oddan yaranmış İblis (Şəyatin və Şeytan) dedi:

- Ey aləmlərin Rəbbisi! Yoxdan var etmək sənə məxsusdur. Yaratma onları ki, onlar zümətdən yaranıb zülm edən, qantökənlərdən olacaqlar.

Dedi:

-Ey İblis, xaric ol yerlərimdən, göylərimdən!

iblis dedi:

-İlahi! Dörd min il səcdəmin haqqını ver!

Allah dedi:

-Haqqın nədir?

-Adəmin qəlbinə girmək, qiyamət gününə qədər yaşamaq və "İSMİƏZƏM" adını bilmək.

Allah qulların istədiklərindən artıq verəndir. Dedi:

-Get, onlara şahid ol, kimlər sənə qul olar, səninlə Cəhənnəm əzablarına düçar olacaq. Kim ki, qəlbində İlahi sevgisi var, Behişt müjdəsi alar.

## *SƏNSƏN RƏHMAN RƏHİM, GÖRƏN VƏ BİLƏN*

# İLK YARANIŞ

("Həyatəl Qülub", "Tarixi Nəvas" kitablarına istinadən)

ALLAH Dərgahından qovulan İblis, lənət olsun ona və onun qovmuna ki, hələ yaranmamış İnsana düşmən sifəti ilə yer üzərinə gəldi.

Torpağa dedi: Vay sənin halına, Sənin üzərinə böyük bəla gəlir. Sənin cısmindən ADƏM yaradılacaq. Səndən olan İnsan övladları yer üzərində bütün canlılara, cansızlara zülm, ədəalətsizlik gətirəcəklər. İnsanlar nahaq qanlar axıdacaqlar. Onlar sənin qəlbini dəlib canını yeyəcəklər. Sənin üzərində elə pis işlər görəcəklər ki, onların günahları üzündən Cənnət sifətini Cəhənnəm edəcəklər. Sənin torpağından ADƏM yaradılmağa icazə vermə.

Yerləri, göyləri xəlq edən ŞƏRİKSİZ ƏBƏDİ OLAN ALLAHDAN nida gəlir.

Ey Cəbrayil, Yer aləmindən torpaq götür. Torpaq Adəm yaradılmasına vasitə ol. Vəhyi Məlaikəsi yer aləminə enib torpaq götürmək istədi. Yer fəryad edib dedi:

Ey mələk! Götürmə mənim torpağımdan Məndən yaranan insan mənim canımı yandıracaq.

Hər yerimi cəhənnəm edəcək, Bizi xəlq edənin canlılarını, icad etdikləri alətlərlə var ikən yox edəcəklər. Səni and verirəm ALLAHIN əzəmətli adla-

rına. Cəbrayıl yerdən torpaq ala bilmədi. Yaradana xitabən dedi:

İLAHİ Sənin adlarına verilən and qarşısında aciz qaldım, torpaq ala bilmədim.

Yerlərin göylərin tək Hakimi, Mikailə yerdən məxluq yaradılması üçün torpaq götürməsini xitab etdi. Mikail də yer üzərinə gəldi. Lakin torpağın ona yalvarıb ALLAH adına and verməsinə torpaq götürə bilmədi. O da Yaradana səcdə edib dedi: Ya Rəbbim! Məndə sənin əzəmətli adlarına and verən torpağın və sənin qarşında acizəm, torpaq götürə bilmədim. Dərdail Məlaikə də İsrafil Məlaikədə ayrı-ayri yerə gəldilər torpaq ala bilmədilər. Beşinci ülil əzim məlaikə Əzrayıl əleyhissəlam yer aləminə gəldi. Torpaq yenədə yalvarıb fəryad edib ALLAH adına ondan torpaq götürməməsini istədi. Həzrəti Əzrayıl dedi:

Ey yer, sən də mənim kimi məxluqsan. Bizi xəlq edən yaradan ALLAHIN əmrini yerinə yetirmək mənim haqqımdır. Həzrəti Əzrayıl yerin qabığında olan insan yaradılışı üçün bioloji cisimlərindən, mədənlərdən. O cümlədən uran, qızıl, lehim, dəmir, almaz, yaqut və bizə məlum olmayan cisimlərdən bir ovuc sıyırıb götürdü. Götürdüyü torpağı yerin üzərində olan CƏNNƏT bağına tökdü. ALLAH Dərğahından gələn İnsan vücudünun cizgisini Cənnət bağına sərdi. ALLAH əmri ilə yer üzərinə gələn, min-min Məlaikə Adəmin cismini inşa etməyə baş-

ladı. Məlaikələr dörd növ su, dörd növ hava, dörd növ od daşıyıb bir-birinə qatdılar. Hazırlanmış məhluldan arılar bal hazırlayan kimi ADƏMİN cismini qururdular. Kimi damar cəkir, kimi o cismə nur səpir, kimi ürək qurur, kimi isə beyin, biri inşa olan qanına hava vururdu. Mələklər Ana rəhmində yaranan uşaq kimi Adəm cismini canlandırdılar. ALLAH TƏALA Adəm cismi üçün yaratdığı RUHA əmr etdi: «Daxil ol O cismə!» RUH DEDİ: «İLAHİ o cism məndən qırx dəfə kiçikdir. Mən necə daxil olum?» Xəlq edən, Qəhr edən, Rəhm edən, Rəhman, Rahim, Qadir ALLAH RUHA xitabən dedi:

«Zorla daxil ol, zorla xaric olacaqsan». Bir cüt erkək və dişi cisminə RUH qırx günə daxil oldu. Həzrəti Adəm asqırıb diz üstündə əyləşib dedi: «ƏLHƏMDU LİLLAHİ RƏBBİL ALƏMİN» Aləmlərin Rəbbinə həmd olsun. O, doğulmuşlara, doğulmamışlara dünyalarda, ana bətnində olanlara rəhmində qoruyan, RƏHMAN RƏHİMDİR. ALLAH TƏALA Adəmin cisminin daxilində olan Nuru Adəmin cisminin xaricinə cağırdı. Allah Nuru Adəmin cisminin ətrafına dolanmağa başladı. Mələklər Allahın Nurunu görmək üçün Adəmin ətrafına dolanırdılar. Bəzi xəbərlərdə deyirlər: Məlaikələr Adəmin nurlu simasını görmək ücün yer aləminə enmişdilər. Adəmin arxasında səf-səf düzülüb səcdə edib deyirdilər: YA HƏNNANU, YA MƏNNA-

NU, YA DƏYYAN, YA BURHANU, YA FƏTTAH, YA RAHİMU, YA RƏHİM, YA HƏQQ, YA HƏQQ! Yaradandan Mələklərə Nida gəldi: MƏN demişdim zülmətdən məxluq yaradacağam ki, məni, təlim almadan tanıyıb, mənə səcdə edəcək. Adəm məxluqların əşrəfi yaradıldı. Mələklər ona xidmət üçün yaradıldı, sizi yaradanın nuru onların simasında təcəlli edəcək. Onu ELMİMLƏ yaratdım. Onları elmimlə yoğurdum. Yer üzünə xəlifə təyin etdim. Ey Mələklər, Siz nurdan xəlq oldunuz!. İdarə edilənlərdənsiniz. O, hər işlərində idarə edən, faili muxtardır. Yaradan İblisə dedi: Səcdə et ADƏMƏ bağışlanasan. İblis dedi: Onun yaranmasına razı olmadım, sənin dərgahından qovuldum. Mən ona səcdə etmərəm. Mən oddan yarandım. O, zülmətdən, mən ondan ucayam. Riyakar İblis Adəmə səcdə etmədi. ALLAHDAN ADƏMƏ NİDA gəldi: Ey Adəm, Səni yer üzünə xəlifə yaratdım. Səndən əzəl yaranmış canlıları, bağları, şüurlu şüursuz hər nə varsa qoru, yaşat ki, sənin soyundan olan insanlara azuqə və sığınacaq olsunlar. Cismin yaranmış Cənnətdə nə varsa ye, iç. Cənnət sənə məskən, əbədi olanlar üçün məqamdır. Lakin Cənnətdə olan bu AĞACIN meyvəsini yeməyi sənə haram (qadağan) etdim. O, sənin nəslin üçün ölüm, dünya əzabı və cəhənnəm yaradar.

### *(Haşiyə)*

Alimlər bu ağacın meyvəsini “BUĞDA” ağacı, “ALMA” ağacı, “ƏNNAB” ağacı, ”ZEYTUN” ağaci kimi düşünərək təsvir etmişlər. QURANİ MƏCİDDƏ o hansi ağac olduğuna işarə edilməmişdir! Amma cəhənnəm əhlilərinin cəhənnəmdə əzaba dözməyib ölmək istəyənlərə ruzi olan “Zəqqum”ağacının meyvəsinin adına işarə edilmişdir. Zəqqum ağacı cəhənnəmdədir.

Zəhərli, tikanlı, yandırıcı meyvə gətirər. Tabut əhli ona əzab verən quşdan qurtarmaq üçün zəqqum ağacına sahib məlaikədən yalvara-yalvara zəqqum alıb yeyər. Zəqqum onun daxilindən yandırar kül edər ALLAH qüdrəti ilə yenə canlanıb quşdan gizlənmək üçün səhralarda qaçar, quş onu tapıb əzabla ətini tikə-tikə qoparıb yeyər. Mədəsində həzm edib səhralara səpər. Yenə dirilib cəhənnəm əzablarına düçar olar. Cəhənnəmdə CƏNNƏTİN gözəl meyvələri sərgi kimi saxlanar. Cənnətdə, Cəhənnəmdə olan alətlər bağlar sərgi kimi saxlanar. Cəhənnəm malının Cənnətdə yeyilməsi haramdır. Cənnət malının Cəhənnəmdə istifadəsi haramdır (qadağandır). Adəmə yeyilməsi qadağan olan ağacın meyvəsi ZƏQQUMDUR. Cənnətdə olan hər şey bu dünyada Adəm övladına halaldır.

Cəhənnəmdə olan şeylərin bu dünyada yeyilməsi haramdır. Məsələn şərab, qaynar su, qan, ona bənzər ifrazatlar. O ağacın nə olduğunu ALLAH

bilər. Bu mülahizənin doğru olmasına inaniram. İnsan Allah verən elmindən istifadə etməkdə FAİLİ MUXTARDIR.

ADƏM və HƏVVANI Behiştdən xaric edib, dünyada onlardan nəsil alınması, Adəm övladlarının dünyada öz əməlləri ilə Cənnəti qazanmaq üçün bəhanə "ağacdır". Bəhanə olmasaydı İblis məlun ona haram olan Behistə daxil ola bilməzdi. ADƏM əbədi olaraq Behiştdə qalardı.

Həzrəti ADƏM və HƏVVA Behiştdə həyat keçirirdilər. İblis məlun bir yol tapib behiştə nüfuz etdi. ADƏM yeddi bədən üzvü əskik olan HƏVVANI tapıb ona vəsvəsə etdi: Ey HƏVVA ADƏM səni sevmır. Məlaikələrlə Behişti gəzir, səni özü ilə aparıb gəzdirmir. Sən də bu agacın meyvəsindən yesən elə gözəl olarsan ki, mələklər sənin ətrafında dolanar. ADƏM səni çox sevər İblis Həvvanı öz fitnəkar hiyləsi ilə aldatdı. Qadağan olan ağacın meyvəsini yedirtdi. Məlaikələr HƏVVANI öldürmək istədilər. ALLAHDAN Mələklərə nida gəldi: Ey mələklər ona dəyməyin. O, zəyifə ADƏMİN ixtiyarındadır. ADƏM HƏVVANIN yanına gəldi. HƏVVA yeyilməsi qadağan olan agacın meyvəsinı tərifləyib dedi: bu meyvə Behiştdə olan meyvələrdən dadlıdır. Səndə ye!

ADƏM yemək istəmədi, HƏVVA onu yoldan çıxardıb ona da o meyvədən yedirtdi. Yaradandan Əmr gəldi:

Ey ADƏM: Xaric ol! Günahkarlara yer olmayan Behişt Əlada onu qazananlar, ona sahib olarlar!

ADƏM və HƏVVA anamız Behişdən xaric oldular. Anadan doğulmuş üryan uşaq kimi.

ALLAH TƏALADAN HƏZRƏTİ ƏZRAYILA nida gəldi: ADƏMİN yaraniş cisminin muhəndisi sən idin. Onların cisminin sökülməsini və ruhunu bədənindən sən xaric edəcəksən.

## FƏTƏBARƏKƏLLAHU ƏHSƏNUL XALİQİN

# YARANIŞDAN SONRA

***Hələ yaranmamışdı İNSAN !***

Adəm övladları ilə Yaradan arasında əlaqə Peyğəmbərlərə gələn vəhy vasitəsilə olmuşdur. Adəmdən Xatəmül Əmbiyaya qədər peyğəmbərlərə vəhy və Risalə, beş kitab göylərdən nazil olmuşdur. "Söhf" İbrahim Xəlilullaha, "Tövrat" Musa Nəbiyullaha, Davuda "Zəbur", "İncil" İsa Ruhullaha, "Qurani-Kərim"("Fürqan") Məhəmməd-əl Müstəfaya (Salavat Salam olsun onlara) nazil olmuşdur.

Həzrəti Adəm və Həvva haram ağacın meyvəsini yedikdən sonra Allahın qüdrəti ilə Behiştdən xaris edilmişdilər. Onların orada əbədi yaşaması mümkün deyildi. Çünki Adəm nəsli yer üzərində yaşayıb insan nəslini artırmalı idi. Behişti öz əməl və zəhmətilə qazanmalı idi.

Allah Təala Həzrəti Adəmi və Həvvanı Behiştdə Behişt saatı ilə altı saata xəlq etmişdir. Cəmi səkkiz saat da Behiştdə yaşadılar. Şeytann hiyləsi ilə Behiştdən qovuldular. Hz Adəm və Həvvanı Behiştdən xaric etmək üçün Cəhənnəmdə yeyilməsi halal olan Zəqqum ağacının meyvəsinin yeyilməsini Adəm və Həvvaya haram etmişdi. Behiştdə olan bütün meyvə ağacları Cəhənnəm əhlilərinə göstərilmək üçün sərgi şəklində orada da var. Cəhənnəmdə olanlar o meyvələri yeyə bilməzlər. Behişt meyvələrinin Cəhənnəmdə yeyilməsi haramdı. Cəhən-

nəmdə olan ağaclar da Behiştdə sərgi şəklində vardır. Odur ki, Allah Təala Cəhənnəmdə olan ağacın meyvəsinin Behiştdə olanlar üçün yeyilməsi qadağan edilib. Cəhənnəmdə olan Zəqqum ağacı yarpağı olmayan tikanlı zeytun meyvəsinə oxşar meyvə gətirər. Cəhənnəmdə olanlar o ağacın meyvəsini Cəhənnəmdə olan əzab Mələikələrindən yalvara-yalvara alarlar. O meyvəni yeyib bir dəfəlik ölmək üçün yeyərlər. O ağacın meyvəsi Cəhənnəmdə gözəl görünən meyvədir. O meyvəni alıb yeyənlər daxilindən od tutub yanar, kül olarlar. Yenə də Allah onları dirildib Cəhənnəm əzablarını verdirər. O meyvəni yeyən Cəhənnəm əzabından intihar edib qurtarmaq üçün dualar edib Tanrıya yalvarar.

Adəm və Həvva Behiştdə yeyilməsi haram və qadağan olunan ölüm və intihar ağacının meyvəsini yediklərinə görə Behiştdən xaric edildilər. O ağac Adəmin Behiştdən çıxarılması üçün vasitə idi. Necə ki, Adəmlə Həvva Behiştdən qovuldu. Şeytan Adəmi yox etmək üçün yırtıcı heyvanları yığıb dedi:

- Dünyaya təzə Adəm adında varlıq gəlib, yaxşı dadlıdır. Onları yeməsəniz, onlar böyüyüb sizi yeyəcəklər. Gedək onları yeyin.

***Şeytan yırtıcı heyvanları Adəmin və Həvvanın yanına gətirdi.***

# YARANIŞDAN SONRA

Şeytan yırtıcı heyvanları Adəmin yanına gətirdi. Onları həvəsləndirmək ücün Adəmə tərəf tüpürdü. Tüpürcək Adəmin ruhla örtülmüş cisminə səpələndi və it şəklinə düşdü və elə həmin andaca Adəmi və Həvvanı qorumağa basladı. Yırtıcı heyvanlar Adəmlə Havvadan uzaqlaşdılar. Seytan dedi:

-Ey ALLAH! Mənə vəd vermisən, Adəmi qorumayacaqsan. Məndən xəbərsiz onu qoruyan yaratmısan.

Göylərdən səda gəldi:

-Ey İblis! Sənə lənət olsun! Riyakar! Ağzından çıxan tüpürcək sənə aiddir, Adəmin üzərinə tökülüb ruhlandı. O heyvan da sənin kimi riyakar, sahibini tanımayan, özünü uca tutanlardan olacaq.

Odur ki, it hər gün ulayar, deyər:"Ya Rəbbim! Şükür edirəm dərgahına, məni canlılardan şərəfli yaratmısan, insanları mənə qulluqçu yaradıbsan! Mənə havadar olacaq sahibimə uzun ömür ver. "

-Ey İblis! Onun cismi səndən, ruhu Adəmdəndir. Cismi murdar, ruhu sahibinə sadiq olar.

Hədis

Adəm didərgin olub göz yaşı axıdar, tövbə edib deyərdi:

-İlahi! Bilirəm, günahım bağışlanmazdır. Tövbəmi qəbul et ki, mənim soyumdan məsum doğulan-

lar günahı bağışlanmayan Adəm övladları olmasınlar!

O zaman Əlif, Laam, Miimdən nida gəldi:

-Ey Adəm! Səhraya bax!

Həzərəti Adəm gördü, bir nəfəri şiddətli yanar odun içərisinə atırlar. Hakimi Mütləqdən nida gəlir:

-Ey od, soyuq ol! Ibrahimə səlamətlik göndərdim!

Od yandırıcı xasiyyətini dəyişib soyuq oldu. Məlaikələr odun icərisində cavan agaclar əkirlər. Odun içərisində Cənnət havasi yaradan Mələklər tonqalın ətrafında dolanıb Yaradana səcdə edirlər. Adəm gördü Nil dəryası yarılıb, içərisindən Musa qövmü, onun ardınca fironun böyük ordusu Musa qövmünün ardınca gedir. Musanın adamları dəryadan salamət qurtulurlar. Firon adamları ilə birlikdə Rudinil dəryasında qərq olur. Adəm gördü: - Məryəm oğlu İsa çarmıxa çəkilir. İsa deyir:

-İlahi! Cismimi və ruhumu Sən verdin, almaq da sənin haqqındır. Sən Rəhman və Rəhimsən!

Hz. Adəm Hz. Zəkəriyyənin kötük arasında mişarla doğrandığını gördü. Adəm Yəhyanın başını teştdə kəsdirərək qanını şəraba qatıb içən rəqqasəni gördü! Adəm Yunis peyğəmbərin dəryada balıq qarnında Yaradana necə dua etdiyini gördü.

Adəm ağlar gözü ilə nə gördü:--Bədənindən yerə düşən qurdları yarasına HƏL ƏTA qoya-qoya Ya-

radana şükür edən Əyyubu, Mehrabda başı Zərbətlənən Əliyyül-Mürtəzanı, başı nizədən uçan Cəfəri Təyyarı gördü!

Adəm hara baxdı, müsibət gördü, nahaq tökülən qan gördü. Əliyyül - Mürtəza oğlunu, ciyərləri zəhərdən parçalanan Həsəni-Müctəbanı gördü Adəm! Susuz səhrada Hürrü gördü - doldurub qum ilə çəkmələrin, asıb boynundan, dizləri üstündə sürünə-sürünə Mehrabda Zərbətlənən Əliyyül-Mürtəza oğlu Şəhidü-Kərbəla Hüseynin qabağına gəlib deyir:

-Gəlmişəm dərgahına, ey şahi-Mərdan, əddəxil,
Tövbəkaram, tövbəkar, oldum peşiman, əddəxil!

Həzrəti Adəm Cəbrayıl Əleyhissəlama xitabən dedi:

-Ey məlaikə! Mən bağışlanmaz xəta sahibiyəm, məndən Sahibi-Kainat üz çevirdi, səni and verirəm qanadlarına bulaşan qanın sahibinə, onun vəfasız, İblisə aldanan qulunu əvf etsin! Tövbəmi qəbul etsin!

Allahdan vəhy gəldi:

-Ya Adəm! Tövbən qəbul oldu Əşrəfi-kainat xatirinə!

O, dogrudan da, bağışlayandır!

***Edən üruci-səmavati məscidül-əqsa!***
***Bağışla bizləri Ali-əbayə, ya Rəbbi!***

***-EY ADƏM! Şəhidi-Kərbəla Hüseyn sənin soyundan olacaq!***

Əziz oxucum! Adəm babamız tövbə etdiyinə görə Adəm adı verilmişdir! Əşrəfi-kainat Məhəmməd Əminə Fürqanda "Ya sin!"- Ey kamil İNSAN!- deyə müraciət edilmişdir.

Adam olmaq asandır, İnsan olmaq çətindir.

***Sədəqəllahu əliyyül əzim!***

# YARANIŞDAN SONRA

"Kitabi-Həyat əl-Qülubda" rəvayət edilir ki, Həzrəti Adəmin Allah dərgahında tövbəsi qəbul olandan sonra torpağı, suyu bir yerdən yoğrulan Adəm və Həvvanın qəlblərinə həsrət, məhəbbət, ayrılıq qəmi varid oldu. Adəm və Həvva bir-birini axtarıb tapdılar. İki can, bir bədən oldular və bir daha ayrılmamağa əhd-peyman etdilər.

Bir gün Həzrəti Adəmə Allahdan vəhy gəldi:

-Ey Adəm! Yer üzərinə göylərdən bir daş göndərdim. O daş bir mələkdir. Ey Adəm! Əsfəd göylərdən göndərilmişdir. Sənin nəslinin əməllərini yazan, həyat cizgilərini çəkəndir. Hesab günü yazdıqlarını danmasın deyə şahid olarlar. Mələyi daş edıb yerə göndərdim. Onu Qiyamət qünü insanların mühakimə olunduğu yerdə—Məhşər (Ərəsatiməhşər) olan yerdə torpaqdan yuxarı ayaq üstə basdır.

Adəm axtarıb daşı tapır, o yerdə bir divar hörür. Allahın göndərdiyi ƏSFƏD daşını divara yapışdırdı. İndiki Məqami Ibrahimdə-yəni "Kəbə"də..

Allah buyurdu:

-Ey Adəm! Nə üçün yarandığından bəri 180 il keçib, hələ də nəsil verməyibsən?

Adəm söylədi:

- Həvva məndən uzaq durur, necə övlad olsun?

Allah buyurdu:
-O, mənim qulumdur, satın al!
Adəm dedi:
-Ey Sahibi Xaliq! Mən Yaradana aid qulam. Qulun nəyi var ki, Allah qulunu satın alsın?
Allahdan nida gəldi peyğəmbərlər peyğəbərinə:
-Əşrəfi-Kainat Məhəmməd Əminə salavat-salam göndər ki, Həvvanı sənə bağışlayım.
-Həmd olsun yaradana! Məhəmməd Rəsulallaha salavat-salam olsun, onun xatirinə tövbəm qəbul oldu, hədiyyəm Həvva oldu, - dedi Adəm. Kitab sahibi yazır ki, Həvva o günə qədər Adəmə yaxınlıq etmirdi. Bir gün soyuq qış vaxtı idi. Adəm çöldə əkin üçün yer hazırlayırdı. Həvva isə evdə idi. Üç Mələk qadın sifətində Həvvanın yanına gəldi. Adəmin harada olduğunu sorusdular. Həvva dedi:
-Adəmi neyləyirsiniz?
Dedilər:
-Ey Həvva! Adəm üçün qadın olmağa bir mələikə gətirmişik ki, ona övlad doğsun. Allahın istəyini yerinə yetiririk.
Həvva dedi:
-Adəm çöldə yer şumlayır. Siz burada gözləyin, gedim çagırım.
Həvva Adəmin yanına gəldi. Adəm dedi:
-Ey Həvva! Heç yanıma gəlməzdin, xeyir olsun?
Həvva dedi:

-Sənə qadın olmağa gəldim, amma şərtim var. Allaha and iç ki, mənim üstümə arvad almayacaqsan.

Adəm Həvvaya vəd verib dedi:

- And olsun Yaradana! Səndən başqa heç kimi özümə qadın etməyəcəyəm.

Həvva sevindi ki, Adəm mənim üstümə arvad almayacaq. Elə qarın üstündə Adəmə qadınlıq etdi. Odur ki, qadının kürəyi, kişinin dizləri, dirsəkləri soyuq olar.

Adəm min iki yüz il, Həvva min dörd yüz il ömr etmişlər. Adəmin hər dəfə əkizlərinin biri qız, biri oğlan doğulurdu. Adəmin uşaqlarından Habil heyvandarlıqla məşğul olardı, Qabil isə taxıl əkərdi. Hər il öz məhsullarından ruziləri bol olsun deyə, Mina dağına gətirib Allaha qurban verərdilər. Bir dəfə gecə-gündüz bərabər olan gün, balıq ayının sonunda, qoç ayının əvvəlində, yəni bahar fəslinin başlandığı gün iki qardaş Mina dağına çıxdılar. Habil qurban etmək üçün gətirdiyi qoçu, Qabil qurban vermək üçün gətirdiyi taxılı təyin olunmuş yerə qoydular. Kimin qurbanı qəbul olsa idi, külək əsib onu aparmalı idi. Həmin gün Habilin qoçunu külək apardı. Qabilin qurban etdiyi taxılı külək aparmadı. Həmin vaxtdan Qabilin Habilə paxıllığı başladı. Allahdan Adəmə vəhy gəldi:

-Ey Adəm! Uşaqlarını bacılarının yerini dəyişdirməklə evləndir.

Adəm də Habilin bacısını Qabilə, Qabilin bacısını isə Habilə verdi. Adəm onları evləndirəndən sonra Şeytan məlun Qabilə dedi:

-Ey Qabil! Adəm səni istəmir, istəsəydi, sənin gözəl bacını Habilə verməzdi. Adəm Allahdan istəyib ki, sənin qurbanını qəbul etməsin! Nə qurbanın qəbul olundu, nə də gözəl bacını sənə vermədi. Sən də get Habili öldür, bacını da özün al. Qardaşın olmayanda sən onun varına da sahib olacaqsan!

Şeytan-əleyhilənət Adəm Peyğəmbərin əkdiyi üzümün dibinə əti haram olan yeddi heyvanın başını kəsib, qanını tökdü. Həmin üzüm ağacının meyvəsindən yığıb böyük hind qozunun içərisinə doldurmuşdu. Günəşin istisindən üzüm şirəsi çevrilib şərab olmuşdu. Şeytan şərabdan Qabilə içirdib sərxoş etdi. Habili öldürmək üçün hirs, nifrət yaratdı. Şeytan Qabilin gözü qabağında bir ilanı daşla öldürdü. Ona öldürmək təlimi verdi. Qabil də qardaşı Habili daşla başına vurub öldürdu. Qabil ölmüş qardaşını yeddi gün kürəyinə alıb atasından gizlətmək istəyirdi. Çünki ölüm görməmişdi. O zaman bir qarğa gəldi. Yeri eşib Şeytanın öldürdüyü ilanı basdırdı. Qabil bunu görüb torpağı qazdı, qardaşını torpağa basdırdı.

Çox keçmədi ki, Qabili peşimançılıq hissi bürüdü:"Mən qardaşımı öldürdüm, Şeytana aldandım, ona lənət olsun!"

Qabil özünü qayalara çırpıb həlak edirdi, vayşivəni ərşə çıxırdı. Bir müddət atasının gözünə görünmədi, səhralarda gəzdi, hətta Cinnilərə qoşulub onlarla yaşadı. Adəm günlərlə oğlunu axtardı, tapa bilmədi. Həzrəti Adəm ayağını yer üzərinə vurub dedi:

-Ey torpaq! Mənim övladımın qanını necə batırarsan?

Yer nahaq qanı götürməyib. Adəmin oğlu Habili basdırıldığı yerdən çölə atdı.

Deyirlər, nahaq qan yerdə qalmaz! İlk nahaq qan Qabil tərəfindən axıdılmışdır, ondan əvvəlki qan Adəm və Həvva behiştdən qovulduqdan sonra yer üzünə axan Həvvanın heyz qanıdır. Şeytana uyana lənət olsun! Adəm ilk oğlu Habilin ölümünə iki yüz il ağladı. Qabili isə heç bağışlamadı.

Bağışlamaq Rəhman va Rəhim Allahın şəninə yaraşır. Həmd olsun ona! O, hər şeydən xəbardardır, bilən və görəndir.

***Sədəqəllahü Əliyyul Əzim!***

# NUN VƏL QƏLƏMİ VƏMA YƏSTİRUN

## (QƏLƏMDƏN SƏTİRLƏRƏ TÖKÜLƏN ELM)

***Həzrəti Məhəmməd Əleyhissalam buyurmuşdur:***
***- Üt Lü Bül Elmi Minəl Məhdi İləl Ləhəd!***

Türkcə mənası belədir: “Elmi öyrənin, beşikdən qəbir evinə qədər!”

İnsanın birinci həyatı ruh aləmidir. O, Allaha aiddir, sirrdir. İkinci həyat kişi və qadının birləşməsindən ana bətninə düşən döldür (yəni uşaqdır). Uşaq ana bətninə düşdüyü gündən, iyirmi bir gün ərzində canlanır. Toxum canlandıqdan sonra qırx iki gün ərzində Allahın qüdrəti ilə ruh uşagın cisminə daxil olur.

Məhz bu anlardan başlayaraq ata-ana uşağın tərbiyəsi üçün bəzi tədbirləri görməlidirlər. Onda ki, ana uşağa qaldığını hiss edir, o gündən ana alt-üst paltarlarını təmiz saxlamalıdır. Tərlədiyi vaxt yuyunub təmizlənməlidir. Xoş iyli ətir, gülab, o cümlədən, gözəl iyli şeylərdən istifadə etməlidir. Ədvalı yeməklər yeməlidir. Qırmızı ət yeməkdən pəhriz etməsi məsləhətdir. Əsasən, göyərti cox yeməli, bütün meyvələrdən, süd, qatıq, balıq əti, quş əti yeməlidir. Ana ikicanlı olarkən gözəl olar ki, gününün çoxunu ibadətlə keçirsin, namaz qılsın.

Ana boylu olarkən qarnındakı uşağa xos günlər arzulamaqla bərabər, az danışmalı, səbirli, təmkinli, hamı ilə gülərüz, mehriban olmalıdır. Ata-ananın yanında olarkən hirslənməməlidir. Yalan danışmaq, kinli soz və ona oxşar sözlər işlətmək olmaz. Çünki doğulmamıs yüz iyirmi günlük usaq xaricdə olan hər şeyi görür, eşidir. Ana bətnində 140 günlük olarkən uşaq tərpənir. Həmin vaxt ana ev, çöl heyvanlarının üzünə baxmamalıdır ki, usaq o heyvanların üz görkəmlərini, xasiyyətlərini götürə bilər! Gözəl, xoşxasiyyət insanların üzünə baxmalıdır.

9 ay, 6 gün tamamlanar, doğum saatları başlayar. Uşaq ana bətnindən xaric olmaq istəməz. İşıqlı dünyanı tərifləyən məlaikə deyər:

- Ey insan oğlu! Burada artıq yaşaya bilməzsən, sənə verilən zaman, azuqə, hava, su qurtardı! İşıqlı dünyaya köçməlisən!

Uşaq deyər:

- Ora getmirəm. Dünyada zülm, zillət, acı günlər, iblis, seytan var, ölüm var, qəbir əzabı, axirət günü var. Qiyamət günü var, sorğu-sual var. Behişt və cəhənnəm var.

Məlaikə deyər:

-Dünya 5 gündür! Birinci gün RUH aləmində idin; 2-ci gün ana bətnində idin; 3-cü gün dünya səni gözləyirdi, məlaikə ona bir sillə vurar və “xaric ol! deyər. Uşaq mələyin qorxusundan xaric olar,

ağlaya-ağlaya doğular, "inqa" deyər. İNQA bir mələkdir. O, uşağa ana bətnində qulluq edər, dərs verər, doğuzdurar. Doğulmus usağın sağ qulağına adını deməklə, sol qulağına qulhüvəllah və həmd surəsi oxunmalıdır. Ana usağı yatırdanda lay-lay oxuyur.

***Ana "LAY-LAY" deyərkən, eynən, "LA İLAHƏ İLLƏLLAH" deyir ki, bu da şəriksiz ALLAHIN təsdiqinin ilk dərslərindən biridir.***

# HAL ATA

Həzrəti İmam Cəfər Sadiq (salavat salam olsun ona!) "Kitabi-Təhsil" adlı davatda yazmışdır ki, hər kim haram günlərdə, haram yerdə ailə yaşayışı edərsə, ondan olan uşaq qüsurlu olar. Hər kim Aşura günü (Məhərrəm ayının onu) qadınla yaşasa, onun uşağı ədalətsiz, dünya maIından gözü doymayan bir şəxs olar, həm də alim, seyyid və məzlum adamların qanını axıtmaqdan zövq alar. Hər kim qurban bayramında qadınla yaşayarsa, onun uşağı artıq bədən üzvləri ilə doğular. Məsələn, iyirmi dörd barmaq, üç-dörd əl-ayaq və ya ona oxşar şeylər. Kimsə Ramazan bayramında qadınla yaşayarsa, uşağının qarnı doymaz, gözü ac olar, qazancı isə olmaz. Kim Ay və Günəş tutulan zamanı qadınla yaşayış edərsə, cəllad olub (qan tökən), xüsusən, ana-bacısını, öz qohum-əqrabasını öldürər. Kim qadını aybaşı olanda onunla yaşayış edərsə, uşağin üzü qan ləkəsi ilə dolu xallı olmaqla bərabər, yalançı, hiyləgər, Şeytan sifətli olar (vələdi heyzdən əmələ gələn adlanar). Kim gecə qoz, əncir, fındıq, sənubər ağacı altında qadınla yaşayarsa, uşağı ürəyində dəlik, çatlaq doğular. Kim yaşayarkən söhbət edərsə, uşağı lal-kar doğular. Kim yaşayarkən biri digərinin cinsi orqanlarına baxıb zövq alarsa, onların usağı kor doğular. Kim xəyalında başqa arvadla və ya kişi ilə yaşayarsa, yaxud biri

yuxulu halda yaşayarsa, uşaq oğlan-qız və ya siyam əkizi olar. Kərahətli, haram yaşayış bunlardır.

Ana bətninə birinci on günundə düşən uşaq sağlam, saleh və pəhrizli doğular. İkinci on günündə uşağa qalan ananın usağı yarımçıq, şikəst doğular. Üçüncü on günlükdə ana batninə düşən uşaq dəli-divanə doğular.

Kəbinsiz doğulmuş uşaq atasının varisi deyil. Atadan irs almaq haqqını itirər, atasız sayılar. Bicdən də varis ola bilməz! "Fürqan"da Həl Əta Sürəsinin təfsirində Adəm övladının bir damla murdar su damlasından necə yaranması haqqında geniş məlumat verilmişdir.

# QAÇ, AT BASDI

*(Lətifə)*

Bir nəfər gənc oğlan evlənmək istəyir. O, məsləhət üçün Bəhlul Danəndənin yanına gəlib deyir:

- Ey Bəhlul Danəndə! Mən bir qıza aşiq olmuşam, onu alım, ya almayım?

Bəhlul qamış atına bir qamçı vurub deyir:

- Özün bilərsən.

Gənc oğlan deyir:

- İstədiyim qiz deyil, duldur. Onu alım, ya almayım?

Bəhlul qamış atını bir də cövlan etdirib cavabında deyir:

- Özüm bilərəm!

Arvad almaq istəyən kisi Bəhlulun cavabından heç nə başa düşməsə də deyir:

-Ya Bəhlul! Almaq istədiyim qadınıın bir uşağı da var, onu alım, almayım?

Bəhlul qamış atını minib kişinin ətrafında sürə-sürə ucadan qışqırır:

- Qaç, at basdı! Qaç, at basdı!

Kişi eşitdiklərindən və gördüklərindən heç nə anlamır, Bəhlula tərəf sərtlənərək deyir:

- Ey Bəhlul! Səni Danəndə bilib məsləhətə gəlmişdim, sən isə mənə əməlli-başlı bir cavab vermədin.

Bəhlul əhvalını pozmadan qamış atını düz onun qarşısında şahə qaldıraraq deyir:

- Mən cavab verdim, sən qanmadın! Ey qafil insan, qulaq as! Qız alsaydın, nə etsəydin, qız deyərdi, özün bilərsən! Dul alsaydın, nə desəydin, dul qadın deyəcəkdi, özüm bilərəm - özü bilməsəydi, boşanmazdı ki! Madam ki, yanı balalıdı, onda "qac, qaç at basdı!" olacaq. Ana-bala səni minəcəklər!

Bəhlul qamış atını bir də mahmızlayıb oradan uzaqlaşa-uzaqlaşa ucadan deyir: "Qaç, at basdı, vəssalam."

***Əleykə vərəhmətullahi və bərəkatu!***

# QƏFFARIN QULU

Əbdül Ğəffar Allahın qulu deməkdir. Ğəffar Allahın adlarındandır. Əbdül Ğəffar Nuh peyğəmbərin ata-anasının ona qoyduğu addır. Əbdül Ğəffarın atası Nun peyğəmbərdir. Nuh tufanından sonra Əbdül Ğəffarın düzəltdiyi gəmidə nicat tapmış insanlar onu ikinci Adəm kimi adlandırmışlar. Əbdül Ğəffar Əleyhissəlam çox ağıllı, riyazi-fiziki və astronomiya elmlərini bilən, Allahdan vəhyi qəbul edən mürsəl peyğəmbərlərdəndir. İnsanlara nicat verən Peyğəmbərə salavat salam olsun!

Hz. Əbdul Ğəffar beş yüz ildən çox yaşamışdır. Yaşadığı yer indiki İraq dövlətində olan Ney dağının ətəyində, Fərat çayının yaxınlığında idi. O yer Neycəfül Əşrəf adlanır. Hz. Əbdül Ğəffar doqquz oğul və iki qız atası idi. O, qoyun-quzu saxlamaqla bərabər bağbanlıqla da məşğul olurdu. Adəm dinini sevən və Allaha iman gətirmiş, doğru olan Allahın varlığını təbliğ edənlərdən idi. Ona inananlar az idi. İnsanlar Allahın varlığını tanımaqdan uzaqlaşmışdılar. Həzrəti Nuh əlini Allah dərgahına qaldırıb onlara bəla istədi.

Həzrəti Nuh bir gün ulduzları seyr edərkən gördü ki, ulduzlar arasından bir quyruqlu ulduz səmtini dəyişib yer kürəsinə doğru süzür. Hz. Nuh yer üzərində quyruqlu ulduzun yerə çatmasını hesablayıb onun yüz ilə Yer kürəsinə çatacağını və Yeri məhv

edəcəyini müəyyən etdi. Hz. Nuh əllərini Allah dərgəhına qaldırıb dedi:

-İlahi, gələn bəlalardan Adəm övladlarını qoru.

Yaradandan vəhy gəldi:

-Ey Əbdül Ğəffar! Sənin qövmün səni, mənim yaratdıqlarım məni qəbul etmədilər. Odur ki, sənin qövmünə göylərdən bəla endirirəm! Səni eşidən iman əhlilərini qoru.

Əbdül Ğəffar dedi:

-Yaradandan gələn bəlanın qarşısını yaranmış necə ala bilər?

Ulu Tanrı dedi:

-Əbdül Ğəffar! Elmindən yararlan! Səhranın hündür yerində gəmi hazırla ki, o gəmi sənin qövmünə nicat versin.

Hz. Əbdül Ğəffar Allahın vəhyini eşidəndən başına döyüb ağlayırdı. Bir gün İblis əleyhi-lənət Nuh peyğəmbərin yanına gəlib dedi:

-Ey Nuh! Sən gəmi düzəltməklə qövmünü sellərdən qurtara biləcəksənmi? Adəm övladının sonudur. İblis ovladlarının arzu etdiyi gündür, ömrünü tükətmə! Gəmi hazırlama, ye, iç, son gününü gözlə.

Hz. Əbdül Ğəffar lənətlənmiş İblisə dedi:

-Allah sənə öz lənətin göndərsin. Sən mənim, həm də Yaradanın düşmənisən. Sən Adəm övladlarını vəs-vəsənlə yoldan çıxardıb münafiqlərdən etdin. Rədd ol!

Əbdül Ğəffar İblisi o yerdən qovdu. Hz. Əbdül Ğəffar Fərat çayı boyunca yüz iyirmi dörd min on üç ədəd xurma ağacı əkdi. Yetmiş il onları becərdi. Sonra onları doğrayıb Ney dağına tərəf daşımağa başladı. Bir az daşımışdı ki, gördü, yox, mən bu ağacları otuz ilə daşıya bilmərəm, nəinki gəmi düzəldəm. Birdən insan əjdahası Ooc ibn-Ənaq yadına düşdü. Fikirləşdi ki, Oocu tapıb bu ağacları ona daşıtdırsın.

## HAŞİYƏ

Ooc kimdir? Niyə ona insan əjdahası adı veriblər? Ooc ibn-Ənaq uca boylu, iri bədənli, əxlaqsız bir qadının oğlu idi.

Həzrəti Nuh onu Fərat çayında balıq tutarkən tapdı. Gördü Oocun dizləri çayın suyundan çox yuxarıda qalıb. Həzrəti Əbdül Ğəffar Oocu səsləyib dedi:

- Ey Ooc! Sudan çölə çıx, sənə ehtiyacım var.

Ooc sudan çölə çıxıb səhra qumlarının üstündə oturdu. (Həyatəl Qülub kitabında yazıldığına görə). Yetmiş iki qol boyu olan Əbdül Ğəffarın boyu Ooc oturduğu vəziyyətdə Oocun göbəyindən imiş. Ooc dedi:

-Allahın Peyğəmbərinin bic adama necə ehtiyacı olar, məndən nə ehtiyacın var?

Nuh dedi:

-Mən Fərat çayı sahilində xurma ağacları əkmişdim, onları doğramışam. O ağacları Ney dağına daşımağını istəyirəm.

Ooc dedi:

-Mən dəryalardan hər gün minlərlə balıq tutub isti qumların üstünə atıram. Günün istisi onları bişirir, yeyirəm, yenə ac qalıram. Əgər mənim bir gün qarnımı doyursan, sənin bütün ağaclarını bir günə Ney dağının yanına daşıyaram.

Həzrəti Nuh "Ucubunuqla"(Ooc ibn-Ənaq) razılaşdı. Ooc Əbdül Ğəffarı öz çiyinlərinə alıb Ney dağına gətirdi. Nuh gəminin tikiləcəyi yeri Ooca tanıtdırdı və ordan Fərat cayı sahillərinə gəldilər. Daşınacaq ağacları Ooca göstərdi. Ooc Həzrəti Nuhu öz çiynindən yerə qoydu və dedi:

-Ey Allahın Peyğəmbəri! İndi qarnımı doyurmasan, bütün ağacları Fərat çayına atacagam, sel aparacaq, sən ağacdan olacaqsan, mən də qarnımdan!

Əbdül Ğəffar qurşağından kiçik bir darı çörəyi çıxardıb Ooca verdi və dedi:

-Ey Ooc! Bu çorəyi yeməmiş mən deyən sözü təkrar elə: "Bismillahir Rəhmanir Rəhim" (Rəhman Rəhim olan Allahın adı ilə).

Ooc da təkrar etdi və darı unundan bişirilmiş çörəyi yedi. Ooc gördu ki, çox ətirli çörəkdir. Çörəyi yeyən kimi heç doymayan qarnı kiçik çörək yeməklə doydu. O, ağaclardan hər qoltuğuna bir

qədər götürdü və Həzrəti Nuhu da boynuna alıb gəmi düzəldiləcək yerə gətirdi. Ağacları qoltuğundan yerə töküb Nuhu çiynindən düşürtdü. Ooc dedi:

- Mən doğulduğum gündən indiyə qədər heç qarnım doymamışdı. Mənim günorta yeməyimi ver, gedim, ikinci növbə ağac gətirim.

Nuh yenə də ona bir darı çörəyi verdi. Ona "BismillahRəhmanir Rəhim" dedirdib çörəyi yedirtdi. Qarnı doyan kimi ağac gətirməyə getdi. Ooc bir qucaq da ağac gətirdi. Üçüncü çörəyi də "Bismillah" deyib yedi. Bir neçə günə cəmi yetmiş iki ədəd çörək yedi. Yüz iyirmi dörd min on üç ağacı on iki günə daşıdı. Ooc dedi:

- Ey Əbdül Ğəffar! Mənim qarnımı doydurdun, mən indiyəcən doymamışdım. Əgər mənim qarnımı gəmini düzəldənəcən doyurmasan, ağacları geri daşıyacagam.

Nuh dedi:

- Əgər gücün çatırsa, ağacları geri daşı! Səninlə bağladığım müqavilədə sənın haqqını kəsmədim. Sənə hədiyyə olaraq bir dənə də çörək verirəm ki, sabah da qarnını doyurasan!

Ooc dedi:

- Həmişə mənim qarnımı doyurmasan, ağacları geri daşıyacagam.

O, ağaclardan bir qucaq götürüb aparmaq istədi, amma torpaq Oocu tutub saxladı. Ooc çox çalışdı,

torpaq onu buraxmadı. Ooc Əbdül Ğəffara yalvardı ki, torpağa desin, torpaq onu buraxsın. Söz verdi ki, sənin mənə ehtiyacın olmayana qədər səni narahat etməyəcəm.

Əbdül Ğəffar torpaqdan onu buraxmasını istədi, torpaq Oocun ayaqlarını buraxdı. Ooc Nuhun qorxusundan Fərat çayına balıq tutmağa getdi. Əbdül Ğəffar üç yüz altmış qol boyu gəminin uzunluğunun, yüz həştad qoll boyu eninin cizgisini torpaq üstündə çəkib nişanladı. Doqquz oğlunu çağırıb gəmini inşa etməyə başladılar. Ağacların çubuqlarından çivi (qadağ) düzəltdi. Ağac yapışqanından ağacları bir-birinə yapışdırdılar. Ağaclar su buraxmasın deyə arı mumunu ağacların arasına yaxdılar. Gəmini o vaxtın ilinə görə iyirmi bir ilə başa gətirdilər. Gəmi aşmasın deyə, onun ətrafını qum təpələri ilə doldurdular. Həzrəti Nuh camaata elan elədi:"Kim Allahın varlığına inanıb bu gəmiyə minsə, göylərdən gələn bəladan nicat tapacaq. Kim Allahı tanımırsa, tufanda Allah bəlasına düçar olub məhv olacaq. "

Camaat Nuhun səhrada tikdiyi böyuk gəmiyə tamaşa eləməyə gəlirdilər. Nuh Peyğəmbəri lağa qoyur, onun gəmisinin içərisində gəzib öz nəcasətlərini gəmiyə tökür, divarlarına sürtürdülər. Gəmidən ədəbxana kimi istifadə edirdilər.

## HAŞİYƏ

Bir gün Nuh şəhərdə gəzərkən bir qoca qarı ona rast gəldi. Qarı dedi:

-Ey peyğəmbər, tufan olanda mənə də xəbər et, mən də sənə və sənin Allahına inanıram. Məni də o gəmiyə götür ki, mən də göylərdən gələn bəlalardan qorunum.

Nuh əleyhissalam qarıya dedi:

-Təndirindən su çıxanda gəmiyə minməyə gələrsən. Səni gəmiyə götürməyə söz verirəm.

Günlər keçdi. Allah Təbarəkə Təaladan Əbdül Ğəffara vəhy gəldi:

-Ey Əbdül Ğəffar yer üzərində olan hər heyvanatdan bir erkək, bir dişi gəmiyə götür. Bütün ağacların cavan şivlərindən, toxumlarından götür.

Nuh dedi:

-Münafiqlər gəmini xarab etmişlər.

Allahdan yeni vəhy gəldi:

- Gəmini batıranlar özləri təmizləyəcəklər.

Camaat arasına cüzam, vəba, qotur xəstəliyi yayıldı. Qoturun və cüzamın ağrı-acısına dözə bilməyən camaat qaşınan bədənlərini Nuhun gəmisinə sürtürdülər. Kim bədənini gəmiyə sürtürdüsə, qotur xəstəliyi sağalırdı, qaşınma kəsilirdi. Kim bədənini gəminin içində olan insan nəcasətinə bulayırdısa, onda olan cüzam xəstəliyi yox olurdu. Kim insan nəcasətini suya qatıb içirdisə, vəba xəstəliyindən

nicat tapırdı. Gəmidə olan bütün nəcasəti onlar qaşıyıb təmizlədilər. Onlar xüsüsi rəndə hazırlayıb gəminin içərisini də, çölünü də qaşıdılar. Qotur, vəba və cüzam xəstəliyini sağaltmaq üçün olanlara gəmidən daşıdıqları nəcasəti baha qiymətə satırdılar. Gəmini su ilə yuyub gələcəkdə olan xəstəliklər üçün ehtiyat saxlayırdılar. Həzrəti Əbdül Ğəffar gəmini dörd mərtəbə tikmişdi. Aşağı mərtəbəyə vəhşi heyvanları, ikinci mərtəbəyə əti yeyilən ev heyvanlarını, üçüncü mərtəbəyə sürünən heyvanları və heyvanlar üçün ot və dənli bitkiləri yığdılar. Ev və çöl quşları üçün dən yığdılar.

Həzrəti Əbdül Ğəffar gəminin ortasında yerləşdirdiyi dor ağacını dörd guşədən ciyə ilə bağlamışdı. Yuxarı mərtəbənin hər tərəfi bağlanmışdı ki, günəş işığı gəminin içərisinə düşməsin. Peyğəmbər özü və ona inanan otuz altı cüt insanı gəmiyə yığmışdı. Həzrəti Nuhun səkkiz oğlu və iki qızı gəmiyə mindi, doqquzuncu oğlu Kənan gəmiyə minmədi. Həzrəti Nuh oğlu Kənana çox dedi, çox yalvardı ki, gəmiyə minsən, tufandan qorunarsan. O isə atasını eşitmədi, dedi:

-Mən Ney dağının zirvəsinə çıxacağam. Ov eləyib dolanacağam. Nə sənə, nə də sənin Allahının tufanına inanmıram. Dağın zirvəsinə su çıxmayacaq ki!?

Allahdan Əbdül Ğəffara Vəhy gəldi:

-Ey Əbdül Ğəffar! Oğlun nə səni eşitdi, nə Yaradanını tanıdı, nə də mənə iman gətirdi. Gəmiyə min, arxaya baxma! Arxaya baxmış olsan, sənin peyğəmbərliyini əlindən alaram.

Kənan Ney dağına çıxdı. Yaradandan Ney dağına nida gəldi:

-Ey dağ! Mənim düşmənimi sinən üstündə saxlayıb qoruyursan?

Dağ nidanı eşidib elə çökdü ki, dağın yeri çuxur oldu. Çuxura yığılan suda Nuhun oğlu Kənan boğulub öldü. Allah düşmənini qorumayan Ney dağı çuxura dönüb Cəf adı aldı. Haliyədə həmin yerin adına "Ney Cəf" deyilir. Bəzi fərziyələrə görə üçünun Qəbri Nəcəfdədir. O yer indiki İraq dövlətində yerləşir. Neycəfül Əşrəf adı ilə tanınır. O yerin Türkcə mənası: Ney dağından yaranmış şərafətli yer, çuxur deməkdir. Tufandan qabaq Allah tərəfindən bəlaya düşmüş Nuhun kiçik oğlu Kənan tufan başlamamış Allahın ilk qəzəbinə gələn və Cəhənnəmə vasil olmuşlardandır.

Həzrəti Əbdül Ğəffar gəminin möhkəmliyini içəridən və çöldən yoxlayırdı ki, gördü Ooc ibn Ənaq gəlir. Nuh soruşdu:

- Ey Ooc! Səni bura gəlməyə nə vadar etdi, bura nə məqsədlə gəlmisən?

Ooc dedi:

- Ya Əbdül Ğəffar! Mən günlərdir acam, hansı dəryaları gəzirəm, bir dənə də olsun balığa rast

gəlmirəm. Sən inandığın Allah xatirinə mənim qarnımı doydur.

Həzrəti Nuh onun həyatda qala bilməyəcəyini bilib ona üç ədəd darı çörəyi verdi. Ooc dedi:

-Mənə öyrətdiyin Rəhman və Rəhim Allahın adını yenidən öyrət ki, mən çörəyi yeyib doyum.

Hz. Nuh Bismillahir Rəhmanir Rəhim kəlməsini ona öyrətdi. Ooc Nuha dedi:

-Deyirlər, tufan olacaq, sənin gəmində olanlar tufandan qurtulacaqlar. O tufan başlayanda məni də gəmiyə götürərsən ki, mən də o tufandan qurtulum.

Nuh dedi:

-Tufanın haçan olacağını bilmirəm! Tufan başlayanda görəcəksən. Onda gəlib gəmiyə minərsən.

Ooc oradan uzaqlaşdı. Nuh gəminin üzərinə çıxıb dor ağacına ağ rəngli parçadan yelkən bağladı. Vəhy mələyi yer aləminə gəlib Əbdül Ğəffara dedi:

-Sənin gəmin dəryalarda tanınmaq üçün bir neçə hərf yaz.

Nuh dedi:

-Mən yazı yazmağı bilirəm ki, bir şey də yazam?

Həzrəti Cəbrayıl təkrar etdi: “Yaz!”

Nuh təkrar etdi:

-Yazı bilirəm ki, yazam.

Həzrəti Cəbrayıl qanadları ilə Əbdül Ğəffarın cisminin ətrafından, əlləri ilə onun başından və

çiyinlərindən aşağı sıxdı. Həzrəti Əbdül Ğəffarın gözlərindən Allah tərəfindən Hz. Adəmə verilmiş elm nuru alnına çökdü. Həzrəti Nuh elm təlimatı aldı. Həzrəti Cəbrayıl dedi:

-Yelkənə bir yumru dairə cız. Onun bir tərəfinə düz xətt çək. Onun ardınca göylərdən yerə gələn bəlanı canlandıran yuxarıdan aşağı xətt çək. Cızın ayaq tərəfindən qərbdən-şərqə doğru xırda cız çək ki, yarımçıq oxa bənzəsin. Yenə də yerdən göylərə doğru düz xətt çək. Onun da yuxarı tərəfindən aşağı tərəfə kiçik xətt çək!

Əbdül Ğəffar bu cizgilərin nə mənası olduğunu soruşdu. Cəbrayıl dedi:

-Yerdən göylərə qalxan düz xətt "a" hərfidir. Yazdığın A hərfi Allahın adı ilə başlayır. Yuxarıdan aşağı çəkdiyin bir tərəfli ox işarəsi "la" hərfidir. Üçüncü çəkdiyin dairə və ona birləşən xətt "mim" hərfidir. Dünyaya bəla göndərən və həmişə var olan Allahın adına işarətdir. Gəminin ortasından qaldırdığın düz xətt və ondan gəminin dörd tərəfinə birləşdirdiyin dörd ip "la" hərfinin dörd olmasını göstərir. Yelkənə bağladığın şərqdən qərbə, qərbdən şərqə uzanan iki ip gəmini idarə etmək üçün "mədd"(hərfləri uzat deməkdir işarəsidir). Nuh Əleyhssəlam vəhy mələyindən soruşdu:

-Məqtəə (Qurani-Kərimdə surələrin başladığı şifrəli hərflərdir) hərfləri nə deməkdir?

-Bu, əlif, laam, miim deməkdir - yəni, əlif bir, dörd lam, dörd mim deməkdir. Oxunuşda mənası "La İlahə İlləllahil Məəbud" deməkdir, yəni yoxdur Allahdan başqa Allah ki, əbədi olsun. İkinci mənası "La İlahə İlləllahi Məhəmməd ər-Rəsul Allah" deməkdir.

Hz. Nuh Cəbrayıldən soruşdu:

-Kimdir O Məhəmməd ki, Allahın adi ilə birlikdə yazılır?

Həzrəti Cəbrayıl buyurdu:

- Sən Adəmin nəslindən gələn ikinci Adəmsən, "Məhəmməd Rəsulləllah Ənbiyaların sonuncusudur. O, Əşrəfi kainatdır! Üçüncü Adəm onun soyundan gələn Məhdi Sahibəzzəmandır! (salavat salam olsun ona!) Ey Əbdül Ğəffar! Adəm baban iyirmi dörd min il bundan qabaq yaradılmışdır. Ondan qabaq da canlılar yaşamışlar. Adəmdən qabaq əlli dörd Adəm dünyaya gəlmiş və Allah tərəfindən məhv edilmişdir. On bir ulduz ayrı-ayrılıqda bir Günəşin ətrafina dolanırdılar. Adəm Behiştdən xaric edildiyi gün o ulduzlar Günəşlə birlikdə bir xətt üzrə düzülmüşdülər. O gün Adəmin bəlaya düşdüyü gün idi. Göylərə tamaşa etsən, görərsən, iyirmi dörd min il bundan qabaq bir xətt üzrə düzülmüş ulduzlar yenidən bir xəttdə düzülmüşdür. Demək, Adəm soyundan gələnlərin dövrü sona yetmişdir. İkinci Adəm olaraq zamanın yeni insanlarının- sənin soyundan gələnlərin dövrü

başlayır. Sənin də soyundan gələnlər iyirmi dörd min il ömr edəcəklər. Ulduzların Günəş ətrafında bir xətt üzrə düzülüşündən yüz əllı il sonra üçüncü Adəm-- Sahib əl-Zaman dövrü başlayacaq. Adəm övladları üç mərhələdə yetmiş iki min il yaşayacaq. Ey Nuh, gəminin üzərində qaldırdığın ağ yelkən Allah qarşısında öz zəyifliyini təsdiq etməkliyinə, təslim olanlardan olmağına işarədir! Ey Nuh, sən də təslim olanlardansan! Allaha təslim olanları Allah bağışlayar və onlara Rəhm edər. Min gəminə ki, Allah tərəfindən gələn bəla yerə enir, gəminin bütün qapılarını bağla ki, gəmidə olanlar gəmidən çöldə olan hadisələri görməsinlər. Göydən gələn ulduz (meteroid və ya kametlərin) yana-yana onların üzərinə düşməyini görməsinlər. Meteroid yağışlarını görənlər vahimədən ölərlər. Odur ki, bütün qüşları, heyvanları və insanlari xəbərdar et.

O zaman kiçik göy cisimləri yana-yana yer üzərinə düşürdü. Həzrəti Nuhun qorxduğu quyruqlu ulduz nəhənglər dəryasına düşdü. Kiçik torpaq sahələrində çatlaqlar yarandı, çatlamış torpaqların və qumların arasından sular çölə püskürməyə başladı. Göylərdən leysan yağışı yağırdı. Günəş işığı görünmürdü, yer-göy qaranlığa bürünmüşdü. Yerdə elə zəlzələlər olurdu ki, dəryalarda yaranan sunamilər suyu qaldırıb torpaq sahələrinin üzünü örtürdü. O zaman Həzrəti Nuhun gəmisi yaranmış sunamilərdən bütün Dünyanın üzünü örtən dərya-

ların üzünə qalxdı. Gəmi Neycəf səmtindən Kufə səmtinə tərəf üzdü. Dəryalarda canlıların nalə səsləri gəmidə olanların qulaqlarını batırırdı. Hz. Nuh gəmidə olan vəhşi heyvanlara ev heyvanlarının südünü sağıb verirdi. Ev heyvanlarına isə yem verirdi. Quşlar üçün isə gəmiyə yığdıqları dənli bitkidən verirdi. Altı ay su üzərində qalan gəmidə çox hadisələr olurdu. Mamont nəslindən olan fil asqırıb burnundan bir cüt donuz balası düşdü, donuz balaları asqırdı, burnundan siçovullar düşdü. Siçanların sayı artdıqca gəmiyə zərər vururdular, gəmini deşik-deşik edirdilər. Dələbə gələn atla eşşək cinsi əlaqəyə girdi, başdan eşşəyə, bədənindən ata oxşar qatır doğuldu. Cütlənən bəbirlər pişik balaları doğdular. Pişik balaları siçanları yeməyə başladılar. Hz. Nuhun gəmisi Kufə tərəfdən keçərək indiki Kəbədə olan "Həcər ül-Əsfət"(Qiyamət günü insanların mühakimə olunacağı yer) daşının başına üç dəfə dolandı, "Cudi" dağına tərəf yol aldı.

Bir gün Nuh Gunəşin çıxdığını gördü, gəmidən sahillərin ona nə qədər yaxın olduğunu bilmək üçün havaya iki qarğa uçurtdu. Qarğalar dəryaların üzərində üç gün uçub gəmiyə qayıtdılar, torpağı tapa bilmədiklərini xəbər verdilər. Nuh bir neçə gündən sonra hüt-hüt quşlarını uçurtdu. Onlar da üç gün dəryaların üstü ilə uçub torpaq sahəsinin olmadığını dedilər. Bir neçə gündən sonra yenə də

gün işığı göründü. Hz. Nuh bir cüt göyərçini gəmidən xaricə uçurtdu. Göyərçinlər altı gündən sonra geri qayıtdılar. Birinin ağzında zeytun yarpağı, digərinin ağzında kiçik daş parçası gətirib Nuhun ovucuna qoydular. Həzrəti Nuh bildi ki, tufanlar dayanıb, torpaq sahələrinə yaxınlaşırıq. Nuhun gəmisi cəmi altı ay dəryalarda üzdükdən sonra Cudi dağının arasındakı ilanlı qayaların yanında ilişib qaldı. Dəryaların suyu çəkildikdən sonra Həzrəti Huh gəmidə olan quşları qəfəslərindən azad edib gəmidən bayıra uçurtdu. Quşlar dağlara qondular. Sürünən heyvanları gəmidən azad etdi, hələ suyu qurumamış gölməçələrə tərəf getdilər. Üçüncü dəfə vəhşi heyvanları suyu çəkilmiş çöllərə və səhralara buraxdı. Sonuncu dəfə ev heyvanları və gəmidəki bütün insanlar torpaq sahələrinə düşdülər. Sonuncu olaraq nicat gəmisindən Nuh Əleyhissəlam özü də torpaq sahəsinə çıxdı. Cudi dağlarında gəminin dayandığı yer, Nuh çıxan yer adlanır. Nuh çıxan yer şimali Azərbaycan ərazisində yerləşən “Naxçıvan” kimi tanınır. Naxçıvan ilk insan ayağı dəydiyinə görə orada elmli adamların çox olması da o səbəblə bağlıdır.

Nuhun tufanı başlayandan qabaq bir gündüz, bir gecə, yəni gecə otuz altı saat, gündüz otuz altı saat idi. Həzrəti Adəmdən sonra Nuha qədər olan iyirmi dörd min ildə olan günlər yetmiş iki saat olmuşdur.

Həzrəti Nuhun qorxduğu yer üzünə tərəf gələn quyruqlu ulduz Atlantik okeanında olan üç bucağa oxşar adalara yaxın düşmüş, orada hələ sönməmiş vulkan püskürmələrinə təkan vermişdir. Vulkan püskürmələrinin failləri birləşərək adaların arasında böyük vulkan dəliyi yaratmışdır. Qazı çıxmış vulkan dəliyindən okeanların suyu yerin altına axmağa yol tapmışdır. İndi "Bermud üçbucağı" adlanan, sirri bilinməyən möcüzəli bir yer kimi tanınır. Ora yer kürəsinin qara qapısıdır. Nuh və Adəm peyğəmbərlər arasında olan iyirmi dörd min il ərzində havalar Cənnət havası kimi olmuşdur. Nə isti yay, nə soyuq qış olmuşdur. Həmişə yaz kimi olan bu dünyada, okeanların arasında kiçik-kiçik torpaq sahələri: indiki Afrika, Ərəbistan, Orta Asiya torpaqları var idi. Qışı və yayı olmayan yerdə iri gövdəli canlı heyvanlar da yaşayırdı: əjdahalar, mamontlar, dinozavrlar və başqa iri gövdəli yırtıcı heyvanlar. Göylərdən yerə quyruqlu ulduz (böyük kamet) düşdükdən sonra Yer kürəsinin öz oxu ətrafında fırlanma sürəti artmışdır. Sürət artdığına görə sular mərkəzdən qaçaraq qütblərə doğru çəkilmişdir. Yerdə külək artdığına görə buzlaşma dövrü başlamışdır, soyuğa dözməyən canlı heyvanlar sunami nəticəsində yaranan dalğalarda boğulmuş, gilli məhlullar altında qalmışlar. İndi arxeoloqlar o heyvanların sümüklərini qazıntı nəticəsində aşkara çıxarır, onların milyon il bundan

qabaq buzlaq dövründə öldüyündən xəbər verirlər. O heyvanlar milyon il yaşasa da, Nuh tufanında yaranan soyuqlarda, dünyanı basan sellərdə qırılmışlar.

Bermud üçbucağının insanlar üçün xeyri nədən ibarətdir? Okeanların suyu fasilələrlə yerin altına axarkən suda burulğan yaradır. Su yerin altına getməklə hava burulğanı yaradır. Ozon qatına qədər yüksələn vahid Tornada belə yaranır. Dünya üzərində olan zəhərli, zəhərsiz havalar su burulğanına qarışaraq yerin birinci qatına daxil olur. Otuz, əlli, yüz kilometr dərinlikdən hava ilə qarışaraq sürətlə axan yeraltı çaylar, çeşmələr, ceyhunələr və göllərlə suyun və havanın tərkibində olan zəhərli maddələr qum və gillərin arasından süzülərək torpağın üst qatı ilə dünyanın özəyindən gələn üç min, beş min dərəcə istilik arasında soyuq köynək yaradır. Odur ki, yerin üstü soyuq qalır. İstilikdən qaynayan yeraltı çaylar isə qabığı çatlamış yerlərdən xaric olur. O cümlədən, dağlardan, dərələrdən, dənizlərdən axaraq yerin üstünün yanmasının qarşısını alır. Su ilə qarışan hava təmizlənib oksigen halına düşərək topraqlardan, sulardan çıxıb atmosferə qarışır. Bizi Yaradan Allah bizi yaşatmaq üçün havanı, suyu yerin altında təmizləyir. Yeryn özəyində qaynayan lavalardan ayrılan dəmir, uran, qızıl, kömür, neft və ya bizə lazım olan başqa maddələri yaradır. Axar sulara

qarışdırıb torpağın üz qabığında olan mədənlərə paylayır. Bizi yeraltı sularla təmin edir. Torpaqaların yanmasından xilas edir. Zəhərli havanı zəhərdən təmizləyib yenidən bizə qaytarır.

Bermud üçbucağından sular yerin altına axarkən su girdabında yaxalanan gəmilər idarəetməni itirərək, hava və su burulğanına düşər, həmin dəliyə gedib məhv olardı. Su burulğanı dayandıqdan sonra dəryalar sakitləşir. Vahid hava burulğanı Tornada və ya Tayfun parçalanır, kiçik–kiçik hava burulğanı olaraq, ora yaxın olan torpaqlarda, ayrı-ayrı adlarda fəsadlar törədər.

***Qeyd:***

***Yuxarıda göstərdiyim "Bermud üçbucağının sirri" müəllifin şəxsi mülahizələridir.***

Həzrəti Nuh və qövmü Ney dağına yaxın gəldikdən sonra orada tufan üzü görməmiş kiçik daxma gördülər. Həzrəti Huh daxmaya getdi. Gördü ki, bir qoca qarı təndirə çörək yapır.

Qarı Həzrəti Nuhdan soruşdu:

-Ya Əbdül Gəffar! Sən deyən tufan haçan olacaq?

Hz. Nuh dedi:

-Tufan üc yüz altı gün bundan qabaq oldu. Biz altı ay gəmidə su üzərində yaşadıq. Gəmi yerə

çökəndən sonra bura gəldik. Ey qarı, tufan olan vaxt sən harada idin?

Qarı dedi:

-Tufandan qabaq xəmir etmişdim ki, gəmiyə minərkən özümlə çörək də aparım. Xəmir acıyana qədər pəncərənin ağzında dirsəklənib yatmışam. Yuxudan ayılanda gördüm ki, xəmir acıyıb. İndi çörək bişirirəm. Mənim təndirimin yaxınlığına yağan yağış hələ təndirə gəlib çatmayıb.

Həzrəti Nuh əllərini Allah dərgahına qaldırıb şükür etdi və dedi:

- İlahi! Sənsən Rəhman Rəhim! Günahkar bəndənin yaddaşından çıxartdığını sən qoruyubsan, məni qarının yanında xəcalətli etməmisən. Sənsən adil! Sənsən zalimlərə zillət verən! Sənsən Həqq! Sənsən Rəhim! Əlhəmdü Lillahi Rəbbil Aləmin!

Həzrəti Nuh Fərat çayı sahilində hər ailə üzvü üçün sığınacaq yeri düzəltdirdi. Nuh Əleyhissəlam özü ilə gətirdiyi ağac fidanlarını əkib, gətirdiyi ot, ələf toxumlarını yer üzərinə səpdi. İllər keçdikcə tufan qorxusundan boyu qısalmış kiçik insanların hündürlüyü on qol boyundan hündür deyildi. Adəm Əleyhissəlamın boyu çox uca olduğuna görə uşaqlarını oynadıb sevə bilmirdi. Adəm əllərini Allah dərgahına qaldırıb dedi:

- Mənim boyumu qısalt, uşaqlarım çox kiçik, mən isə çox ucayam.

Allah Təala Adəmin sözünü eşidib boyunu bir dəfə kiçiltmişdi. Boyu buludlardan çox aşağı olmuşdu. Həzrəti Adəm nəvəsi olanda da yenə əlini Allah dərgahına qaldırıb bir daha boyunun kiçilməsini Allah Təaladan istixasə etmişdi. Nəticəsi olanda isə axırıncı dəfə onun boyunun qısalmasını Allah Təaladan təmənna etmişdi. Yaradan Tanrı Adəmin boyunu Adəm istədiyinə görə kiçiltdi, on qol boyundan az etdi.

Nuhun qövmü artdıqca Nuh Əleyhissalam da təzə dünyaya gələn körpələrə elm tədrisi ilə məşğul olurdu. Huh Kufə şəhərini elm mərkəzi kimi inşa etmişdi. Nuh Əlehissalamın kəşf etdiyi kufə hərfləri iyirmi iki min il həyatda qalaraq insanların kamilləşməsi üçün vasitəçi olmuşdur. Huh Əleyhissalam tufandan sonra bütün canlıların yer üzündən silindiyinə görə gecə-gündüz ağlayıb növhə deyirdi. Ona görə də Əbdül Ğəffar adını dəyişdirib, növhə deyən peyğəmbər kimi tanıtdırırdılar. Yəni NUH--ağlayan, şeir və növhə deyən, növhəgəran kimi mənalandırıldı.

Huh Əleyhissəlam dünyanı fani, vəfasız kimi dərk edirdi. Ancaq başını və sinəsinin üstünü örtə bilən daxmasında uzanmışdı. Oğlu Ham atası Huhun bir hissəsinin çöldə qaldığını görüb qardaşı Samı çağırdı ki, atasına baxıb o da gülsün. Sam qardaşına dedi:

- Atamda gördüyün bu bədəndən hamımızda var. Heç utanmırsan, valideynini lağa qoyursan.

Nuh Əleyhissalam yuxudan ayılıb bu hadisəni gördü, oğlu Hama dedi:

- Oğul, Allah sənign Qiyamət günü yanıma üzü qara gətirsin, balalarını dünyada qalan qardaşlarına qul etsin.

Üstündən zaman keçdi. Hamın arvadı bir cüt uşaq doğdu. Uşaqlar qara və qırmızı zənci rəngində doğulmuşdular. Bunu görən Ham uşaqlarına görə xəcalətindən oranı tərk edib meşələrə getdi, bir daha geri qayıtmadı. Bəzi kitabələrdə Hamın ailəsi ilə birlikdə Afrika qitəsinə köçdüyü və orada yaşaması haqqında yazılmışdır. Başqa xəbərlərdə isə uşaqları böyüyüb, atalarını axtarıb tapmaq üçün meşələrə gediblər. Onlar meşədə azıb qaldılar. Mer-meyvə, balıq və çöl heyvanlarının əti ilə həyatlarını davam ediblər və öz nəsillərini artrıblar.

Həzrəti Nuhun zamanında bütov torpaq sahələrindən su ilə ayrılan böyük torpaq sahələrindən birində AFRİKA qitəsinin sakinləri yaşadılar.

## *OOÇ İBN ƏNAQIN HEKAYƏTİ*

Bir gün Nuh Əleyhissalam Ooc İbn Ənaqa səhrada rast gəldi. Həzrəti Nuh Oocdan soruşdu:

- Sən tufanda nələr gördün?

Ooc dedi:

- Mən heç bir tufan görmədim. Sən verdiyin çörəyin birini yedim, mənə öyrətdiyin BİSMİLLAH kəlməsini yadımdan çıxmasın deyə tez-tez təkrar edirdim. Başımı bu isti qumların üstünə qoyub yuxuya getmişdim. Yuxudan ayılandan sonra sən verən çörəyin yarısını "Bismillah"deyib yedim. Yarısı da qalır. Ancaq suya girib balıq tutmaqdan qorxuram.

Həzrəti Nuh soruşdu:

- Ey Ooc! Nədən qorxdun?

Ooc dedi:

- Mən boyumun ucalığına görə fəxr eləyirdim ki, Allahın peyğəmbərindən ucayam, Allaha ondan yaxınam. Bir gün çayda balıq tuturdum, əlimə bir balıq gəldi. Balığı bişirmək üçün səhraya atmaq istədim, gördüm ki, balığın nə başı, nə də quyruğu var. Balığı çölə dartdıqca nə başı sudan çölə çıxdı, nə quyruğu. Gördüm ki, mən yaradılmışların ən kiçiyiyəm. Odur ki, qorxuram balıq məni yeyər. Daha nə suya girirəm, nə də balıq yeyirəm. Mən ancaq sən verən çörəkdən bir tikə "Bismillah" deyib ağzıma qoyuram. Yeyəndən sonra məni yuxu

tutur, bu səhralarda yatıram. İndi də yuxum gəlir, yatmaq istəyirəm, tufan olanda mənə xəbər verərsən, mən də gəmiyə minib o qorxunc tufandan qurtulmuş olaram.

Həzrəti Huh bu hadisəni eşidib baş ağrısına düçar oldu. Nuh peyğəmbərin başi elə şiddətli ağrıyırdı ki, ağrıdan gözlərini aça bilmirdi. Aylar keçdi. Həzrəti Nuhun baş ağrısı kəsilmirdi. Nuh əlin Allah dərgahına qaldırıb Allahdan bu əzabın üzərindən götürülməsini istədi. Əzab Məlaikəsi yer aləminə nazil olub Nuh peyğəmbərə dedi:

- Ey Nuh! Bir parça götür, üzərinə bu hərfləri yaz: “KAF”, “HA”, “YA”, “EYN”, “SAD”.

Nuh peyğəmbəp o hərfləri parçaya yazdı. Vəstatus Məlaikə dedi:

-Yazdığın o parçanı başına dola!

Nuh peyğəmbər həmin parçanı başına doladı, baş ağrısı kəsildi. Elə şad oldu ki, güya dünya onundur. Yaylığı başına bağlayanda bütün dərdi, qəmi yadından çıxardı. Yaylığı başından açanda baş ağrısından və qəm-qüssədən ayrıla bilmirdi. Odur ki, o, yaylığı başından heç açmırdı.

Nuh peyğəmbər Kufə kəndində hərflərin tədrisi üçün mədrəsə açdı. Səkkiz oğlu və tufanda salamat qalan adamlardan, uşaqlarından ibarət tələbələr yığıb elm adamları hazırlamağa başladı. Məktəbdə bu elmlər tədris olunurdu: Biologiya elmi (bitkilər və canlılar elmi), Riyaziyyat (Hesablaşma, yəni

razılaşdırma elmi), Astronomiya (yəni göy cismlərini öyrənən elm) və Təbabət elmi (tibb elmi, dərman hazırlamaq).

Dərs alan tələbələr iqlim dəyişikliyinə görə və tufandan əvvəlki dövrlərdən fərqli olaraq Günəş sistemindəki dəyişikliklərə aid elmi araşdırmalar aparırdılar. Onlar yüz il Yerin Günəş ətrafında dolanmasını, ayın yer ətrafında və yerin öz oxu ətrafında fırlanmasına görə Günəş saatlarını təyin etdilər. İlin üç yüz altmış beş və üç yüz altmış altı günlərini dörd fəslə, hər fəsli üç aya böldülər. Ümumi on iki aya ayrı-ayrılıqda ad qoydular. Birinci ayı BALIQ ayı adlandırdılar. İndiki fevral ayının on dördündən mart ayının on dördınə kimi. İkinci ayı mart ayının on beşindən aprel ayının on beşinə kimi QOÇ ayı adı ilə adlandırdılar. ÖKÜZ ayı adını üçüncü aya verdilər. Bunlar da səbəbsiz deyildi. Yer öz oxu ətrafında fırlandıqca, ulduz ailələrinin düzülüşünün heyvan və cansız əşyalara oxşarlığına görə ad qoyurdular. Məsələn: balıq ayı balığa oxşar ulduz ailəsinin adı ilə adlandırılmışdır. Qoça oxşar ulduz ailəsinin ayı qoç ayı adlandı. Öküz ailəsinə tuş gələn zaman kəsiyinə ÖKÜZ ayı adı qoydular. Çox vaxt AY əvəzinə BÜRC də deyilir.

Balıq ayı və ya Balıq bürcü adlanmasının səbəbini araşdırmağa çalışaq: Bu qış ayından o biri qış ayına qədər (Oxatan ayına qədər) əkib becərdikləri

məhsulların yığımı tamamlanır. Yalnız Balıq ayında torpaq və suların qızmasına görə suda yaşayan soyuqdan donmuş balıqlar isinmiş suda ayılır və su axarına doğru kürü tökməyə üzürlər. Balıq sonuncu məhsul kimi ovlanır və balıq məhsulunun yığımı olduğuna görə Balıq ayı və ya Balıq bürcü adlandırılır.

Tərəzi ayı və ya Tərəzi bürcü haqqında: Payız fəslinin əvvəlində əkindən alınan məhsulları tərəziyə vurub insanların istifadəsi üçün saxlanma yerinə doldururlar.

Əkizlər ayında (Əkizlər bürcü) insanlar ailə həyatı qura bilərdilər.

Şir ayında (Şir bürcü) tayfa ağsaqqalı seçilirdi.

Oxatan ayında (Oxatan bürcr) tayfalar arasında olan münaqişələr danışıq yolları ilə və ya hərbi yolla həll edilirdi. Hər ayda müharibə etmək və ya uşaq evləndirmək mümkün deyildi.

Öküz ayı (Öküz bürcü) əkin ayi kimi gedirdi.

Əqrəb ayı (Əqrəb bürcü) insanlardan vergi toplama ayı idi.

Xərçəng ayında (Xərçəng bürcü) isə yaz əkini məhsullarının yığımı olurdu.

Qız və Qoç ayları (Qız və Qoç bürcləri) insanların dincəlmək və müalicə ayı idi.

Gecə və gündüzün bərabərliyi Miladi təqvimi ilə Mart ayının 21-nə düşür. Həmin gün təzə gün adlanır. Xalq bu günü NOVRUZ (Yəni Yeni gün) ad-

landırıb. Hamı həmin gün bayram edib və yenə etməkdədir. Ondan qabaqkı həftə ötən ilin son həftəsi hesab edilirdi.

Hər otuz üç il dörd ay bir qərinə hesablanırdı. Bu da yüz ilin üçdə biridir. Ayın Yer ətrafında fırlanması Yerin Günəş ətrafında fırlanmasından tez başa gəlir - üç yüz əlli beş günə bir ay ili tamamlanır. Yer isə Günəş ətrafinda üç yüz altmış beş günə dövrə vuraraq bir ilini tamamlayır.

Adəm əsrindən Nuh əsrinə qədər iyirmi dörd min il ərzində bir gundüz, bir gecə yetmiş iki saat idi. Huh tufanından sonra canlıların, o cümlədən, insanların məhv olması onu qəhr etmişdi. Şer və növhə deyib ağlayırdı. Çox növhə dediyinə görə ona növhə, ağı deyən - NUH adını vermişdilər.

Üç yüz on üç Mürsəl peyğəmbərə Allah tərəfindən göndərilmiş risalələrdə (kiçik kitabələr) Həzrəti Əbdül Ğəffar adı NUH BƏHİYULLAH adı ilə xəbər verilmişdir. Səmavi kitabələrdən İbrahim Əleyhissəlama Allah tərəfindən nazil olmuş “SÖHFDƏ,” Musa Əleyhissəlama nazil olan “TÖVRATDA,” Davud Əleyhissəlama nazil olan “ZƏBURDA,”İsa Əleyhissəlama nazil olan “İNCİLDƏ,” Məhəmməd əl-Müstəfa Əleyhissəlama Yaradan Tanrı tərəfindən nazil olan “FÜRQANDA” NUH adı ilə xəbər verilmişdir.

Nuh peyğəmbər tufandan sonra beş yüz əlli il ömr etmişdir. Ömrünün tamamlanmasına əlli il

qalmış Nuh tufanından sonra artan insanlar Nuhun onlara ağsaqqallıq etməsini istəmirdilər. Ona görə də onu öldürmək üçün müxtəlif hiylə və fəsadlar işlədirdilər. Yeddi göbək sonra dünyaya gəlmiş böyük Nəmrud Nuhun oğlu Yamın kötücəsi idi. İblis məlun Huh peyğəmbəri öldürmək üçün onları bir yerə toplayıb, peyğəmbəri öldürmək yollarını axtarıb tapmağı məsləhət gördı. Nuh övladları bir-birləri ilə razılaşdılar ki, sabah hamısı bir yerə yığışaraq babaları Nuhu öldürmək üçün fikirləşdiklərini söyləsinlər. Sabahkı gün hamısı bir yerə toplaşdı. Ancaq aləmləri xəlq edən tək hakim Allah Təbarəkə Təala onların dillərini dəyişdirdi. Onlar bir-birini başa düşmədilər və oradan dağıldılar. Nuh peyğəmbər onların hiylələrini başa düşüb səkkiz oğlunu yanına çağırdı və dedi:

- Oğlanlarım, mənim ömrüm tamamlanmaq üzrədir. İstəyirəm ki, Yer üzərini övladlarım arasında böləm ki, gələcəkdə aranızda münaqişələr olmasın. Siz atanıza xəyanət edə bilənlərdənsiniz.

Beləliklə, torpaqları oğlanları arasında bölüşdürməyə başladı: Yavəz və Tarikə Afrika qitəzindən Yeniseyin Şimal Buzlu Okeana töküldüyü yerə qədər, Himalay, yəni Sərəndib dağından İrtış cayının axdığı Səbir (İndiki Sibir cölü) çöllərinə qədər torpaqları verdi. Afrika və yeni topraq kimi tanıdığımız indiki Amerikanı oğlanları Ham və Kamran arasında böldü. Ağ dənizdən yuxarını -

Avropanı Ural dağlarına qədər Yam və Rəəs qardaşları arasında böldu. Saam və Rubil qardaşlarına Sərəndib dağları boyunca Ərteş çayının Sakit okyana töküldüyü yerə qədər (Sakit okeanla Hind okeanı sərhəd olmaqla) Hindistan və Çin torpaqları verdi.

Oğlanlarına əmr etdi ki, onlara verilmiş torpaqlara sahib çıxsınlar və orda yaşasınlar. Nuh peyğəmbər dünyanı oğlanları arasında belə bölmüşdü. Nuh peyğəmbər qövmünün ona qəsd etmək üçün toplandığı yeri, yəni ana dillərinin dəyişildiyi yeri BABİLLİSAN (dillər qapısı) adlandırdı. İndi o yerin adı BABİL şəhəri kimi tanınır. BABİLDƏ başqa dilləri öyrənmək üçün məktəblər açılmışdı.

Nuh peyğəmbərin bir gün Ooc ibn-Ənaq yadına düşdü. Oocun həmişə qumlar üstündə yatdığı yerə getdi. Həmin səhraya çatıb Ooc ibn-Ənaqı axtardı, ancaq tapabilmədi. Vəhy Mələyinin ona yazdırdığı yaylıq başında olsa da, Nuh Əleyhissəlamın başı ağrıyırdı. Əllərini Allah dərgahına qaldırıb Minacat etdi:

- İlahi! Bu nə sirrdir ki, mən hansı vaxt bu səhraya gəlirəm, qəm-qüssə və baş ağrısı məndən əl çəkmir. Bu sirdən məni agah et.

Allah Təaladan vəhy gəldi:

- Ey Nuh! Dayandığın yer Kərbübəladır. O yerdə sənin soyundan gələn Hüzeyn ibn-Əli şəhadətə yetəcək. İnsan əjdahası Ooc ibn-Ənaqın gözünü,

qarnını dəryalarda olan balıqlar doyurmadı. Bütün canlıları yeməyə qurşandı. Böyüyü fildən, kiçiyi siçana qədər yedi, yenə ac oldu. Vəhşi heyvanları və bura gələn insanları da yedi. Sənin nəslindən gələnlər ağıllı və elmli olsalar da, onlar da Ooc kimi çox vəhşi olacaqlar! Yaratdığım canlıların hamısını yeyəcəklər. Yaradılmışların şahı insandır, amma insanlar da insanları yeyəcəklər. Son peyğəmbərin nəslindən olan üçüncü Adəmin atası Hüseyn ibn-Əli bu səhrada qətlə yetiriləcək. Bu yer Kərbübəladır.

İkinci Adəm Kərbəla müsibətini Allahın qüdrəti ilə bütünlüklə gördü. Münacat edib dedi:

- İLAHİ! Mənim qəbrimi bu yerlərdə qərar ver ki, Şəhidi-Kərbəlanın soyundan olan Məhdi Əleyhissəlam babası Hüseyni ziyarət etməyə gələndə mən də o mübarəki ziyarət edim.

Nuh peyğəmbər iki Adəm arasında min ildən əlli il əskik ömr elədi. Oğlu Kənanın qərq olduğu Ney dağının yerində olan çuxurda - Adəm peyğəmbərin sağ qolunun arasında dəfn edildi. Haliyədə Nəcəf ül-Əşrəfdə Həzrəti Adəmin sağ gözünün çanağında Həzrət Əli Əleyhissəlamın qəbri yerləşir. Bir qəbirdə üç ƏŞRƏF yatır.

***ƏSSƏLAMİ ƏLEYKƏ YA ƏBA ƏBDÜLLAH! SALAM OLSUN SƏNƏ, EY ŞƏHİDİ KƏRBƏLA!***

***SALAM OLSUN SƏNƏ EY SAHİB əl-ZAMAN! EY ÖVLADİ MƏHƏMMƏD əl-MUSTAFA!!!***

# Tülkü siqəsi

## *(TƏMSİL)*

Hörmərli oxucuların yorğunluqlarını çıxarmaq üçün bir təmsil söyləyək ki, onlar da feyziyab olsunlar.

Bəli, əzizlərim! Bir çaqqal ilə bir tülkü dost imiş. Çaqqal tülküyə həmişə hiylə gələr, birlikdə ovladıqlarının çoxunu yeyərmiş. Tülkü çaqqalın hiyləsini başa düşüb öz-özünə deyir: "Çaqqal ki, mənim haqqımı yeyir, mən ona elə bir hiylə gəlim ki, çaqqal olduğu yadından çıxsın."

Bir gün tülkü çaqqala deyir:

- Ay çaqqal qardaş, biz neçə ildir, sadiq dostluq edirik. Gəl gedək mollanın yanına, qardaşlıq siğəmizi oxutduraq, olaq siğə qardaş!

Çaqqal razılaşıb dedi:

- Nə deyirəm, siğə qardaş olmaq daha savabdır. Gedək siğəmizi oxutdurub siğə qardaş olaq.

Tülkü ilə çaqqal yola düzəlib mollanın evinə gedəndə yolda tülkü axsa-mağa başladı. Çaqqal soruşdu:

- Tülkü qardaş, niyə axsayırsan?

Tülkü dedi:

- Yeriyəndə ayağıma iti çöp batdı. Ayağım yaralandığına görə axsayıram.

Bir az qabağa getmişdilər, kiçik bir gölə rast gəldilər. Tülkü dedi:

-Mollanın yanına qüsulsuz getməyək, boynumuz güsulsuz siğəmizi kəsdirməyək, siyğəmiz batil olar. Gəl bu gölməçədə qüsul edək, sonra gedək.

Çaqqal dedi:

- Mən indiyə kimi qüsul etməmişəm, qüsul qaydalarını bilmirəm.

Tülkü dedi:

- Mən öyrədərəm, əvvəl başı üstdə gölə tullan! Birinci sag çiyni üstdə, sonra sol çiyni üstdə üz. Daha boynunda qüsul qalmayacaq. Mən isə suya girə bilmərəm, ayagım yaralı olduguna görə yaram su cəkər. Mən gölün ətrafında 3 dəfə qaçıb qüsul əvəzinə təəmmüm edəcəyəm, qüsulümü boynumdan götürəcəyəm.

Çaqqal başı üstdə suya tullandı, sağ, sol çiyni üstdə üzüb qüsül etdi. Tülkü də həmin gölün başına bir neçə dəfə fırlanıb təəmmüm yolu ilə qüslünü etdi. Sən demə, o göl ağ neft gölü imiş, tülkü də bunu bilirmiş. Ona görə çaqqalı neft gölündə çimizdirib. Qabaqda, yol kənarında yanan oda rast gəldilər. Tülkü çaqqala dedi:

- Çaqqal qardaş, şükür Allaha ki, qüsul etdik, Allah yanında da pak olduq. Qardaş, o qədər pis

işlərə bulaşmışıq, onun-bunun toyuq-cücəsini oğurlayıb yemişik, biz gərək od tövbəsi eləyək, günahlarımız da Allah dərgahında bağışlansın.

Çaqqal dedi:

- Tövbəni necə eləyək?

Tülkü dedi:

- Ay qardaş, nə avamsan, odun üstündən üç dəfə o üzə-bu üzə tullanıb "tövbə-tövbə" deyəcəyik. Tövbəmiz ki, qəbul oldu, molla siğəmizi oxuyan kimi siğə qardaşı olacağıq.

Tülkü odun üstündən üç dəfə o üzə-bu üzə tullanıb dedi:

- Mənim tövbəm qəbul olundu, indi sən də üç dəfə "tövbə-tövbə" deyə-deyə odun üstündən tullan.

Neftə bulanmış çaqqal odun üstündən tullananda onu od tutub yanmağa başladı. Qışqırdı:

- Ay qardaş, qoyma, yandım.

Tülkü dedi:

- Mən nə edim ki, sən ona-buna o qədər hiylə işlədibsən, o qədər onun-bunun haqqını yemisən, Allah da sənin tövbəni qəbul etmədi, cəhənnəm əzabını bu dünyada verdi. Tövbəsi qəbul olunmayandan nə mollanın xoşu gələr, nə də tülkünün.

***Dost-dosta tən gərək, tən olmasa, gen gərək!!.*** .

# Maraqlı qaravəlli

İki nəfər köhnə dost bir gün yol kənarında durub söhbət edir, dərdləşirdilər. Bu zaman bir nəfər onların yanından keçir və onlara salam edir: "Əssəlamü-Əleykə, Ya ağsaqqal!" Bu iki nəfər bir-birinə baxıb, hər birisi xəyal edir ki, o şəxs salamı mənə verdi. Bunlardan mədrəsədə müəzzin olan adam deyir:

- Mən onun uşaqlarına dərs verirəm, o, məni görəndə "ağsaqqal" deyər, salamını da əskik etməz, salamı mənə verdi.

Dostlardan ikincisi ölü götürən molla idi. O, tez dillənib dedi:

- Mən onun ölüsünü yerdən götürmüşəm, dirisinin kəbinini kəsmişəm, onlar mənə həmişə "ağsaqqal" deyib salam verər, ehtiram edərlər, salam mənə çatır.

İki nəfər mübahisə edən vaxtı naxırçı heyvanları geri qaytarırdı. Onlar naxırçını görüb dedilər:

- Ey naxırçı, sən buradan keçəndə hansımızı ağsaqqal hesab edib salamı ona verdin?

Naxırçı baxdı ki, bunlar deyəsən ağıldan o söz - yəni qanmayan savadlılardandır, dedi:

- Aranızda kim daha çox səfehdirsə, salamı ona vermişəm.

Onlar naxırçıya dedilər: "Səni mürəxxəs etdik, sən get! Hansımıza salam çatırsa, özümüz ayırd edərik."

Mədrəsədə müəzzin olan şəxs dedi:

- Gəlin səfehliyimizdən danışaq, kim çox səfeh çıxsa, salam ona çatır.

Hamısı razılaşdı. Birinci sözə müəzzin başladı:

- Mədrəsədə aşağı siniflərə dərs verirdim. Bir gün sinfə girəndə uşaqların biri dedi:

- Molla, olmasın azar, rəngin qızarıb, tüklərin də biz-biz durub, olmaya xəstələnibsən?

Sonra başqa bir uşaq dedi:

- Uşaq düz deyir, ay molla, əllərin də əsir, burnundan da su gəlir, yəqin xəstəsən.

Uşaqlar sinfə girdikcə, mənim xəstə olduğumu deyirdilər. Mən bu işə qaldım mat-məəttəl. Öz-özümə dedim: "Xəstə olan özü bilməz ki, kənardan baxan bilər, o, xəstədir." Yəqin etdim ki, mən xəstəyəm. Mənim sinfimdə uzaqdan gələn, həmişə dərsə gecikən, heç yalan danışmayan sağır bir uşaq vardı. Dedim, əgər o uşaq da mənim xəstəliyimi təsdiq etsə, deməli, mən xəstəyəm. Uşaq lap axırda sinfə girdi. Mənim sifətimə baxıb ayaqlarımı qucaqladı, hönkür-hönkür ağlayaraq dedi:

- Molla, sən Allah, ölmə, sən ölsən, mənə kim dərs deyər? Sənin rəngin elə qaçıb ki, elə bil sifətinə meyit sifəti çəkilib. Başına dönüm, molla, məni sahibsiz qoyma!

Mən də gördüm ki, doğrudan da xəstəyəm, uşaqları evə buraxıb dedim:

- Gedin evinizə, haçan sağalsam, sizə xəbər verərəm, onda dərsə gələrsiz, görürsüz xəstəyəm.

Özüm də evə gəlib arvada dedim:

- Arvad, ölürəm, tez yerimi qibləyə sal, uzanım ki, rahat can verim.

Arvad dedi:

- Ay kişi, sənə nə olub, sağ-salamat dərsə getdin, rəngin saralıb evə qayıtdın. Sənə nə olub?

Dedim:

- Bilmirəm, axır ki, ölürəm.

Xəstə olduğuma görə mənə heç bir yemək vermirdilər. Dodaqlarıma panbıqla su damızdırırdılar. Bir neçə gün idi ki, yataqda ac-susuz yatırdım. Axşam çağı idi, gördüm, arvad yarpaq dolması bişirib, acından ölürdüm. Arvad çölə çıxanda o dolmadan birini ağzıma qoydum. Çeynəyib udmağa fürsət tapmamış arvad içəri girdi, gördu mənim əngim şişib. Arvadın qorxusundan isti dolmanı nə uda bilirdim, nə yerə ata bilirdim. Arvad ağzımı belə şişmiş görüb dedi:

- Ay kişi, sənin əngin şişib. Yəqin ki, sənin xəstəliyin başındadır.

Arvad qənşərimdə oturub, uşağı ara həkiminə göndərdi:

- Bala, tez qaç, həkimə de ki, kişinin əngi şişib, bütün diləklərini götürüb bizə gəlsin.

Az vaxtda həkim gəldi. Əli ilə əngimi yoxlayıb dedi:

- Bunun əngi şişib, yəqin ki, irinli yaradır. Əngini yırtıb çirkini təmizləmək lazımdır.

Həkım mənə nə qədər dedisə, arvadın qorxusundan ağzımı açmadım. Ağzımı açsaydım, arvad mənım dolma oğurlayıb yediyimi bilərdi, evdə günümü qara eləyərdi. Savadlı adam heç arvad yanında qürurunu sındırarmı? Nə isə həkim iti alətlə əngimdən deşik açıb ağzımda olan dolma ətini maqqaşla bir-bir açdığı deşikdən çıxarda-çıxarda deyirdi:

- Ay yazıq, sənin əngin tamam çürüyübmüş ki! Yenə də xöşbəxtsən ki, mən özümü sənə tez çatdırdım, yoxsa sənin əngində olan çirkab beynini zəhərləyib öldürərdi.

Dolmanı ağzımdan boşaltdıqdan sonra imalə ilə qaynadılmış yarpız suyunu əngimin deşiyindən içəri fışqırtdı, ağzımın içini yuyub hovlamasın deyə, başımı yun yaylıqla bərk-bərk sarıdı.

- A kişilər, doğrudan da mən səfehəm, səfeh olmasaydım, körpə uşaqlara inanmazdım, arvadın qorxusundan əngimi yırtdırmazdım. İndi salam mənə çatır, ən böyük səfeh mənəm.

Molla dedi:

- Mən səndən də böyük səfehəm. Sizdən qabaq mənim axund dostlarım var idi. Biz hər cümə günü bir bulaq başına yığışar, dünyanın gələcəyindən-

gedəcəyindən söhbət edərdik. Axundlar dedilər ki, hər həftə birimiz bura yumurta, yağ gətirsin, bulağın başında qayğanaq eləyib yeyək və söhbətimiz də maraqlı keçsin. Bir gün də yumurta, yağ gətirmək növbəsi mənə çatdı. Bilirsiz ki, mollalar arvaddan qorxan olur. Mən də arvadın qorxusundan evdən yumurta, yağ aparacağımı arvada deyə bilmədim. Alimlərin yanında xəcalətli olmayım deyə, yağı əmmaməmin içərisinə qoydum, yumurtaları əmmamənin kənarından içəri düzdüm. İstəyirdim ki, arvaddan gizli həyətdən çıxam, arvad məni səslədi:

- Ay kişi, aldığın un xarabmış, təndirə yapıram, təndirdə qalmır. Gəl xəmiri güd!

Əlimə çəngəl verib təndirə yapılmış çörəkləri tez-tez təndirə düşməsin deyə çöpləyirdim. Əl qərəz çorəyi təndirə yapıb qurtardıq. İstidən əmmamədə olan yağ köpüklənə-köpüklənə üzümdən axırdı. Arvad üzümə baxıb dedi:

- Ay kişi, onsuz da ağlın yox idi. Qalanı vardısa, beynindən əriyib yerə tökülür.

Arvad məndən şübhələnib barmağı ilə üzümdəki yağı sıyırıb ağzına qoydu. Birdən qışqıra-qışqıra üstümə şığıdı:

- Ay kişi, bu yağ kərə yağıdır ki, beyin yağı deyil, ha! Ay kişi, heç utanmırsan, mənim evimə haram əli vurursan? Görəsən, mənim heyvanımın yağını hansı arvadına aparırsan?

Arvad hirslənib təpəmə qoşa əli ilə bir qappaz saldı, əmmaməmdə olan yumurtalar qayğanaq olub təpəmdən aşağı axdı.

Arvad bunu görüb bir az da qəzəbləndi:

- Adə, yağ o yana qalsın, sən hələ bir yumurta da oğurlayıbsan?

Mən naəlac qalıb əhvalatı başdan ayağacan arvada danışdım. Arvad məsələdən agah olub dedi:

- Səfeh kişi, mənə deyəydin, mən onlar üçün beçəpilov bişirəydim, isti-isti onlar üçün süfrə açaydım. Həm onların şəriət söhbətlərinə qulaq asardım, savablıq qazanardım, həm də onlar mənim xidmətimə görə mənə əhsən-əhsən deyərdilər, sən də əsil kişi sayılardın. Sən məni alimlərin yanında xəcalətli etdin, ay biağıl səfeh kişi!

İndi, qardaşlar, salam mənə çatır, çünki mənim səfehliyimi evin arvadı təstiq edib.

Ay dost, mən səfehəm, yoxsa sən? İndi deyin görüm, salam kimə çatır?

Dostların ikisi də bir ağızdan dedilər:-Birimizin ağzı yırtılıb, o birimizin başında yumurtalar qayğanaq olub. Dəllal qardaş, bizim içərimizdə, ədalətə görə, ağsaqqal sənsən. Salam da ağsaqqala çatır, vəssalam.

## *Bu lap QARAVƏLLİ OLDU ki!*

# Dastani şirazi

Məşhur Seyx Sədi Şirazi arvadların hiylələri haqda dastan yazırmış. Bir gün Xersi tayfasına yolu düşər. Xersi ayıçı deməkdir (yəni ayı tutub oyanadan). Şirazi dəniz kənarında bir tənha daxmaya rast gəlır. O daxmaya gedib ev sahibəsindən su istəyir. Ev sahibəsi bir qab su gətirir. Qadın görür Sədinin qoltuğunda böyük bir kitab var. Arvad soruşur:

- Ey müsafir, hardan gəlib, hara gedənsən?

Sədi deyər:

- Mən hikmətli sözlər yazan məşhur Seyx Sədiyəm. İndi də qadınların hiyləsi haqqında kitab yazıram. Dünyanın hər yerini gəzib qadın hiylələrini yazıb qurtarmışam, Qoltuğumdakı kitabədir.

Ev sahibəsi deyər:

- Qadınların hiyləsini yazmaq üçün ömrün çatmaz!

Sədi cavabında deyir:

- Təmiz qurtarmışam. Arvad hiyləsi qalmayıb, yazmışam.

Arvad uzaqdan bir atlının gəldiyini görüb həyəcanlı səslə hay-haray salır:

- Ay şair, Allah sənin evini yıxsın, odur ey, gələn mənim ərimdi. Həmişə məndən şübhələnib ki, sevgilim var. Məni hamıya qısqanır. İndi gəlib səni

görsə, sənin də başını kəsəcək, mənim də. Tez gir evə, səni görməsin.

Şair cəld evə daxil olur. Birdən fikirləşir ki, kişi əgər otağa girsə, məni görər. Fikrini arvada deyəndə qadın cəld sandığı açır və Sədini sandığa salıb ağzını da qıfıllayır, dilini qurşağına qoyur. Arvadın əri atdan düşür, evə gəlir. Arvad kişinin əl-ayağını yuyub deyir:

- Ay kişi, uzun müddətdir məni qısqanırsan. Sənin qısqanclığından daha bezdim. Mən indi sevgilimi sandığa salmışam! Onu da öldür, məni də öldür. Qoy bir dəfəlik sənin qısqanclığından canım qurtarsın.

Arvadın əri qeyzlə qışqırır: "-Tez ol! Sandığı aç!" Arvad oranı-buranı gəzib deyir:

- Tələsə-tələsə sandığı bağladım. Qıfılın dilini, deyəsən, itirmişəm, tapa bilmriəm.

Kişi balta götürüb sandığın ağzını qırmaq istiyirdi ki, arvad birdən deyir:

- Ay kisi, sandığı qırma, nənəmdən yadigardır, dılı tapdım.

Kisi açarın dilini arvaddan alıb sandıqdakı qıfıla salıb bir dəfə firladır, ikinci dəfə firladıb elə istəyir ki, sandığın ağzını qaldırsın, arvad sevincək deyir:

- Ay kişi, apardım. Axır ki, mən uddum.

Kişi əl saxlayır, arvadın üzünə acıqla baxıb sandığın ağzını buraxır və evdən çıxıb gedir. Arvad

sandığın ağzını açıb rəngi saralmış Şirazini sandıqdan cıxardır və deir:

- Ay qonaq, ayağın uğurlu imiş. Qırx il bundan qabaq ərimlə mərcləşmişdik. Sənin hesabına kişini uddum. Sürülərlə qoyun-quzumuz, naxırımız, kilolarla qızılımız var, hamısı mənə catdı. İndi məndən nə hədiyyə istəyirsən? Bu mülkümdən hədiyyə edim.

Sədi dedi:

- Mən heç nə istəmirəm, ancaq mərcdə udduğun ərinin alt paltarını ver, sandıqda altımı batırmışam, paltarımı dəyişib, çıxıb gedirəm. Bu yazdığım dastanı da cırıb dəryaya tökəcəyəm.

Arvad dedi:

- Ay qonaq, sənə demədimmi ki, arvadların hiyləsini yazmağa sənin ömrün çatmaz? İndi arvad uddu, ya Şirazi? Kim haqlıdır? Siz deyin!

# ODDA YANMAZ PEYQƏMBƏR

ALLAH TƏALA yer üzərinə yüz iyirmi dörd min peyğəmbər göndərmişdir. Onlardan biri də peyğəmbərlər atası İBRAHİM XƏLİLULLAHDIR. İBRAHİM ƏLEYHİSSƏLAM BABİL şəhərində doğulub. Daha kiçik yaşında atadan yetim, anadan sağır qalmışdır. Taxtadan, daşdan heykəl düzəldən əmisi AZƏRİN himayəsi altında boya-başa çatmışdır. Həzrəti İBRAHİM on dörd yaşını keçmişdi. Bir gün gecə İBRAHİM Əleyhissəlam göydəki ulduzları seyr edirdi. Ulduzları seyr etdikcə öz-özünə dedi:

- Bunlardı mənim Allahım!

Ulduzlardan sonra ay çıxıb göylərə işıq salmağa başladı. İBRAHİM Əleyhissəlam dedi:

- Ay ulduzlardan böyükdür, yəqinən, mənim Allahım Aydır, budur mənim Allahım.

Yavaş-yavaş səhər açıldı. Ulduzlar qürub etdi, Ayın işığı zəifləyib yox oldu, Günəşin əlvan şəfəqləri gecəni yox edib yer üzünü nura qərq etdi. İBRAHİM dedi:

- Budur mənim Allahım!

Günəş də qürub etdi. İBRAHİM dedi:

- Qürub edən Günəş də Allah deyil, səmada gördüklərim bir-birini məğlub edirlər. Məglub olanlardan Allah olmaz, yəqinən, aləmləri yaradan

Allah var, mənim Allahım təkdir, şəriksizdir, bütün aləmlərin sahibi həmin o bir Allahdır.

O zaman həzrəti İBRAHİMİN on dörd yaşı var idi. Əmisi AZƏRİN himayəsi altında yaşayırdı. AZƏR büt düzəldən usta idi. O, taxtadan düzəltdiyi bütləri bazara aparıb satardı, ailəsini ondan gələn gəlirlə dolandırardı. İBRAHİM də AZƏRIN düzəltdiyi taxta bütləri bazara satmağa apararkən bütlərin boğazına ip bağlayıb sürüyə-sürüyə deyərdı:

- Ay büt alan!

Bazarda sürüyə-sürüyə gəzdırdiyindən palçığa bulaşmış bütlərı almazdılar. Bir gün AZƏR camaata dedi:

- Mənim bütlərimi niyə almırsınız? Məgər pis büt düzəldirəm ki, almırsınız? Sizdən NƏMRUDA şikayət edəcəyəm.

Camaat dedi:

- Ey büt ustası AZƏR, sənin düzəltdiyin bütləri qardaşın oğlu İBRAHİM boğazına ip bağlayıb sürüyə-sürüyə bazarı gəzdirir. Deyir, ay xeyirsiz taxta Allah alan! Odur ki, sənin düzəltdiyin xeyirsiz, taxta Allahı almırıq. Özün gətir sat, yoxsa, Allah düşməninin satdığı bütləri almayacağıq, sən də ailəni dolandıra bilməyəcəksən.

Azər evə gəlib İbrahimi yanına çağırtdırdı. Ona bir şillə vurub evdən qovdu. İbrahim də onun evin-

dən çıxıb xalalarının evinə gəldi, xalasiyla yaşamağa başladı. Onların qoyunlarını otarırdı.

Bir gün büt bayramı günü idi. Hz. İbrahim camaat yığışıb bütlər məbədinə gələnə qədər məbədə girib bütün bütləri baltayla doğradı. Baltanı böyük bütün çiyninə qoydu və məbəddən çıxıb getdi. Camaat və Allahlıq iddiası edən Kənan oğlu Nəmrud camaatın müşayəti ilə məbədə gəlirlər. Bütlər üçün bişirdikləri şirniyyatları bütlərə hədiyyə etmək üçün məbədin qapılarını açırlar. Nə görsələr yaxşıdı? Bütlər hamısı sındırılıb, parça-parça edilib. Bir dənə böyük büt qalıb, balta da onun çiynində. Onlar dedilər:

- Daşdan, taxtadan olan bütlər hərəkət edə bilməz. Bəs bu bütləri kim qırıb.

İblis Nəmruda dedi:

- Bütləri qırmaq büt ustası Azərin qardaşı oğlu İbrahimin işidir.

Odur ki, Nəmrud əmr edir İbrahimi tapıb məbədə gətirsinlər. İbrahimi qoyunları otardığı yerdən tutub bütlər məbədinə gətirirlər. Nəmrud məlun dedi:

- Ey İbrahim, bu bütləri kim qırıb?

İbrahim dedi:

-Yəqinən, kiçik bütlər böyük bütün sözünü eşitməyiblər, o da qəzəblənib onları qırıb-töküb.

Görürsünüz ki, balta böyük bütün çiynindədir, inanmırsınız bütdən soruşun!

Nəmrud dedi:

- O ki taxtadan yonulmuş bütdür, danışa bilməz, hərəkət edə bilməz.

İbrahim dedi:

- Bir şeyi ki, insan özü düzəldə, o necə insanın Allahı ola bilər? Əgər Allahdırsa, özünü qorusun, cavab versin. Düzəldilən şeydən Allah olmaz, aləmləri yaradan Allah var.

Nəmrud dedi:

- Ey İbrahim! Bizim büt Allahlar bayramımızı matəmə döndərdin, sənə elə cəza verəcəyəm ki, allahsızın öldürüldüyü gün dünya bütpərəstləri bayram edəcək.

Nəmrud məlun İbrahimi zindana atdırdı. Hamıya elan etdi ki, Allahların düşmənini yandırmaq üçün hər kəs odun daşıyıb çuxur bir yerə toplasın. 40 gün ətraf kəndlərdən və şəhərlərdən odun və zeytun yağı daşıyıb bir yerə topladılar. Nəmrudun əmri ilə İbrahimi zindandan çıxarıb yandırılmış tonqalın yanına gətirdilər. Tonqalın dairəsi 4 xəlvər taxıl səpilən yer qədər idi. Hündürlüyü isə 100-lərlə arşin hündürlüyündə dağlara bənzəyirdi, minlərlə tuluq zeytun yağı tökülmüş odun dağının alovu buludlara qədər ucalırdı. Nəmrud dedi:

-Bu od bizdən o qədər uzaqdır ki, necə edək İbrahimi o odların ortasına ataq?

İblis məlun Nəmruda yaxınlaşıb dedi:

- Onun üçün mancanaq düzəldilməlidir ki, onunla İbrahimi odların arasına atmaq mümkün olsun.

Şeytan Cəhənnəmdə gördüyü mancanağın şəklini çəkib ustalara göstərdi. Onlar həmin cizgidə olan mancanağı ixtira etdilər. İbrahimi mancanağın ucuna qoyub yanar odun ortasına atmaq istədilər. Lakin mancanaq qalxmadı. İblis gördü ki, mancanağın başqa tərəfini Mələklər tutub saxlayırlar. Odur ki, İblis Nəmruda dedi:

- Gərək böyuk şənlik keçirilsin. Hamı əl-ələ tutub tonqalın dövrəsində halay çəkib oynasınlar. Həmçinin orada bacı və qardaş oynaya-oynaya zina etsinlər, şənliyə-şənlik qatsınlar.

Rimdən 2 romalı cingənə gəldi və oynaya-oynaya ayaq üstdə zina etdilər. Mələklər əxlaqsız bacı və qardaşı görüb mancanağı buraxdılar və oradan uzaqlaşdılar. Nəmrud dedi:

- Ey İbrahim! Sənin görünməz Allahın səni bu Cəhənnəmdən necə qoruyacaq.

Nəmrud mancanağın ucundan tutub dartdı. İbrahimi yanan tonqalın içinə tulladı. İbrahim Əleyhissəlam yanar odun içərisinə düşərkən, külək Məlaikəsi İbrahim Xəlilullaha dedi:

- İcazə ver elə əsim ki, səni yandıran oddan-alovdan bir əsər-əlamət qalmasın. Ya İbrahim, Səni və bizi yaradanın xatirinə icazə ver. Allahın dostunu qorumuş olum.

İbrahim Əleyhissəlam dedi:

- Ey Məlaikə! Sən də yaradılmışsan, mən də. Mən səndən yox, bizi xəlq edəndən nicat istəyirəm.

Yağış Məlaikəsi İbrahimə xitabən dedi:

- Ey Xəlilullah! İcazə ver, elə yağım ki, bütün alovlar yağan yağışların altında yox olsun! Sən də nicat tapasan, mən də! Allah yanında bəndəsini qorumadığıma görə cəzalandırılmayım.

İbrahim dedi:

- Mən məxluqlardan nicat istəmirəm! Bizi yaradandan nicat istərəm. O, ALLAH ki, görən və biləndir.

ALLAH Təbarəkə və Təala yanar oda xitabən əmr etdi:

- Ya NARİKUNİ BƏRDƏN VƏ SƏLAMƏN ƏLA İBRAHİM VƏ ƏRADU BİHİ KƏYDƏN FƏCƏ ƏLNAHUMUL ƏXSƏRİN! Od yandırıcı xasiyyətini dəyişdirib soyuq oldu. Od içərisində cənnət havası yarandı. Mələklər cənnətdən gətirdikləri yaşıl, cavan ağacları od arasına əkdilər. İBRAHİMİN ətrafına güllər-çiçəklər əkdilər. Hər tərəfdən çaylar-şəlalələr çəkdilər. Əkdikləri gözəl çiçəklər arasına cəh-cəh vuran quşlar buraxdılar.

Odun içərisi bir CƏNNƏTƏ çevrilmişdi. İBRAHİM üçün qurulan təxtin qarşısına xoş, dadlı yeməklər, meyvələr düzdülər. Minlərlə MƏLAİKƏLƏR İBRAHİMİN qulluğunda müntəzir idilər. Odun içərisində CƏNNƏT var idi. Odun kənarında isə İBRAHİMİN xalaları, xalası qızları, Nəmrudun bacısı və sevgilisi Leyla, xalası və bacısı oğlu LUT da var idi. Onlar yanar odun ətrafına dolana-dolana başlarına döyür, ağlaya-ağlaya deyirdilər:

- Vay İBRAHİM!

ALLAH TƏALA İBRAHİMİN xalası oğlu və xalası qızlarının, İBRAHİMƏ aşiq olan NƏMRUD KƏNAN OĞLUNUN BACISI LEYLANIN bəsirət gözlərini açdı. Onlar od arasında qurulan İBRAHİM CƏNNƏTİNİ gördülər. Onlar səcdəyə düşüb ALLAHIN qüdrətinə inandılar, şükürlər etdilər.

O gün ox atan ayının onu idi, yəni ƏŞƏRƏ (Türk dilində on deməkdir), indiki MƏHƏRRƏM AYININ ONU - AŞURA gününə təsadüf edir. O gün həqqin batilə qalib gəldiyi gün idi, Allahın qüdrəti ilə İBRAHİMİN oddan nicat tapdığı gün idi.

HAŞİYƏ:

Od içərisində cavan ağac əkdirən ALLAH! Od içərisində bül-bül gülə eşq ilə nəğmə oxuyanda KƏRBƏLA səhrasında bül-bül yerinə əsirlərin, ti-

fillərin nalə, fəryad səsləri asimana qalxırdı. Gül əvəzinə ŞƏHİDLƏRİN yaralərindən qızıl qanlar axırdı. Od içərisində cavan ağaclar yerinə qanlı nizələr başında şəhid başları əkilmişdi. O gün HAQQIN əleyhi-batilə qalib gəldiyi gün idi.

***Salam olsun sənə, EY İBRAHİM soyundan gələn şəhidi-KƏRBƏLA!***
***OLSUN SƏNƏ BU CAN FƏDA!***

## *HƏDİS*

Bəzi kitablarda rəvayət edirlər ki, MƏHƏMMƏD ƏL-MÜSTAFA buyururdu:

- Babam İBRAHİM XƏLİLULLAH onu yandırmayan oddan azad oldu. NƏMRUD məlun-sarayına çəkilib İBRAHİMİN qorxusundan sarayında vəlvələyə düşmüşdü. Şeytan yenə də onun qəlbinə girib fitnə və hiylə təlimləri verir, İBRAHİMƏ qarşı qızışdırırdı. Nəmrud İBRAHİM Əleyhissəlamı çağırıb dedi:

- Ya mənimlə döyüşəcəksən, ya da mənim torpaqlarımı tərk elə!

Hz. İBRAHİM dedi:

- Sənin qoşunlarınla döyüşməyə qoşunlarım var.

Nəmrud dedi:

- Hanı sənin qoşunların ki, mənim qoşunlarımla döyüşsün?

İBRAHİM itiburun milçəkləri göstərib dedi:

- Budur mənim döyüşçülərim.

Milçəkləri görüb Nəmrudu gülmək tutdu. O anda bir milçək, yəni ağcaqanad onun burnundan girib beynini əmməyə başladı. Nəmrud baş ağrısından saraya qaçdı. Baş ağrısından gözlərini aça bilməyən Nəmrud başını divarlara vururdu. Ağrı kəsmirdi. Milçəklər Nəmrudun beynini yeyə-yeyə cəhənnəmə vasil etdilər.

## *HAŞİYƏ*

İBRAHİM Əleyhissəlamın oda atıldığı o çuxur yer TÜRKİYƏ ərazisində, indiki ŞANLI URFADADIR. O çuxur yerdə balıqlar saxlanılır. O yer "Balıqlı göl" adlanir. O balıqlardan kim yesə, ölür. Odur ki, o balıqlardan heç kim yemir.

## *HƏDİS*

Həzrəti İBRAHİM yatmışdı. Qulağına səs gəldi:

- Ey İBRAHİM XƏLILULLAH! Sən bəyənilmiş Peyğəmbərlərdənsən! Ey Tarix oğlu! Sən Saranı nigah et! Onun dövləti ilə öz millətini gücləndirib iman əhli edə bilərsən. O, sənə doğrudan da aşiqdir. Qəlbini sındırma! Sənə göndərdiyi elçiləri əliboş geri qaytarma!

İBRAHİM, doğrudan da, Saranın elçilərinə Sara ilə evlənməyə razı olduğunu dedi. Sara çox gözəl, çox da varlı bir qadın idi. Saranın qoyunlarını otaran 600-ə qədər qızıl zəncirlə mükafatlandırılmış qoyun köpəyi var idi. Yüzlərlə dəvəsi var idi. Saraya bütün var-dövlət birinci və ikinci ölən ərlərindən qalmışdı. Sara İBRAHİMƏ ərə getməklə özünü dünyanın ən xoşbəxt insanı hesab edirdi. Sara Nəmrudun bacısı Leylanın İBRAHİMƏ aşiq olduğunu bilirdi. Ona görə İBRAHİMİ hamıya qısqanırdı. Bir gün Sara İBRAHİMƏ dedi:

- Sən hansı yerə getsən, bir möcüzən olur. Mənim üçün heç bir möcüzə göstərməmisən. Mənə də bir möcüzə göstər ki, sənin Peyğəmbərliyinə ina-nım.

İBRAHİM dedi:

- İki ədəd çöl quşu, iki ədəd ev quşu gətir.

Sara bir xoruz, bir hind quşu, bir bül-bül, bir qarğa gətirdi. İBRAHİM: “Quşların başlarını kəs, -dedi, - tüklərini yon, ətlərini sümükqarışıq döy, biri-birinə qat, əzilmiş ət parçalarını ayrı-ayrı təpələrin üstünə qoy, hansı quşu istəyirsənsə, həmən quşun başını öz əlində tut. Diriltmək istədiyin quşu adı ilə çağır. ”

Sara bül-bülü çağırdı, təpələrə qoyulmuş ətlər havaya qalxdılar, yonulmuş quş tükləri də, havaya qalxıb ətlərlə birləşdi, bül-bül əti o ətlərdən ayrılıb, Saranın əlində tutduğu başa və bədənə birləşdi. Quş çabalayıb canlandı. İkinci quşun başını götür-

dü. O quşu da səslədi. O quş da Saranın əlində canlandı. Üçüncü, dördüncü quşlar da ayrı-ayrılıqda canlandı. Sara dedi:

- Ya İBRAHİM! Həqsən, səni yaradan ALLAH da həqdir. Sənin ALLAHINA iman gətirdim.

Günlər ötürdü. İBRAHİM və Sara qocalmışdılar, İBRAHİM Fərat və Dəclə çaylarının arasında özünə məxsus qoyun sürülərini otarırdı. Bir gün gördü ki, qoyunlar o səhrada ot yemir. Ayaqları ilə səhra qumlarını başlarına ələyirlər, gözlərindən yaş axır, üzlərini qumlara sürtürlər. İBRAHİM təəccüblə qoyunlara tamaşa edirdi, nə üçün ot yemirlər? Qoyunları həmin yerdən 24 ağac o tərəfə, yəni Dəclə tərəfə apardı. O yerlərdə yem qurtardığına görə qoyunları Fərat çayı sahillərinə tərəf apardı. Yenə də orada bol otdan yemədilər. Üzlərini yerə sürtüb ağlayırdılar. Həzrəti İbrahim qoyunlardan soruşdu:

-Ey Allahın yaratdıqları, nə üçün bu yerlərdə ot yemirsiniz, ağlayırsınız?

Qoyunlar "FƏSEH" dili ilə cavab verdilər:

- Ya Peyğəmbər! Bu sirri soruş öz Allahından.

İbrahim Xəlilullah əllərini Allah dərgahına açıb minacat edərək dedi:

- İlahi! Nə sirdir ki, mənim qoyunlarım bu səhrada ot yemir, su içmir və ağlayırlar.

ALLAHDAN nida gəldi:

- Ey İBRAHİM! Sən dayandığın yerdə son peyğəmbərin övladı HÜSEYN HƏQQİ ƏLEYHİ-BATİL ŞƏHADƏTƏ YETƏCƏK.

O yer Neynəvadır!
Şəhadətə yetən binəvadır!
Şəhidlər qanına boyanan Kərbəladır!
Axirət günü şəfaəti övladı-Adəmdir.
O, Cənnətil xulutdur.
O, ələmdari-islamdır.
Kim ondan nicat almasa,
Məkanı nari-cəhənnəmdir.

Hz. İBRAHİM gördü cümleyi KƏRBƏLA müsibətinin hamısını dedi. Üzünü Rəbbisinə tutub əllərini göylərə qaldırdı:

-Ya Rəbbim! Məni dunyada sən hifz etmisən, Nəmrudun atəşindən qorumusan, özümü şərəf sahibi etmisən. Günüm eyş-işrətlə keçib. Dünyamı vermisən, axirətim bilmirəm! İLAHİ, yetmiş il ömür etdim, heç bir övladım olmadı, əgər mənim də övladım olsaydı, nəslimdən gedib o müsibəti görər, ağlardı. Allahdan nida gəldi:

- Əgər o övladı sənə versəm, mənə dünyada nə verərsən?

İbrahim dedi:

- İlahi! Cismim sənin, ruhum sənin, mənim nəyim var ki, sənə verəm?

Allahdan nida gəldi:

- Axıtdım Hüseynin qanını sənin qanından, gələcək dünyaya sənin soyundan.

Allah buyurdu:

- Ey İbrahim! Get Misir şahının sənə hədiyyə etdiyi kəniz Həcəri özünə nigah et!

İbrahim Babilə qayıdır. Kənizini ona əyal etmək üçün Saradan icazə verməyi xahiş etdi. Sara qısqanclığından razılaşmadı. İbrahim Yaradana müraciət etdi:

- Ya Rəbbim! Sara mənə razılıq vermir və məni eşitmir.

Allahdan nida gəldi:

- Qadın əyri bir qabırğadan yaranıb, istəsən düzəldəsən, sınar, düzəlməz. Səbr et, ya İbrahim! Sara Həcəri sənə vermək üçün yalvaracaq.

Bir zaman keçdi. Bir Mələk kişi sifətində gəlib Saradan İbrahimin yerini soruşdu. Sara dedi:

- İbrahimi neyləyirsən? İbrahim uzaqdadır, sifarişini de, mən çatdırara-ram.

Kişi dedi:

- Nəmrudun bacısı Leyla sifariş göndərib ki, qisqanc SARANI atıb gəlsin, məni alsın. Ona övlad və dövlət verərəm.

Sara fikirləşdi ki, quşları dirildən Leylanı da dirildər. Sonra onu da alar. Mən nə edərəm? Həcəri ona alım, mənimlə qalsın!

İbrahim Yəmən şəhərindən geri qayıdanda Sara ona dedi:

- Ey İbrahim! Sənin təklifinə razıyam. Kənizim Həcəri sənə hədiyyə edi-rəm, onu al, özünə əyal et. O, cavandır, bol sevgisi var, sənə baxar, səni ca-van saxlayar. Bəlkə də övladın olar, nəslin kəsilməz.

İbrahim təəccüblə Saraya baxdı və dedi:

- Ey Sara! Nə səbəbdəndir, razı olmadığın şeyə indi razılaşırsan.

Sara dedi:

- Səni o qədər sevirəm ki, sənin həyatda inciməyinə qəlbim razi deyi! Bunu sənin Allahının xatirinə edirəm.

İbrahim Saranı Həcərin üzərinə elçi göndərir və Sara Həcəri İbrahimə alır. Kəniz Həcər o gündən İbrahimin aldığı üçüncü ailəsi olur. Həcər düz qamətli, xoş görkəmli, iri gözlü, enli alınlı, qırmızı-buğdayı sifətli, mavi gözlü, şirin dilli, ağasına sadiq, Ham nəslindən idi.

İbrahim hər iki arvada - Sara və Həcərə sadiq idi. Bir gün Hz. İBRAHİM Saranın otağında idi. Bu zaman qapı döyüldü. Dörd nəfər İBRAHİMİN qonağı gəlmişdi. İBRAHİM əziz qonaqlara sevimli dananı kəsib yemək hazırlatdırdı. Ancaq qonaqlar bişirilmiş təamdan yemədilər. İbrahim qonaqların yeməməyindən qorxub həyəcan keçirdi. Qonaqlara dedi:

- Aya, mənim süfrəmdən təam etmədiniz? Düşmən təam etməz, dost təam edər. Aya, dostum-sunuz, ya düşmənim? Qonaqlar dedilər:

- Biz sənə nə dost, nə də düşmənik. Biz yer aləminə göndərilmiş Mələklərik. Biz sənin üçün xoş xəbər gətirmişik. İsmayil üçün qardaş, Saradan İshaq adlı oğlun olacaq. Xalan oğlu Lut Peyğəmbərə bəd xəbər gətirmişik.

O zaman pərdənin arxasından Sara qonaqlara tamaşa edirdi. Mələklər dedilər:

- Ey İbrahim! Mülklərinin sahibi Saradan sənin oğlun olmasının müjdəsini gətirmişik. Lutun isə şəhərini viran qoymağa gəlmişik.

İbrahim dedi:

- Siz kimsiniz, adınız nədir?

Məlaikə dedi:

- Mən Allahla İnsan arasında vəhy gətirən mələk CƏBRAYİLƏM. Bu tərəfdəki digər Məlaikə canlandıran Məlaikə İsrafildir, bu Məlaikə isə əzab Məlaikəsi Vəstatusdur. 4-cü Məlaikə isə Adəmin yaradılışında mühəndis olan və insanların canının alınması ona tapşırılan Əzrayil Məlaikəsidir (Mələkəl-motdur). Mən CƏBRAYİL Peyğəmbərlər və Allah arasında xəbər daşıyan Qasidəm. Mən sənə xoş xəbər, Luta bəd xəbər gətirən Məlaikəyəm. İSRAFİL Lutu və 2 qızını bəladan qorumaq üçün gəlmişdir. Vəstatus Lut Qövmünə əzab verməkdən ötrü gəlmişdir. Əzab içində yanan adamların canını alan Mələkəl-mot Allah fərmanı ilə onların canın almağa əmr alıb. Bu sübhə qədər icra olunacaqdır.

Sara 78 yaşlı qadının uşaq doğmasına təəccüb edərək gülümsədi. O zaman bədəninə istilik və ağrı çökdü. Heyz oldu. Sara dedi:

- İlahi, sənin qüdrətinə şübhə yoxdur. Sənsən yoxdan var edən, hər şeyin yaxşısını sən bilənsən.

İbrahim Lutun qövmünə nicat verilməsi üçün xahiş etdi. Onlar dedilər:

- Lutun qövmü nə Lutu, nə də Allahı tanımadılar, odur ki, Allahın qəzəbinə düçar oldular.

Onlar İbrahimin mülkündən ayrılıb indiki LUT gölü, o zamanın Babil Krallığında olan Lutun evinə gəldilər. Lut qonaqları qəbul etdi. Lutun arvadı şəhərə qaçıb Lut qövmündə 4 gözəl qonağın olmasını xəbər verdi. Şəhər adamları Lutun evinə gəldilər və Lutdan qonaqları onlara verməsini tələb etdilər. Lut yalvardı ki, qonaqlarım Allah qonağıdır, qonaqlarıma dəyməyin. Qızlarımı və arvadımı sizə verim, onlarla kef çəkin. Qonaqlarımı verməyəcəyəm. Onlar evə hücüm çəkdilər. Hz. CƏBRAYİL bir ovuc torpaq götürüb onlara tərəf səpdi və dedi:

- Ya Lut! Onların qulaqları var, eşitməzlər, gözləri var, görməzlər, dodaqları var, danışmazlar, qəlbləri var, hiss etməzlər.

Lutun evinə gələnlər dizlərinə qədər torpağa sancıldılar, yerlərindəcə dondular.

## HAŞİYƏ

LUTUN qövmündə yaşayanlar kimlər idi? Arvadlarını və qızlarını fahişəliyə göndərən, özləri isə kişilərlə cinsi əlaqəyə girən adamlar idilər. Məsəl üçün, Saleh adında bir kişi oğlu ilə Babil Krallığındakı (Lut) və ya (Ordon) şəhərinə gələr və bir nəfərə qonaq olar. Saleh görər ki, onların toyuğu heyvan bağlanan mıxın üstünə çıxıb yumurtladı. Saleh deyər:

- Ey ev sahibi, toyuğunuz heyvan mıxının üzərində yumurtladı, düşər sınar, onu götürün.

Ev sahibi deyər:

- Narahat olma. Bizim malımız qarət olmaz.

Ev sahibi qonaqlara süfrə sərdi. Süfrəyə sarı buğda unundan bişirilmiş çörək gətirildi. Qonaqlar təəccüb etdilər. Hər yerdə aclıq hökm sürür, bunlar sarı buğdanı haradan alıb? Saleh ev sahibindən soruşdu:

- Bu şəhər əhli nə ilə dolanır?

Ev sahibi dedi:

- Bu şəhər əhli iynə, qıyıq düzəldəndir. Bunları toplayıb başqa şəhərlərdə satırlar, pal-paltar alıb geri qayıdarlar. Gördüyün bu qayalar bizim taxıl yerimizdir. Bu daşların üzərinə taxılı səpərik, səpəndən sonra yağış yağar, yağışdan sonra külək əsib səhra qumları ilə taxılın üstünü örtər. Yay gələr, taxılı özümüz üçün, otunu heyvanlarımız

üçün toplayarıq. Sonra külək əsər, qayaların üstündəki qumları süpürüb aparar, sal qayalar qalar. Biz belə dolanarıq.

Bir az keçmişdi ki, kişinin arvadı və qızları evə gəldilər. Onlar kişiyə ayrı-ayrılıqda pul verib deydilər:

"Qonağımızın ayağı uğurlu imiş, qazancımız çox oldu. "

Ev sahibinin oğlu Salehə dedi:

- Bu gün kiçik bacımız çox pul qazanıb. Atamdan xahiş et, bacımı bu gecə mənə vesrin, qonağın sözü sındırılmaz.

Saleh oğlanın sözünü atasına çatdırır. Oglanın atası deyi:

- Bizdə adətdir, çox pul gətirən keyf üçün evin böyüyünə çatır. Bu axşam kiçik qiz mənim idi, ancaq əziz qonaqlarım olduğuna görə bu axşam qızı sənə verəcəkdim ki, səni rahatlatsın. Madam ki, oğlan istəyir, qoy olsun. Onda arvad sənin, böyük qızım da sənin oğlunu rahatlatsın. Mən isə şəhərə gedib qızım gətirən pulu bahalı oğlan uşaqlarına verib kef çəkəcəm.

Lut qövmündəkilər belə idilər. Hz. CƏBRAYİL qızları götürüb şəhəri tərk etməyi Luta xəbər verdi. Çünki şəhər dağılacaqdı. Hz. İSRAFİL qızlara və Luta yanmayan libas geyindirdi. Lut və qızları MƏKKƏYƏ doğru, dağların arasına qaçdılar. Mələklər şəhərin ətrafını qazıb, şəhəri çiyinlərinə

aldılar. Lakin Allahdan şəhərin dağılmasına əmr gəlmədi. Hz. CƏBRAYİL dedi:

- Pərvərdigara! Nə səbəbə “Dağıt!” əmri vermirsən?

Allahdan vəhy gəldi:

- O şəhərdə bir günahsız tifil anasının döşlərindən süd əmə-əmə üzü mənim dərgahıma tərəf idi. Birə yaratdım, uşağı narahat etdi. O da valideynləri kimi arxasını mənə çevirib üzü üstündə yatdı. İndi şəhəri yandırıb məhv edə bilərsiniz. Mələklər şəhəri yandırıb külünü dağlara, daşlara səpdilər. İndi Lutun şəhərinin yeri köhnə Yəmən dövlətində, yəni İordaniyadadır. Lut gölü adlanan şəhərin yeridir. O göldə heç bir canlı yaşamır. Ağır duzlu göldür. Heç canlı suda batmır.

Lut qövmü indi də var. O kişilər mavi və ya xoruz adlanırlar. Onlara lotu da deyilir. LUTUN şəhərinin yanması göstərir ki, hələ o vaxt ilk lazer şüalarının gücündən də qorxunc silahdan istifadə edilmişdir. Bu da Yəcuc və Məcucun zamanında yaranmışdı. İndiki atom və hidrogen bombalarının, bioloji silahların vasitəsilə yer üzü insanlar tərəfindən yandırılıb məhv ediləcəkdir! Allahın Qudrəti və Qəhhar sifəti yaradılmışların üzərində olacaq! Qorx o gündən ki, Allahın Qəhhar adı yerin ağzından Allaha xitabən deyiləcəkdir:

- İlahi! Mənə vəd vermişdin, Adəm övladları mənim üzərimdə olan bütün canlıları yaşadacaq,

mənim sifətimi nurlu Cənnətə çevirəcəkdir. Ancaq ADƏM övladları mənim cismimi yandırdılar, üzərimdə olan canlıları məhv etdilər. Səni and verirəm Qadir olan Qəhhar adına! Mənə zülm edənlərin cəzasını özün bildiyin kimi ver!

... Hz. İbrahimin Həcərdən oğlu oldu. Üstündən iki il keçdi, Saradan da oğlu oldu. Həcərdən olan oğlunun adını İsmayil, Saradan olan oğlunun adını İshaq qoydu. İsmayil alti yaşında idi. İshaqla oynayarkən İshaqın boynunda olan muncuq qırılıb yerə səpələnir. Sara bunu görüb qəzəblənir, İbrahimə deyir:

- Sahibsiz kənizin oğlu xanım övladının boyunbağısını necə qıra bilər? Sən kəniz övladını çox istəyirsən, xanım övladını istəmirsən. Yox, bu dövlət, mülklər mənə aiddir. Kənizi bu evdə istəmirəm. İsmayil ilə birlikdə çıxart. Sahibsiz səhralara at! Necə özü sahibsizdi, sahibsiz səhralara da at! Onlar məhv olsunlar ki, mənim də oğlum İshaq İsmayil zülmündən azad olsun.

İbrahim Saraya çox deyir: "Körpə uşaqla fəqir qadın ucsuz-bucaqsız səhralarda ölər. Allaha mən nə cavab verərəm. " Sara dedi:

- Ya mən, ya kəniz! Onları at səhralara ki, sən tanıdığın Allah onları qorusun.

İbrahim ağlaya-ağlaya Allaha minacat edir:

- İlahi, mən nə edim, mənə bir işarət göndər.

Allahdan nida gəldi:

- EY İbrahim! Saranın qəlbini qırma. O deyəni et! Yaradılmışların sahibi mənəm. Onları hər tərəfi dağ olan yerə apar qoy!

İbrahim Həcəri və oğlu İSMAYILI bir dəvəyə mindirib Səfa, Mərva, Buqəbeys, Mina və Nur dağlarının arasına apardı. Dəvə ilə gətirdiyi suyu, azuqəni Həcərə verib dedi:

- Səni və oğlumu Sara istəmir. Səni səhralara atmağa məcbur edib. Başqa çarəm yoxdur. Sizi Allaha əmanət edirəm, Allah bilər, qulları bilər.

Həcər dedi:

- Mən boyüyəm, mənim canım sənə fəda olsun! Oğlun İsmayil körpədir. Onu apar ki, sənin qanından olan səhralarda qurd-quşa yem olmasın.

İbrahim onlarla vidalaşıb, susuz səhrlardan geri döndü. Həcər və İsmayil üç gün səhralarda qaldılar. İçməyə suları qurtardı. Həcər isti səhralarda su axtarırdı. İsmayili səhranın ortasında qoyub şərqə tərəf--İlğım dənizinə doğru getdi. Gördü İLĞIM -. yəni Sərabdır. Qərbə tərəf baxdı, gözünə yenə ilğım göründü, ona doğru qaçdı, ora çatdı, gördü o da Sərab imiş. Körpə İsmayilin yanına qayıdırdı. Dodaqları susuzluqdan çatlayan ANA ağlayıb göz yaşını körpənin dodaqlarına sürtürdü. Ağlaya-ağlaya deyirdi:

- Yanma İsmayıl!- dedi:- Sənə su tapacağam.

Şərqdə-qərbdə gördüyü Səraba tərəf qaçıb deyirdi:

- İlahi! Peyğəmbər övladı mənə əmanətdir. Onu qoru, məni İbrahim yanında xəcil etmə! Övladımın ölümündən məni qabaq öldür. İbrahimin gözlərinə baxa bilmərəm. O, Səni sevir, Səni sevəni mən də sevirəm! Onu da Sənin sevgin xatirinə sevirəm. Sənsən Yaradan! Rəhman! Sənsən Rəhim!

Həcər yeddinci dəfə idi ki, oğlu İsmayilin yanına gəlirdi. Axırıncı dəfə gələndə nə görsə yaxşıdır, susuz İsmayil dabanlarını yerə sürtür: "Su-su, "- deyir. Dabanının altından buzdan sərin, süddən ağ su püskürür. Həcər özünü püskürən suya çatdıraraq suyun üzərindən əlləri ilə basıb dedi:

- Ey su, aşağıdan ax ki, əbədi axasan, heç qurumayasan.

Bir zaman onların dəvələri doğur, onun südündən ana-bala gətirdikləri darı ununa qatıb qənaətlə yeyərdilər. Su axan yerin yanında- Abi-Zəm-Zəmin ətrafına yedikləri xurma toxumlarını əkdilər. Xurmalar inkişaf edib kölgə yaratdı. Xurma ağaclarının altında Həcərlə İsmayil xurma yarpağından həsir toxuyaraq çadır düzəltdilər. Tacir karvanı o yerlərdən keçərkən gördülər ki, səhranın ortasında hündür xurma ağacları var. Dedilər:

- Biz illərdir bu yerlərdən keçirik, heç yaşıllıq görməmişik.

Dəvə karvanını həmin yerə çəkdilər, gördülər, xurma bağlarının altında kiçik bir çadırda bir qadın və bir körpə oğlan uşağı var. Dedilər:

- Biz illərdir bu yerlərdən keçirik, burda nə su, nə bağ var idi.

Karvan sahibi soruşdu:

- Ey qadın, sən kimsən?

Həcər dedi:

- Mən İbrahimin əyalı Həcərəm! İsmayil də onun oğludur. Bu səhralar İbrahim oğlu İsmayilə aiddir.

İkinci ticarət karvanı gəlir. Tacirlər bir-birləri ilə görüşdülər. Öz mallarını orada bir-birlərinə satdılar. Tacirlər arasından bir ağsaqqal çıxıb tacirlərə dedi:

- Biz neçə gündür bu yerlərdə dincəlib İsmayilın torpağında qalmışıq, suyundan içmişik, suyun və toprağın haqqını ödəməliyik.

Odur ki, onlar Həcərlə İsmayılın adından müqavilə bağladılar. Muqavilədə o yerin adını “Daban yeri” kimi tanıdılar- yəni Kəbə! Onlardan alınan xərclə kiçik Məkkə karvansarayları qurulurdu. İsmayıl beş ildən sonra varlı Kəbə - indiki Məkkə şəhərciyinin sahibi oldu.

Bir gün Hz. İbrahim oğlu İsmayılın, arvadı Həcərin sağ olduğunu öyrənir. Arvadı Saradan oğlunu görməyə getməsi üçün icazə istəyir.

İbrahim dəvəni minib Kəbəyə gəlir. Saranın ona dediyi yadına düşür. Dəvədən düşəndə İsmayılın çadırına yaxın dəvədən bir qara daşın üzərinə düşür. Daş dillənib deyir:

- Əssəlamu-əleykə ya XƏLİLULLAH! EY ALLAHIN dostu! Mən bir ağ daş idim, göylərdən gələn mələk idim. Adəm övladları mənim altımda o qədər od yandırdılar. Günahkar cismlərini mənim üzərimə oturtdular. Mən Həcəriliyimi - ağlığımı itirdim. Ağ rəngim dəyişib qara oldu. Mənim altıma divar işlə! İnsanlar məni taptamasınlar, məni ziyarət edib öpsünlər, çünki məni İnsanlar arasına şahid olmağa göndərən Həqq olan Allahdır.

O dünyanın mərkəzində olan daş - Həcərül-Əsfətdir. Həccə gedənlər o daşı öpub ziyarət etməyə həsrət çəkirlər. İbrahim Əleyhissəlam daşın üzərindən yerə düşdü, oğlu və arvadı ilə gorüşdü. Axşam Həcərin yanında qaldı. Bir neçə gün dincəldikdən sonra dağlardan seçmə daşlar yığdılar. Adəm Peyğəmbərin bastırdığı, “Nuh Peyğəmbərin” qaldırdığı o daşın altına İbrahim Peyğəmbər divar hördü. Oğlu İsmayılla o daşı tikdikləri divarın ortasına işlədilər. İndi o daş “Məqami İbrahim “adlanır - yəni İBRAHİMİN ayaq basdığı yer.

İBRAHİM bir müddət oğlu İSMAYIL və arvadı HƏCƏRİN yanında qaldıqdan sonra arvadı Saranın yanına qayıdır. Sara İBRAHİMDƏN soruşur:

- Sən o torpağa qədəm qoydunmu?

İBRAHİM dedi:

- Vallahi, mən dəvədən daş üzərinə düşdüm.

- Aya, HƏCƏRLƏ görüşdünmü, onunla dodaq-dodağa dəydinmi, sən onunla yatdınmı?

İBRAHİM DEDİ:

- HƏCƏR mənim halal haqqımdır. Onunla əl görüşdüm, onün otağına girdim, onunla dodaq–dodağa öpüşdüm, bəli, onunla yatdım.

Sara dedi:

- Mən sənin şahidliyinlə ALLAHA vəd vermişdim. Onun otağına girsən, ayaq barmaqlarını kəsəcəm, ayaqlarını ver, indiyə qədər tutulmayan ayaq dırnaqlarını kəsib atım. Görüşdüyün əllərini ver, əl dırnaqlarını kəsib atım, öpüşdüyün dodaqlarının üstündə və altında olan tükləri qırxıb yerə töküm.

- EY İBRAHİM! Mənim qulumun qulağını deşdin. Həmin dəliyə qızıl həlqə tax! Bilənylərinə qızıl həlqə tax, ayaqlarına qızıl həlqə tax, əl barmağına qızıl həlqə tax!

İBRAHİM SARANIN qulağına, qollarına, əl barmaqlarına və ayaqla-rına qızıl həlqə keçirtdi. Sara dedi:

- Ya İBRAHİM! Fəxr etdiyin uzun dırnaqlarını kəsdim, “sallanan dodaq altı və dodaq üstü tüklərini kəsdim. Amma sənin ALLAHIN sənə elə gözəllik verdi ki, qorxuram səni görənlər sənə aşiq olsunlar.

İBRAHİM dedi:

- Qoca qarı, sənin üzərində asılan qızıllar, sənin gözəlliyini əskik göstərir, sənin boynuna qızıl zəncir salım ki, gözəlliyin tamamlansın.

SARA dedi:

- Sənin boğazının altını qırxım ki, sənin də gözəlliyin tamamlansın.

O gündən İBRAHİM nəslindən gələnlər və ona inananlar üçün çadra örtmək, sünnət olmaq, üzük taxmaq vacib olub. Haliyədə Hz. İBRAHİMDƏN törəyən yetmiş iki min PEYĞƏMBƏR, on iki İMAM tərəfindən çadra örtülməsi, sünnət olmaq, saqqal saxlanması və bığın altının təmizlənməsi ənənəsi yarandı. Çünki İBRAHİM də Allaha iman gətirib təslim olanlardandır!

İBRAHİM Peyğəmbər Saranın yanında olarkən yatmışdı, yuxuda gördü ki, oğlu İSHAQI qurban kəsirəm. Qan-tər içində oyandı. Yatdı, yenə də həmin yuxunu gördü. Öz-özünə dedi:” Aya kim övladını kəsər. ALLAH yanında günahkar olar. Bir neçə gün sonra yuxuda gördü, yenə övladının başını kəsir. Qan-tər içində yuxudan qalxıb dağları gəzə-gəzə ağlayırdı. Birdən göylərdən nida gəldi:

- Ey İBRAHİM! EY Hz. İBRAHİM!

İbrahim cavab verməyəndə yenidən səda gəldi:

- Ey İBRAHİM, qorxma! Xanımdan olan övladını qurban kəs! KƏRBƏLA səhrasında verdiyin vədə əməl et!

Hz. İBRAHİM Saranın yanına gəldı. Utana-utana, qorxa-qorxa Saraya dedi:

- Ey xanım! Mənim Allaha verdiyim vəd var. Oğlum İshaqı Allah yolunda qurban kəsəcəm. Oğlun İshaqı razı sal, onu Allah qonaqlığına aparım.

Sara dedi:

- Mən yetmiş səkkiz yaşımda bir övlad tapmışam, onu qurban kəsməyə verməərəm. Üstümə aldığın kənizin doğduğu İsmayılı kəs! Kəniz xanıma qurban kəsilər, xanım kənizə ağadır.

İBRAHİM çox yalvardı: "Mənə İshaqın kəsilməsi üçün vəhy gəldi, -desə də, SARA: "Verməərəm övladımı qurban kəsəsən, o sən, o da Həcər, "- deyib durdu.

İBRAHİM ağlaya-ağlaya səhralara düşdü. Başına-gözünə döyə-döyə deyirdi:

- lahi! Sara İshaqın qurban kəsilməsinə icazə vermədi. Mən Həqq yanında əhdə vəfa qılmadım. Əff et məni, ya Rəbb, Sənsən hər şeyin sahibi! Sənsən bilən və görən!

Allahdan nida gəldi:

- İBRAHİM, Sarayla razılaş, İsmayılı Mina dağında qurban kəs!

İBRAHİM ağlaya-ağlaya Kəbəyə - Həcərin yanına gəlir. Həcər İBRAHİMİN pərişan halda gəldiyini görüb deyir:

- Ey XƏLİlULLAH! Səni heç bu qədər qəmli görməmişəm, nə üçün pərişansan?

İBRAHİM dedi:

- Mən Allahın günahkar, əhdi pozan, quluyam. Allaha verdiyim vədi yerinə yetirə bilmədim.

Həcər dedi:

- Mən və oğlun sənin qulunuq, hər ikimizin canı sənə fəda olsun.

İBRAHİM dedi:

- Ey Həcər, oğlum İsmayılı Mina dağına aparıb Allah yolunda qurban kəsilməsi üçün Yaradandan vəhy gəldi: Sən və İsmayıl buna razı olacaqsınızmı?

Həcər dedi:

- Canımız da Allaha aiddir, ruhumuz da! Bizim nəyimiz var ki, verək. Verən də Allah, alan da! Ancaq mənə icazə ver, sənin oğlunu çimizdirim, əllərinə həna qoyum, təzə libas geyindirim, Allah qonaqlığına apar.

Həcər oğlu İsmayılı çağırdı və dedi:

- Oğlum, gəl səni çimizdirim, əllərinə həna qoyum, libasını təzə edim. Atan İBRAHİM XƏLİL ULLAH səni Allah qonaqlığına aparacaq.

Anası Hz. İsmayılı bəzədi, əlinə həna qoydu, boğazından öpdü, ağlayıb dedi:

- Oğlum! Yol gedəndə atanı incitmə. Atan nə desə, onu eşit, nə istəsə, imtina etmə. Ata sevgisi ana sevgisindən boldur! Onu eşit ki, sən və mən atanın yanında xəcalət çəkməyək.

Hz. İBRAHİM oğlu İsmayılı götürüb Mina dağına tərəf getdi. Yolda İsmayıl atasının arxasınca gedirdi. İndiki “ŞEYTAN DAŞLANAN” yerdə İblis İsmayılə vəs-vəsə edib dedi:

- Atan sənin bu dağlarda başını kəsməyə aparır, getmə, geri qayıt!

Hz. İBRAHİM gördü ki, İblıs lənətullah oğlumla vəs-vəsə edir, dedi:

- Oğlum, o, böyük Şeytandır. Onu eşitmə, onu daşla. O, Allahın düşmənidir.

Hz. İsmayıl yerdən bir neçə daş götürüb İblisə tərəf atdı, daş Şeytanın sağ gözunə dəydi, ovub yerə tökdü. Həccə gedənlər kor Şeytanı ona görə daşlayırlar. Hz. İBRAHİM və İsmayıl Mina dağına çıxdılar. Hz. İBRAHİM dedi:

- Oğul, Allahdan vəhy gəldi ki, oğlumu Mina dağında kəsim.

İsmayıl dedi:

- Ey Ata! Allah yolunda qurban kəsilməyimə razıyam. İki şərtim var: əl- ayağımı bağla ki, sən başımı kəsəndə səni incitməyim. Gözlərimi bağla ki, gözlərimə baxanda əlin əsər, kəsə bilməzsən, Allah yanında hər ikimiz xəcalətli olarıq.

İbrahim İsmayılın əl-ayağını və gözlərini bağlayıb daşın üzərinə uzatdı. Bismillah deyib xəncəri oğlu İsmayılın boğazına çəkdi, bıçaq kəsmədi. Hz. İBRAHİM bıçağı oğlu İsmayılın boğazına on iki dəfə çəkdi, bıçaq kəsmədi. Qəzəblənib bıçağı daşa

çırpdı. Bıçaq daşı iki yerə böldü. Daşdan səda gəldi:

- La İlahə İlləllah! İlahi, mənim günahım nədir? Üzərimdə peyğəmbər zibh edilir ki, yəni başı kəsilib nahaq qanı üzərimə axsın?

Allahdan nida gəldi:

- Ey Mina dağı! Səni dağlar arasında əziz yaratdım. Sən həmişə ziyarət edilənlərdən olacaqsan.

O zaman Hz. Cəbrayıl Adəmin böyük oğlu Habilin Mina dağında qurban etdiyi qoçu qucağından yerə qoydu. Hz. Cəbrayıl dedi:

- Ey İBRAHİM! Oğlun İsmayılı azad et! Onun əvəzinə qoçu qurban kəs? Bu qoç Hz. Adəmin oğlu Habilin qurban etdiyi qoçdur. Bu günə qədər bu yaraşıqlı qoç Cənnətdə saxlanılırdı. Bu gün və bundan sonra qiyamətə qədər Allah əmri ilə son peyğəmbər MƏHƏMMƏD ƏL-MÜSTƏFA ümməti atası İsmayıl əvəzinə bu dağda qurbanlar kəsəcək. Bu yerlər Məhşər günü Adəm övladlarının mühakimə olunan yeridir. İnsanlar HƏCƏRÜL-ƏSFƏT daşının ətrafına dolanıb yetmiş il axirət günü hesabı ilə mühakimə olunacaqlar. Odur ki, bu yerlər məqami Həccidir. Həccə gələnlər qiyabi olaraq Qiyamət gününü anarlar. Hz. İBRAHİM Sara oğlu İshaqı qurban etməyə razı olmadı. İshaqın soyundan gələnlər sənin soyundan gələn yetmiş iki min peyğəmbərin üçdə bir hissəsini qətl edəcəklər. Məryəm oğlu İsa Ruhullahı dar ağacına

çəkəcəklər, Yəhya peyğəmbərin başını kəsib, qanına şərab qatıb içəcəklər, Yusif peyğəmbəri quyuya atıb, atalarını "Yusifi canavar yedi", - deyib aldadacaqlar. Sonradan tacirlərin quyudan çıxartdıqları Yusifi İsmayıl soyundan gələn Malikə qara pula - on səkkiz dirhəmə satacaqlar. Zəkəriyya peyğəmbəri kötük arasına qoyub mişarla tikə-tikə doğrayacaqlar. MƏHƏMMƏD ƏL-MÜSTƏFAYA zəhər verəcəklər. Cərcuz peyğəmbəri dəfələrlə öldürəcəklər. Onlar alimlər, müctəhidlər öldürəcəklər, hər dinin içinə nifaq salmaqdan həzz alacaqlar. Onlar sənin adından yararlanıb İsla-ma düşmən kəsiləcəklər.

İsmayıl peyğəmbərlər içində Allah sevən əziz peyğəmbərlərdəndir. Hz. İBRAHİM və İsmayıl qoçu qurban kəsib Həcərin yanına qayıtdılar. Həcər İsmayılı görüb necə sevindi və göz yaşları axıda-axıda növhə dedi:

Kəbədən baxanda Mina görünür,
Musa sığınan Sina görünür.
Görünür hər yerdə Analar qəmli,
Əzrayıl can alır, can alır qəmli.
İsmayıl nəslindən göz qalır qəmlı,
Çarmıxa çəkilən İsa görünür.

Yunis dua edər, deyər, İlahi,
Balıq Yunis cismin yeyər, İlahi.
Nübüvvət soyumuz itər, İlahi,
Ölən Cərcuz gələr cana, görünür.

Kəsərlər teştdə Yəhya başını,
Cismindən edərlər, cida başını.
Əmərlər qanını, ya da başını,
Şaqqa olan Zəkəriyya görünür.

Məhəmməd Əminə zəhər verərlər,
İsmayıl nəslinə qəhər verərlər.
Qəm - qüssə dolusu bəhər verərlər,
Ayrılan Möhsündən Nisa görünür.

Şəhid olar İslam ələmdarı,
Hüseyndən ayrılar yavəri –yarı.
Lənətləyər dünya şimri xunxarı,
Oğlunu axtaran Leyla görünür.

Boğur Cəbrayılı qəhri dünyanın,
Sürtər şapərinə Hüseynin qanın.
Cəfərin bürüyər qoşun hər yanın,
Təyyari tiğidən cida görünür.

Öpər boğazını Tahiri-Əthar!
Hüseyn qəminə Analar ağlar.
Ağladan dünyada Atalar ağlar,
Sudeyfə bu yerdə vida görünür!!



# MUSA NƏBİYYULLAH

MUSA Əleyhissəlam Allah Təalanın sevdiyi beş ÜLÜL-ƏZM peyğəmbərlərdən biridir. Həzrəti Musa Ali Fironun sarayında ana bətninə düşür və Fironla qırx ıl mübarizə aparıb. Fironu suda boğan, mübariz peyğəmbərlərdəndir.

Bir gün Firon münəccimləri yığıb deyir:

- Mənim taleyimə baxın!

Münəccimlər Fironun taleyinə baxıb dedilər:

- Ey Firon! Allah olsan da, səni öldürən insan dünyaya gələcək! Hələ ana bətninə düşməyib.

Firon, ana bətninə düşdükdən sonra həmin uşağı ananın qarnından çıxardıb öldürməyi qərar verdi. Birinci mərhələdə arvadları kişilərdən ayırdı.

Bir zaman keçdi. Musa peyğəmbərin anasının illərlə görmədiyi əri yadına düşdü. Fironun sarayına gəldi. Allah qüdrəti ilə saray qapıçıları yatmışdı. Arvadın əri Fironun sarayında Firona yelpic verən idi. Arvadın ərinin adı İmran idi. İmran gördu arvadı saraya girib. Arvadına dedi:

- Sən bura gözətçilərdən gizli necə daxil oldun?

Arvad dedi:

- Allah təqdiridir! Qəlbimə elə düşdün ki, ölsəydim də, səni görmədən geri qayıdan deyildim. Allaha şükür ki, saray gözətciləri yatmışdılar.

İmran və arvadı Fironun sarayında Fironun yatağının üstündə qoşa yatdılar. İmran dedi:

- Firon heç vaxt gecə yatmazdı, bu gün onu ölüm yuxusu tutub.

Arvad saraydan çıxanda gözətçilər hələ də yatmışdılar. Münəccimlər Ali Firona xəbər verdilər ki, səni öldürən adam bu axşam ana bətninə düşüb.

Firon mamaçaları (həbəçiləri) çagırtdırıb əmr etdi:

- Nə qədər qadın varsa, hamısını yoxlayın. Hansı qadınlar uşağa qalıbsa, o qadınların qarnındakı uşaqlarını çıxardın! Mənim mülkümdə heç kəs uşağa qalmamalıdır. Mamalar (həbəçilər) evbəev bütün qadınları yoxlayıb, usağa qalan qadınların uşağını alırdılar. Hər gün təkrar edirdilər. İmranın arvadını yoxlayanda Allah Təala uşağı anasının sinəsinə çəkərdi. Belə ki, doğum vaxtı gəldi. Arvad uşağı gizli yerdə doğdu. Uşağın adını ASİ qoydular. Sandıq bağlatdırandan sonra ana uşağı əmizdirdi, sandığa qoyub Nil çayına buraxdılar. Musanın bacıları suda uzən sandığa nəzarət edirdilər. Sandıq Fironun bağçasına girdi, suya uzanan ağacın budağına dolaşıb qaldı. Firon və arvadı Asya Rəhmətullahi Əleyha saray bağında gəzirdilər. Sandıq gözlərinə sataşdı. Onlar maraqlandılar ki, sandıqda nə var?

Firon dedi:

- Sandıqda qızıl ləl var.

Asya dedi:

- Əgər o sandıqda uşaq olsa, onu mənə bağışlayarsan. Bizim də uşağımız olsun. Ya Firon, sən də uşaq həsrəti çəkirsən, mən də.

Onlar sandığı saraya gətirdilər. Sandığı açıb gördülər ki, içərisində altı aylıq uşaq var. Firon dedi:

- Bu uşaq məni öldurəcək.

ASYA dedi:

- Ya firon, allah ölməz, səni münəccimlər qorxuzur, onlar yalan danışır. Allah qorxmaz. Sən ki, allahsan! Hər şey sənin əlindədir. Həm də bu uşaq cox böyükdür, altı aylıqdan böyükdür. Bu, sənin və mənim oğlumdur. Firon Asya ilə razılaşdı. Uşağın adını MUSA qoydular.

Allahlıq iddiası edən Ali Firon atası bilinməyən bir adamdır ki, onun anası sahibsiz, vaxtını kişilərlə eyş-işrətlə keçirən bir qadın olub. Bir gün gəmi ilə Rimdən Misirə gedəndə gəmi tufana düşər, Qırmızı dənizdə gəmi parcalanar. Hamilə arvad parçalanmış gəmi taxtası üstündə fironu doğar, özü isə suya düşüb dənizdə qərq olar. Taxta üstündə qalan körpə dalğalar arasında tək-tənha qalar. Allah Təala Həzrəti Cəbrayıla deyər:

- Get taxta üstündəki sahibsiz körpəyə nicat ver. Ondan yazılı əhdnamə al. O, mənim dostumun düşməni, yaradılanlara kömək edəndir.

Cəbrayıl dənizə enib taxtanı Musa peyğəmbərin tapıldığı yerə gətirər və körpəyə deyər:

- EY, əgər sən yaradan olsan, sənin yaratdığın sənə asi olsa, sən ona hansı cəzanı verərsən?

Körpə deyər:

- Onu bu suda boğaram.

Mələk onun dediklərini qeyd edib uşağa qol çəkdirir, möhürlətdirib oradan uzaqlaşır. Körpəni sonsuz bir dəyirmançı tapıb evinə aparır. Yaşlı qarının döşlərində süd olmadığı üçün, donuzu sağıb uşağı yedirdir, boya-başa çatdırırlar. Usağı oxudub savadlı edirlər. Zaman keçdikcə vəzifə pillələrində böyüyüb, nəhayət, firon olur.

Firon Musanı tapana qədər yüz iyirmi il Allahlıq iddiası edib. Deyərdi: "Mənəm Allah! Mənəm hər şeyi yaradan." Həzrəti Musa altı aylıq olanda Firon onu nazlayıb-oynadarkən uşaq fironun saqqalından asdığı ləl-gövhərləri yonub tökərmiş. Firon Musanı kənara tullayıb deyərmiş: "Musa məni öldürəcək, onu öldürəcəyəm." Belə vaxtlarda Asya deyərdi:

- Musa uşaqdır, uşaqlar belə olur. Uşaq yaraşıqlı şey görəndə onunla oynayar, yemək üçün ağzına təpər. İnanmırsan, yoxlayaq!

Firon deyər:

-Necə sınayaq?

- Bir tərəfə meyvə yığaq, bir tərəfə ləl-cəvahirat. Əgər körpə iməkləyərək meyvənin üstünə getsə, onda o, uşaq deyil.

Firon deyər:

- Ləl qoymayaq, yanar kömür qoyaq, odun üstünə getsə, uşaqdır.

Amina deyər:

- Ay kişi, uşağı yandırarsan, səni heç vaxt bağışlamaram.

Musaya süd verən doğma anası da onlarla birlikdə idi. O da deyər:

- Odla uşağı yandırarıq, od olmasın, ləl olsun.

Firon deyir:

- O ki, mənim düşmənimdir, qoy meyvəni yesin, onu öldürüm. Düşməni beşikdə boğmasan, o səni boğar.

Uşağı ortaya qoyarlar. Uşaq meyvənin üstünə gedərkən, Allah Təala Cəbrayıla deyir:

- Mənim həbibimi qoru!

Cəbrayıl Musanı oda tərəf itələyir. Musanın əlini yanar közə soxur. "Əli yanan agzına təpər, "- deyiblər. Musa qoru ağzına təpir. Uşağın dodaqları, dili yanır. Aminə uşağı qucağına alıb ağlaya - ağlaya deyir:

- Sən allahsan, bəndənə rəhm eləmədin. Bu necə Allahlıqdır? Bu yaşdasan, Allahlığı öyrənməmisən.

Firon Musanı tapdıqları gündən ondan qorxmağa başlamışdı. Arvadı fironun uşaqdan qorxduğunu bilirdi. Musa on üç yaşına gələndə zindanbanın oğlu ilə mübahisə edirlər. Zindanbanın oğlu: "Firon Allahdır", deyər. Musa isə deyər:

- Firon Allah deyil, o öləcək.

Mubahisədə Musa zindanbanın oğlunu başından yerə vurub öldürür. Firona xəbər çatır. Musanın öldürülməsini əmr edir.

Musa anaları ilə halallaşıb saraydan qaçmaq qərarına gəlir. Qırmızı dənizi keçir və Kənana gəlir. Həzrəti Musa hər tərəfi dağlıq olan vadiyə çıxır. Səhrada su quyusunun yanında xurma agacı var idi. Musa o ağacın altında əyləşib çörəyini yedi, xurma ağacına kürəyini söykəyib dincəlməyə başladı.

Bir də baxanda Həzrət gördü ki, su quyusuna yaxın iki qız oturub, yanlarında olan beş-on qoyunu otarırlar. Həzrət qızlardan soruşdu:

- Nə üçün buradasınız, kimi gözləyirsiniz?

Qızlar dedilər:

- Biz karvan gözləyirik. Üç gündür buradayıq. Karvan gəlmir, gəlsə, onlar bu quyudan su çəkib daş hovuza tökəcəklər, öz dəvələrini suvaracaqlar, ehtiyat su göturəndən sonra biz də qoyunları suvarıb, qalan sudan da evə aparacağıq. Kənd camaatı bizi istəməzlər, atamız Şüeyb peyğəmbərdir. Özümüzə xoş gün verməzlər, nəinki, su verələr.

Musa quyunun ağzında olan daşı kanara atıb, dəlvi (su qabı )quyuya saldı, su çəkib daş hovuzu doldurdu. Qızlara dedi ki, gəlib su götürsünlər, qoyunlarını suvarsınlar. Qızlar su tuluqlarını doldurub qoyunlarını suvarırlar. Musa qızlardan ata-

ları Şüeyb peyğəmbərə ondan salam aparmağı xahiş edir. Qızlar evə gəlilr. Ataları dedi:

- Qızlarım, bu gün tez gəlməyinizə nə səbəb oldu?

Qızlar dedi:

- Ata, orada qərib bir oğlan var idi. O cavan quyudan su çəkib hovuzu doldurdu, biz qoyunları suvardıq, evə də su gətirdik. O cavan Allah peyğəmbərinə salam göndərdi!

Şüeyb qızlara dedi:

- Nə üçün onu evə gətirmədiniz?

Qızlar dedilər:

- Ya peyğəmbər, sənin ixtiyarın olmadan təklif etməyə bizim haqqımız yox idi. Odur ki, ona təklif etmədik.

Həzrət dedi:

- Gedib onu evə gətirin.

Qızlar Musanın yanına gəlib atalarının sözünü ona çatdırdılar. Hz. Musa qızlara dedi:

- Gedək, ancaq siz mənim arxamca gəlin. Hara dönmək lazımsa, ora daş atarsız. Onlar elə də etdilər. Şüeyb peyğəmbərin evinə catdılar. Hz. Şüeyb Musadan soruşdu:

- Ey qonaq, kimsən? Haradan gəlirsən?

Musa dedi:

- Misirdən gəlirəm. Firon sarayından qaçmışam. Oranın əzizi özünü Allah elan etmişdir. Mən də onun Allah olduğunu təbliğ edən adamı öldürdüm. Firon da məni tapıb öldürməyi əmr etmişdi, mən də

oradan qaçmışam. İndi yaşamaq ücün bir yer tapıb orada qalacağam.

Hz. Şüeyb dedi:

- Mənimlə qala bilərsən! Qalarsansa, müqavilə bağlayaq. Şərtim belədir: yeddi il mənim qoyunlarımı otaracaqsan, hər il sənə yeddi qoyun verərəm.

Musa razılaşdı. Şüeyb qızı Safuraya dedi:

- Sandıqdan bir əsa gətir.

Qız əsanı gətirdi. Atası əsanı geri qaytarıb, başqa əsanı gətirməyi tələb etdi. Qız əsanı aparıb digərini gətirdı, atası yenə geri qaytardı. Qız beşinçi əsanı geri qaytaranda atası da onunla getdi. Qızın gətirdiyi əsanı divara söykəyib yenisini götürdu, yenə İbrahim soyuna məxsus əsa əlinə gəldi. Şüeyb peyğəmbər əsanı Musaya verəndə dedi:

- Əmioğlu, bu əsa İbrahim oğlu İsmayıl nəslinə məxsusdur. Mən İsmayıl nəslindənəm. Biz əmioğluyuq. Qoyunları gün batana aparma, orada əjdaha var. Hec kimlə münaqişə etmə. Sənə də, mənə də zərər vurarlar. Burada yaşayanlar bütpərəstdir. Allaha qail olmazlar.

Səhər açıldı. Musa qoyunları otarmağa apardı. Qoyunları gün çıxana tərəf aparmaq istədi, qoyunlar günbatana tərəf getdilər, Musa qoyunlarla getdi. Qoyunlar suyu olan bir gölün yanına gəlib ot yeməyə başladılar. Musa qoyunların yanında oturub yuxuya getdi. Yuxudan ayılandan sonra gördü

ki, onun lap yaxınlığında bir əjdaha öldürülüb. Musa təəccüb edərək əjdahaya tamaşa edirdi. Birdən göylərdən səda gəldi:

- Ey Musa !!!

Bir daha səda gəldi:

-Ey Musa!

Musa gələn sədadan qorxub oradan qaçmaq istədi, yenə səda gəldi:

- Qorxma, ya Musa! Sənin Rəbbinəm!

Musa səsdən qorxub təşvişə düşdü. Səda yenə gəldi:

- De La İlahə İlləllah !

Musa təkrar etdi. Allah Təaladan vəhy gəldi:

- Ey Musa! Sən evində olduğun Şüeyb peyğəmbərdən təlim al ki, fironla mübarizə apara biləsən. Sənə əsa verdim ki, səni hər xətadan qorusun.

Hz. MUSA qoyunlarla evə gəldi. Şüeyb peyğəmbər Musaya dedi:

- Möcüzatın mübarək olsun!!! Sənin gələcəyini mənə həzrəti Cəbrayıl demişdi.

Əjdaha öldürüldükdən sonra Şüeyb peyğəmbər orada söz sahibi oldu. İbrahim dinini və “SÖHÖF” KİTABININ rəylərini qəbul etdilər.

# FİRONUN RUDİ NİLDƏ QƏRQ OLMASI

Hz. Musa və Şüeyb arasında bağlanan müqavilə tamamlandı. Şüeyb dedi:

- Ey Musa! Müqavilə tamamlandı. Yeni müqavilə bağlayaq. Yeddi il də çoban olmağa razı olsan, qızım Safuranın nigahını sənə oxuyarıq, həm sən ailəsiz olmazsan, həm də mən cobansız olmaram.

Musa razılaşdı. Yeddi il də keçdi. Musa Əleyhissəlam qoyunları otararkən göylərdən səda gəldı:

- Ya Musa! Get Fironun üzərinə!

Musa dedi:

- İlahi, mən tək, dilim pəltək, firon qarşısında zəifəm.

Allah Təaladan nida gəldi:

- Ey Musa! Qardaşın Hamanı sənə kömək qıldım. Əlində olan əsanı yerə at!

Musa əsanı yerə atdı, Əsa ilana döndü. Musa ilandan qorxub qaçmaq istədi. Nida gəldi:

- O ilanın quyruğundan tut!

Musa ilanın quyruğundan tutdu, ilan əsaya döndü.

- Ey Musa! O əsa Fironun sehrlərini pozar, havanı dəyişər, göylərdən yağan yağışı qana döndərər,

hər şeyi daş edə bilər. Ey Musa! Fironu təslim et kı, özünü sənin Allahına şərik qılmasın.

Musa evə gəlib Şüeyb peyğəmbərlə vidalaşdı. Ailəsi Safura ilə Misirə yola düşdülər. Rudi Nnili keçib Misirə çatdılar. Qardaşı Hamanı tapıb görüşdülər, on beş il ayrılığın sevincini az da olsa, yaşadılar. Musa qardaşına dedi:

-Fironu Allahın yoluna dəvət etməyə gəlmişəm.

Onlar Musanın ailəsini qardaşı Hamanın evinə yerləşdirdilər. Fironun Allah olmadığını təbliğ etməyə başladılar. Firon Musanın qayıtmağından qorxmağa başladı. Musa Hamanla Fironun sarayına gəlib dedilər:

- Ey Firon! Allahdan başqa Allah yoxdur. Sən məxluqsan. Allahını tanı, ona iman gətir. Əgər iman gətirməsən, sabah göylərdən qan yağacaq.

Səhəri gün Musa əsasını göylərə qaldırıb Allahdan qan yağmağı istədi. Misirə qan yağdı.

FİRON dedi:

- MUSA sehrbazlıq edir.

Musanı çağırıb dedi:

- Ey Musa! Mən də sehrbazlarımı yığım, yarışaq. Kim qalib gəlsə, onun sözu keçərli olsun.

Onlar razılaşdılar. Firon sehrbazları yığıb tapşırdı ki, Musa sehrinə qarşı sehr edib onu məğlub etsinlər. Fironun sehrbazları qırx gün ip, ciyə, odun yığdılar və həmin əşyaları ilana çevirdilər. Musa Əleyhissalam əsanı yerə atdı, əsa əjda-

haya döndü, onların ilan-cayanlarını uddu. Fironun məbədlərini də uddu. Firon qışqırdı ki, ilanı tutsun, sarayları udmasın. Musa dedi:

- İman gətir.

Firon təslim olmayıb dedi:

- Bir nərdivan tikdirəcəyəm, göyə qalxıb sənin Allahını oxla vuracağam. Təslim olmuram, Allah mənəm!

Firon gecələr özünü ayaqlarından asıb deyərdi:

- İlahi, yaradan sənsən, yaranmış mənəm.

O, o qədər ağlayardı ki, ta gözlərindən, ağız-burnundan qan axardı. Səhər olan kimi yenə özünə Allah deyərdi.

Firon uca bir nərdivan düzəltdirdi. Nərdivanın üstünə çıxıb göyə ox atdı. Oxa böyük bir balıq keçib yerə düşdü. Firon dedi:

- Ey Musa! Sənin Allahını göylərdən vurub yerə saldım. Allahsız qaldın, indi kim sənə kömək edəcək, tabe ol, mənə Allah de.

Musa ona iman gətirənlərə deyərdi:

- Səbr edin. Allah özünə şərik qılmaz. Firon ölümə məhkumdur. Çünki o yaranmışdır.

Musa əllərini Allah dərgahına tutub deyərdi:

-Ya Rəbbim! Mənə: “Fironu məğlub et!” deyirsən. Ancaq onu eşidirsən.

Səmalardan nida gəldi:

- Ey Musa! Sən mənim yaratdığımın hansı acına çörək vermisən? Sənə inananları ac, susuz saxla-

yırsan. Firon mənim sağır, anasız, xəstə, qoca, kimsəsiz yaratdıqlarımı saxlayır. Heç kimdən təmənnası yoxdur, hər gün özünü asıb mənə yalvarır. Sən, Ey Musa, səhərə qədər yatırsan, düşmənin qədər narahat deyilsən. O, yaşamaq və taxtını qorumaq ücün hər gün əziyyət çəkir, o vaxta qədər çalış ki, ona Allah deyənləri mənim tərəfimə çək, məni tanısınlar. Onun ədaləti azalsın. Hirsi, qəzəbi çoxalsın. Qəzəbli olanlar, ədalətsizlər mənim düşmənimdir. Mən düşmənimə də mehribanam. Əgər o, son nəfəsinə qədər mənə düşmən olsa da, bir gün məni tanıyıb, şeytan eyş-işrətindən uzaq düşsə, məni öz qəlbində dolandırıb tövbə etsə, ona öz haqqımı bağışlayaram.

Allah Rəhman və Rəhimdi, görən və biləndi! MUSA dedi:

-Ya Rəbbim! Sən özün kömək et Fironu məğlub edim. Odur ki, mənə inananları, sənə təslim olanları, firon zülmündən qorumaq mənim boynuma gəlib. Sənin qüdrətinə, sənin şəninə şahadətə yetişənə qədər mübarizə aparacağam. Firon səni Allah bilənə, sənə iman gətirənə qədər döyüşəcəyəm.

Musa qırx il haqq əleyhi-batil cihad elədi.

Firon Allah iddiasını yeridərək füqəra haqlarını vermədi, sahibsiz uşaqların yetimxanalarda yeməyini kəsdi. Fironun zülmü birə-yüz artmışdı. Firon lənətləndiyi gün yetim evlərində cəmi bir keçi

kəsilmişdi. Müharibə başladığı üçün o da yetimlərə qismət olmadı. Firon o gün ki, qoşun yığıb Musanın üzərinə gəldi, Allahdan Musaya vəhy gəldi:

- Ey Musa! Qövmünü cəmlə, Rudi Nil dəryasından keçirt otaya ki, Fironun bəlasından gurtarasan.

Musa Əleyhissəlam qövmünü cəmləyib Rudi Nilin sahilinə gətirdi. Fi-ronun qoşunları Musanın qövmünü mühasirə etdilər. Musanın qövmü arasında Samir adlı bir nəfər it südü ilə böyümüşdü. Onun anası Samiri öz atasından gizli doğaraq Rudi Nil dəryasına atmışdı. Onu da Həzrəti Cəbrayıl hifz etmiş, ona dərs vermiş, onu elmləndirmişdi. O, Allahın elçisi Cəbrayıli tanıyırdı. Ona görə hz. Cəbrayıli Firon qoşunu içində görən kimi tanıdı. Tez onun atının ayağı altından torpaq götürdü. Musa Əleyhissəlam əlini göylərə qaldırıb dedi:

- İlahi, mənim qövmümü qoru, Sənsən görən və bilən!

Yaradandan vəhy gəldi:

- Ey Musa, əsanı suya vur!

Musa əsanı Rudi Nilə vurub dedi:

- Ey su! On iki parçaya bölün, qövmümü o taya keçirmək üçün mənə yol ver!

Su on iki yerə parçalanıb, şişərək dayandı. Musanın qövmü çaydan keçməyə başladı. Firon dəryanın parçalanmasını görüb başa düşdü ki, mənim

dörd yüz il Allahlıq iddiası etməyimin sonu çatmışdır. Odur ki, geri qayıtmaq istədi. Fironun mindiyi erkək at idi. Ondan qabaqda dişi at minmiş Cəbrayıl gedirdi. Bu dişi at dələbə gəldiyi üçün kişnədi. Fironun mindiyi erkək at onun dalınca cumdu. Zəif, qoça fironu öz atı Musanın qövmünün ardınca sürüyüb dəryaya saldı. Musa qövmü dəryadan sahilə çıxdı. Fironun qövmü dəryanın ortasında idi. Dərya birləşib axmağa başladı. Sudan nalələr göylərə ucalırdı. Firon bağırırdı:

- Məni əff et, ya Musa!

Yetmiş dəfə dedi. Cəbrayıl Firona dedi:

- Oxu bu müqaviləni.

Firon dedi:

- Bəli, mən fironun imzaladığı müqavilədir. Mən bu imzanı çarəsizlikdən imzalamışdım. İndi də çarəsizəm, mənə nicat ver.

Cəbrayıl dedi:

- Əhdə vəfa gərəkdir, demisən ağasının üzünə ağ olanı Rudi Nildə boğaram! Dörd yüz il Allahı tanımadın, özünü Allah elan etdin, bilmirsən ki, hər fironun bir Musası var?

Cəbrayıl Əleyhissəlam Fironun ağzına palçıq basıb canını aldı. Dedi:

- Sən də tabut əhlli olan Zöhhakın, Hamanın, Aadın, Şəddadın, Nəmrudun yanına gedib cəhənnəmə ləzzətli yem olacaqsan. Ey Ali Firon, sənə qonşu şahlar olacaqlar, yaradılmışlar Allahın qu-

ludur. Qulluq etməyənlər çəhənnəm əzabına düçar olacaqlar. Allah sənə lənət etsin!

Allah Təbarəkə və Təala Musaya xitabən dedi:

- Ey Musa! Firon səndən yetmiş iki dəfə əff dilədi, sən əff etmədim. Məndən bir dəfə əff diləsəydi, mən onu əff edərdim. Allah görəndir və əff edəndir.

"Tövrat"ın on hökmünü qəbul edənlər onun altıncı hökmünü tanımayıb peyğəmbərləri qətl etmişlər. Məsələn, bunlardan biri məzarı Azərbaycanın Beyləqan kəndində yerləşən Çərçüz peyğəmbərdir. İkincisi Yahun və üçüncüsü Daniyal peyğəmbərlərdir ki, İshaq soyundan gəlirlər, qəbirləri İraqdadır. Dördüncü Zəkəriyya və beşincisi Yəhya peyğəmbərlərdir ki, İsa peyğəmbərin dinini qəbul etdiklərinə görə qətl edilmişlər. İsa peyğəmbəri bic adı ilə çarmıxa çəkib, qətl etmişlər.

Hz. Musa öz qövmünü Sina dağlarının arasına gətirdi. O yerlər susuz, daşlı, qumlu, cəhənnəmə bənzər yer idi. Hz. Musa qövmünə dedi:

- Ey qövmüm, burada qalacağıq. Allah dinini burada yayıb azad ömür sürəyəcəyik ki, zamanı gələndə öz vətənimizə gedək. Allah Təala bizi yaranmış insanları özünü Allah elan edən şeytan hiyləli zülmkar şahlardan qorusun!

Musa peyğəmbər bəni İsrail övladları ilə müqavilə və müahidələr bağlayırdı.

Ancaq orada aclıq, səfalət üzündən Musa qövmü arasına təfriqə düşmüşdü. Rudi Nildə Cəbrayıl Əleyhissalamın atının ayaqları altından torpaq götürən it südü ilə mayalanmış Samir həmin torpağı camaatdan sehrbazlıq yolu ilə yığdığı, qızıldan düzəltdiyi dana (İnək) heykəlinin içərisinə töküb: “Bu, sizin Allahınızdır. İnək Allah sizin istədiyiniz arzuları yerinə yetirəcəkdir, ”-deyəndə sehrlənmiş inək onun dediklərini icra edirdi. O zamanlar hz. Musanın ailəsi hamilə idi. Musa arvadının uşağını tutmaq üçün yaxın kəndlərdən həbəçi gətirməyə gedirdi. Musa dağın döşündən gələn işığa dogru gedib ənnab və ya tuba ağacı altına çatdı, işıq bağdan parıldayırdı. Bağdan səda gəldi:

- Musa peyğəmbər, mənə gəl!

Vəhy gəldi. Vəhydə belə deyilirdi:

- Ey Musa! Allah yolunda otuz gün oruc tut! Turi Sinaya (Sina-Musaya “Tövrat”ın nazil olduğu dağın adıdır) gəl! Qövmünü saf, bol ruzili etmək üçün sənə kitabə- “TÖVRAT” veriləcək. Qövmün Allahı tanıyacaq, dünyaya hökm edəcək.

Hz. Musa otuz gün oruc tutub Yaradanın qulluğuna getdi. Musa Əley-hissalam nur yağan ənnab və ya tuba ağacının yanına gəldi. Ağacdan səda gəldi:

- Ey Musa! Nə üçün oruc ağızlı gəlmədin?

Musa dedi:

- Ya Rəbbim! Oruc ağızlı ağzımdan pis iy gəlməsin deyə, otuz gün oruc tutdum, son günü yedim, gəldim.

Ağacdan nida gəldi:

- Oruc ağzın ətirli iyi mənə xoşdur. Yenə də on gün oruc tut, ağzı oruc gəl.

Musa orada qalıb on gün də oruc tutdu. Yenə ağacın yanına gəldi. Ağacdan göylərə nur təvəllö edirdi. "Tövrat"ayə-ayə on vacib hökmü ilə nazil oldu. Qırx günə tamamlandı. Musa daşa yazdığı "Tövrat"ı götürüb qövmünün içinə gəldi. O vaxta qədər Musa qövmü içinə təfriqə düşmüşdü. Samir (ona lənət olsun!) düzəltdiyi inək heykəli ilə Musa qövmünü aldadıb yaratdığı "Dana Allahdı" təriqətinə döndərmişdi. Samir Musanın qorxusundan ona inananlarla birlikdə ordan Hindistana qaçdı. Hindistanda inəyə Allah deyənlər var. Musa peyğəmbər həyatının qalan illərini Allah xəbərlərini, əmr və hökmlərini catdırmışdır. İblis Musa qövmünün içərisinə sızaraq, adamların ağlını çaşdırıb dedi:

- Musa sizi aldadır. Kitabəni də özü yazıb. Allahı görürsə, sizə niyə göstərmir.

İblis Musanın qövmünü yoldan çıxardırdı, onlar da Musadan Allahı onlara göstərməyi tələb edirdilər. Hz. Musa qövmü içərisindən qırx alim götürüb Turi Sinaya gətirdi. Musa əllərini Allah dərgahına qaldırıb dedi:

- İlahi! Mənim qövmümü İblisilərin yoldan çıxardıb. Mən Yaradana qəlbimdə yer verib görür və tanıyıram. Bunlar səni görmək istəyir. Göylərdən səda gəldi:

- Oradan qaç, Ya Musa! Onların qəlbi İblisin fitnəsi ilə doludur. Onlar məni görmək üçün məhv olacaqlar.

Musa qaçmağa başladı. Tuba ağacından elə işıqlı nur çıxdı ki, alimlər an içində kül oldular. Musa günlərlə ağlayır, dua edib deyirdi:

- İlahi, mən seçilmiş alimlərlə geri qayıtmasam, mənim onları öldürdüyümü zənn edəcəklər, nə sənə, nə də mənə inanmayacaqlar.

Yaradandan vəhy gəldi:

- Onları dirildib sənə qaytardım! Alimlər dirildilər. Biz Allahı görmədik, işıq gördük, -deyərək qövmün yanına döndülər. Musəvi camaatı Musaya bir fahişədən şəhər cavanlarını yoldan cıxardığına görə şikayət etdilər və onun qətlinə fərman verməsini xahiş edirlər. Həzrəti Musa o qadını şəriət qanununa görə camaatın qarşısında mühakimə edir. Ondan soruşur ki, nə üçün cavanları yoldan çıxardırsan?

Qadın deyər:

-Allah məni belə yaradıb. Hər gün bir kişi ilə yatmasam, ölərəm. Cəzam nədir, onu edin. Mən dinin verdiyi hökmün əleyhinə deyiləm.

Musa deyir:

- Övrət, bu gündən şəhəri tərk et! Çünki biz yaratmadıq, biz öldürək. Allah bilər, sən bilərsən.

Qadın evə gəlir, pal-paltarını yığıb sübh vaxtı evdən çıxır. İki gün keçir, sübh vaxtı Musa peyğəmbərə vəhy gəlir:

- Ey Musa! O qadın ki, onu şəhərdən çıxartmışdın, evində ölüb, get onu camaatla yerdən götür, dəfn et?

Musa dedi:

- İlahi, məni bu sirdən agah et, mən qövmümə nə deyim?

Allah xitab etdi:

- Ey Musa! O qadın səhrada yol gedirdi. Bir su quyusunun başına gəldi. Orada susuz bir it var idi. Qadının susuz qalmış itə ürəyi yanır. Üzünü mənə-öz Rəbbisinə tutaraq deyirdi:

- İlahi, məni sən yaratdın, məni ədalətindən kənar etmə! Dünyada azuqəmi verən Sənsən, həqq Sənsən, Sən bilən və görənsən.

O qadın iti susuz görəndə paltarlarını soyunub uc-uca bağladı, quyuya sallayıb, hər dəfə bir ovuc quyudan su çıxardırdı. Suyu yerdə düzəltdiyi çalaya tökür, it də o sudan içirdi. Qadının quyudan qətrə-qətrə çəkdiyi sudan it tamam selab oldu, sonra üzünü göylərə tutub ulayaraq öz dilində Allaha minnətdarlığını belə ifadə etdi: "İlahi, mən bir həftə idi susuzluqdan yanırdım. Bu qadın məni su ilə

doydurdu, mən dünyada yanırdım, sən də onu cəhənnəm odunda yandırma!”

- Ya Musa, mən də o qadının günahlarını bağışladım. Behiştin qapılarını onun üzünə açdım. O, bağışlanmışdır. O qadın dumana düşüb yenə evinə gəldi, dincəlib şəhərdən çıxacaqdı. Onun canı alındı ki, yenə də günah edə bilməsin.

Həzrəti Musa bu əhvalatı danışıb, qövmündən ilk behişt əhlini dəfn etdi.

Musa bir dəfə Turi Sinaya gedəndə gördü ki, əlləri-ayaqları olmayan, güdül təndir kimi girdə bir kişi yol üstdə durub. O, Musa peyğqənbəri görüb dedi:

- Ya Musa! Allah qonaqlığına gedirsən, mənim də xahişimi de: “Mənə edilən zülmünü azaltsın, ya da mənim canımı alsın, ” bəlkə, rahat dolanam.

Hz. Musa Turi Sinada yolda gördüyünü Yaradana dedi. Allah Təala dedi:

- Ey Musa! Ona de ki, onun zülmünü və ömrünü artıracağam! Çünki o, insafsız adamdır.

Musa dedi:

- İlahi, onun əl-ayağı yoxdur, kimə nə edə bilər? Nə günahın sahibidir?

Yaradan Xaliq dedi:

- Onu yaşatmaq üçün qarışqaları qulluğuna göndərdim, ona qulluq edir. Onlar nar bağından nar dənələrini daşıyıb onun ağzına doldurur, ceyranlar gəlib əmcəyini onun ağzına verib əmizdi-

rirlər. O insafsız adam ceyranın südünün hamısını əmir, ceyranın balası ac qalır. Qarışqaya bir dənə nar giləsi zəhmət haqqı vermir. Ona de ki, zülmünün ömrü artdı. Cəhənnəmin qapıları açıqdır, onu gözləyir! O, insandı, amma kor bayquşca da yoxdur. Bayquş üçün hər gün üç sərçə ruzi vermişəm. Bayquşun yanına üç sərçə gələr, səhər birini tutub yeyər, günorta ikisi gələr, birini tutar, yeyər, axşama axırıncı sərçə gələr, onu da tutar ağzında saxlar, yeməz, buraxar, deyər: "Uç, nəslini artır, insaf deyil, bu gecə oruc tutaram, nəsil kəsmək mənə qalmayıb! Mən ki insan deyiləm, ədalətsiz şah deyiləm-- Allah haqqını, bəndə haqqını yeyəm.

Musa dedi:

- İlahi, mənim günorta yeməyimə nə yazılıb? Nə yeyəcəyəm?

Yaradan dedi:

- Sən bu gün fitrə yığan qoça qarının bişirdiyi sıyıq aşını yeyəcəksən, qarı ac yatacaq.

Musa oradan ayrılıb qol-qıçı olmayan kişinin yanına gəldi. Allahdan gələn vəhyi ona dedi. Kişi əllərini Allahın dərgahına qaldırdı. Münacat edib şükr-səna etdi:

- İlahi! Sənsən Həqq! Zülcəlali vəl ikram! Sənsən aləmlərin Rəbbisi! Mənim günahlarım heç bağışlanmaz, mən ki qul haqqını yemişəm, olduğum kahanı dar elə, əzabımı şədid elə, qarışqanın haqqını yedim, onlar mənim ətimi qopardıb yesinlər, qanı-

mı südə çevir, ceyran balaları gəlib əmsinlər, çəhənnəmdə mənə elə əzablı yer ayır ki, Harut və Marut asıldıqları yerə Cənnət desinlər. İlahi, məni əff elə! Məhəmməd əl-Müstəfa xatirinə! Sənsən bilən və görən!

Allahdan nida gəldi:

- Ey Musa! De ki, əff oldun! Məni tanıyanlar mərhəmətimdən barınarlar.

Musa oradan ayrıldı, meşə ilə yol gəlirdi. Yadına qarının sıyığı düşdü. Dedi:

- Mən o aşı yeməyəcəm. İnsan faili-muxtardır. İstəsə, yeyər, istəsə, yeməz. Aşı yeməyəcəyəm.

Birdən meşədən səs gəldi. Musa ağaca çıxıb gizləndi. Gördü bir atlı gəldi, atı ağaca bağladı. Süfrə açıb çörəyini yedi. Bulağın başında uzanıb yatdı. Musa istədi ağacdan düşsün, gördü meşədən yenə adam səsi gəlir. Yenə də ağaca dırmaşdı. Baxdı ki, gələn bir atlıdı, o da gəlib atı atın yanına bağladı. Yatan kişini görüb xəncərini çıxartdı, yatan adamın başını kəsdi, onun atını öz atının quyruğuna bağladı, çıxıb getdi.

Musa Əleyhissəlam ağacdan düşmək istəyəndə gördü, yenə meşədən səs gəlir. Yenə ağacın uca yerinə çıxdı. İki adam gəldi, başı kəsilmiş adamı görəndə, onlardan biri dedi:

- Oğlum, qaç kəndə xəbər ver, qürbətdən gələn filankəsin başını bulaq başında kəsiblər.

Oğlan kəndə qaçıb xəbər verdi. Əvvəl uşaqlar, sonra böyüklər gəlib ora çatdılar. İçərilərində həkim var idi. Meyidi yoxlayıb dedi:

- Qan istidir, qatil uzağa gedə bilməz, onu axtarın.

Hamı meşəyə dağılıb qatili axtarmağa başladılar. Bir nəfər bulaqdan su içirdi, ağacda oturan Musanın kölgəsini gördü, qışqırıb dedi:

- Qatil ağacda gizlənib.

Dedilər: "Düş aşağı, qatil!" Musa düşmədi. Ovçulardan biri kəmənd atıb Musanı ağacdan yerə yıxdı. Musanı o qədər döydülər, ağlı başından çıxdı. Qocalar gəlib çatanda gördülər döyülən peyğəmbərdir. Dedilər:

- Vurmayın, bu, adam öldürməz, bu, Musa peyğəmbərdir. Burada bir sirr var.

Həkim Musanı yoxlayıb dedi:

- Bərk əzilib, isti sıyıq aşı lazımdır, içirdək, bəlkə ayıldı.

Cavanlar kəndə qaçdılar. Tüstüsu çıxan bir daxmanı gördülər. Gəlib gördülər ki, qoca bir qarı sıyıq aşı bişirib. Ocağın üstündən götürüb yerə qoyur. Qazanı qarının əlindən aldılar. Dedilər:

- Ey qarı, peyğəmbər ölür, sən bu gecə ac yata bilərsən, biz peyğəmbərsiz qala bilmərik.

Aşı gətirib Musanın yanına çatdırdılar. Xəstənin ağzını zorla aralayıb ağzına haça keçirtdilər. Aşdan onun ağzına tökdülər. Musa ayılıb dedi:

- Verin, özüm yeyim.

Musa qalan aşın hamısını içdi. Ondan soruşdular:

- Bu nə sirdir, peyğəmbər adam öldürməz.

Musa dedi:

- Turi Sinadan gəlirəm, Allah Təala hər kəsin ruzusunu ayırmışam, demişdi. Mən də bu gün günortaya nə yeyəcəyimi soruşanda, aləmləri Yaradan tək Hakim mənə dedi ki, bu gün sənin ruzun fitrə ilə dolanan qarının bişirdiyi sıyıq aşı olacaq. Ancaq döyülüb zorla yeyəcəyimi deməmişdi. Şükür Yaradan Allaha, kimini zorla yedirdir, kimisə ac qoyur. Allah bilən və görəndir!

Allahdan Musaya nida gəldi:

- De! Ey Musa! O insan ki, öldürüldü, onu öldürənin atasını bu adamın atası otuz il qabaq öldürüb. On kisə qızılını və atını oğurlayıb aparmışdı. Qan batmaz. Oğrunu kişinin oğlu öldürdü, vərəsəsi olduğu atı və on kisə qızılı apardı. Təqdiri İlahini heç yaradılmış dəyişə bilməz.

Həzrəti Musa qövmü üçün yeni torpaq axtarırdı. Bir səhrada yol gedərkən Allahdan nida gəldi:

-Ya Musa! Dünya əzabından doymadın? Daha mənə gəl, zamanın tamamlandı.

Musa dedi:

- İlahi, mənim bir qızım var, çox körpədir. O necə dolanacaq?

Rəbbim dedi:

- Əsanı yerə vur!

Həzrət əsanı yerə vurdu, yer deşildi. Musa gördü ki, yerin yeddi qat dərinliyində daş üzərində bir qurd var, ağzında yaşıl yarpaq var.

- Nə gördün, ey Musa!?

Musa dedi:

- Bir qurd var, ağzında yarpaq yeyir.

Allah dedi:

- Ey Musa, yer altında qurdu görən tanrı, insanı, əlbəttə, görən, biləndi!

Həzrəti Musa səhrada yol gedirdi, gördü ki, üç nəfər adam qəbir qazır.

Soruşdu: “Kimə qəbir qazırsınız?” Onlar dedilər:

- Bir Allah sevən adama qəbir qazırıq.

Musa dedi:

- İcazə verin, mən də qazım. Allah adamının qəbrini qazmaq savabdır.

Qəbiri qazıb qurtarandan sonra Mələklərdən soruşur:

- Qəbir sahibi bu qəbrə sığarmı?

Mələklər dedilər:

- Elə sən boydadı, uzan qəbrə, görək sənin boyuna çatır?

Musa Əleyhissalam qəbrə uzanır. Yaradandan nida gəlir:

- Ey Musa! Bilirsənmi uzandığın qəbir kimin yeridir? O yer Şəfaəti-qiyamət, Şəhidi- Kərbəla, sənin qızının soyundan gələn Əşrəfi-Kainat Xatəm

ül-Ənbiya Məhəmməd əl- Müstəfa balası Hüseynin torpağıdır! Qızın mənə əmanətdir. Mənim tərəfimə gəl!

Musa münacatında deyir:

- Allah! Şükür sənin Allahlığına. Mənim soyum Qiyamət günü mənə nicat verənlərdən olacaq!

Həzrəti Əzrayıl Behiştdən gətirdiyi almanı ona qoxladıb öz qazdığı qəbirdə canını alır!

***SƏDƏQƏLLAHU ƏLİYYÜL ƏZİM !***

# TAHA

Bir gün Həzrəti Suleyman səyahətə cıxmışdı. Gördü ki, qarışqa sürüsü ipə düzülmüş mirvari kimi, sıraya düzülüb tələsə-tələsə cəkilərindən ağır çəyirtkə budlarını yuvalarına daşıyırlar. Ana qarışqa onları tələsdirərək deyir:

- Tez olun, yuvalarınıza girin!

SULEYMAN Peyğəmbər bu halı görüb dedi:

- Ey qarışqa! Nə səbəbə məni görüb qarışqaları yuvalarına yığırsan? Sən kiçik bir canlısan. Özünüzdən ağır işlər görürsünüz. Mənə öz həyatınızdan danış. Mən də sizin həyat tərzinizi bilim.

Qarışqa dedi:

- Biz nizam-intizamlı, işgüzar bir varlığıq. Başqa canlılar kimi heç yatmarıq. Hər qarışqa öz çəkisindən beş dəfə ağır yük daşıyar. Dayanmadan yaradana şükür edərik. Səcdəmizdən qalmarıq. Həm də çox qənaətkar məxluquq. Məsələn, bir buğda dənəsini yeddi ilə yeyə bilərik. Biz səxavət, ədalət, sahibləriyik. Biz də SULEYMAN deyilik ki, insanların, heyvanların, quşların, cinnilərin haqqını yeyib, dünya eyş-işrətinə başımız qarışa, Axirət gününü yadımızdan cıxardanlardan olaq.

SULEYMAN PEYĞƏMBƏR dedi:

- Ey qarışqa! Məni tanıyırsan?

Qarışqa dedi:

- Məni ovcuna al, deyim.

SULEYMAN əyilib qarışqanı əlinin içinə aldı, gözünün qarşısında tutdu. Qarışqa dilə gəldi:

Ey ALLAHIN buyurduqlarını yerinə yetirən, Talut Peyğəmbərin qızından olan, Davud Peyğəmbərin oğlu Suleyman peyğəmbər! Sən dünya peyğəmbəri, şahlar şahısan! Mən isə kicik qarışqa! Mənim məqamım sənin məqamından ucadır!

Hz. Suleyman dedi:

- Necə məndən uca məqam sahibisən?

Qarışqa dedi:

- Sənin nəzarətin altında olan yerlərdə bir qarışqa acından ölərsə, ya kiminsə zülmünə düçar olarsa, onun qanı sənin boynuna gəlir. Mənim məqamım ucadır, ONA GÖRƏ Kİ, mən indi həm peyğəmbər, həm də şah əlində durmuşam. Sənsə nahaq qan axıdan insanların durduğu torpağın üzərində durmusan.

Həzrəti Suleyman fikirli-fikirli qarışqadan ayrılmışdı ki, gördü bir sərçə ağac budağında oturub. Başqa bir sərçə də ucub quşun sağına-soluna dolanır, quşa eşq elan edib deyir:

- Ay qız, sənə qarşı sevgim tükənməzdir. Səni o qədər sevirəm ki, əgər mənə könül versən, mülkü Suleyman ı sənin ayaqlarının altına sərərəm.

Dişi quş isə etiraz səsilə deyir:

- Yox! Səni sevə bilmərəm. Sən iki qəlblisən. Özün də üçüncü növ kişisən!

Həzrəti Suleyman dedi:

- Ey quş! Mənim mülkümü dişi sərçəyə peşkəş edirsən. Quş sənə könül versə, mülkümü quşa hədiyyə edə biləcəksənmi?

Erkək quş dedi:

- Bəli, verərəm. Çünki sən əbədi deyilsən, bu gün varsan, sabah yoxsan. Sən öləndən sonra vərəsələrin bir-birini qıracaq. Əslində o, bizimdir. Tikdiyin binanın alt mərtəbəsində siz olursunuz, üstündə biz! Bizim də vərəsə haqqımız var. O binanı Bulqeysi almaq ücün tikən zaman dimdiyimizdən, dırnağımızdan olmuşuq. Bu işdə hələ bizi də keçmisən. Səkkiz yüz arvad bizə görə coxdur, maşallah, kişi belə olar!

Həzrəti Suleyman dişi quşa dedi:

- Sən bu quşa niyə könül vermirsən?

Quş dedi:

- Ey SULEYMAN ! Kişilər üc növ olar. Birinci növ kişi papaqlı kişidir. O, qeyrətli, namusunu qoruyan, səbirli, ailə qədri biləndir. İkinci kişi qarın kişisidir. Qarnını doydur, ipi at boynuna, hara istəsən, gedər. Namus bilməz, qeyrət bilməz, arvad bilməz, uşaq bilməz, ortada yeyər, ucda gəzər. Üçüncü növ kişi yorğan kişisi olar. Evdə xoruz, çöldə toyuq olar, bu erkək sərçə kimi! Ey Suleyman peyğəmbər! Sənin on yeddinci baban İBRAHİM XƏLİLULLAHIN xalası oğlu LUT PEYĞƏMBƏRİN qövmünə oxşayır, lutidir. LUT

Peyğəmbərin şəhərini viran qoyan ALLAH belə kişiləri də öz bəlasına gətirsin!

### *HƏZRƏT SULEYMAN sərçələrin söhbətindən heyrətlə ibrət dərsi aldı.*

## *HƏDİS*

Bir gün Suleyman Peyğəmbər uçan xalçasına minib dünya səyahətinə çıxmışdı. Bir səhra üzərindən uçarkən xalça yerə enir. Hz. Süleyman xalçadan soruşur:

- Nə səbəbdən icazəsiz yerə düşdün?

Xalça dil açıb deyir:

- Ey Suleyman! Mən bir əl içərisində qərar tuturam, o əl bu yerdən keçərkən biixtiyar olur. Məni gəzdirən əlin sahibi bu yerdə o qədər ağlayır ki, axırda bihuş olur. Onunla bir yerdə ağlayan mələklər onu göylər aləminə aparırlar.

HƏZRƏTİ SULEYMAN əllərini ALLAH dərgahına qaldırıb deyir:

- İlahi! Bu nə sirrdir ki, sənə məlumdur. Məni bu sirrdən agah et!

ALLAHDAN nida gəlir:

- KAF HA YA EYN SAAD! Ya Suleyman, agah ol! Zaman gələcək, o yerdə, haqq əleyhi batil, elə müsibət olacaq ki, yerdən göylərə açılan qapılar, məlakələrin üzünə qapanacaq! ƏŞRƏFİ KAİNA-

TIN QIZI FATİMƏNİN OĞLU HUSEYN ŞƏHADƏT mərtəbəsinə çatacaq! Bax gör, o neynəva çölünə!

Həzrəti Suleymanın bəsarət gözünü yaradan XALİQ AÇDİ! Nə qördü? Müsibəti KƏRBÜ-BƏLANI! Müsibəti Kərbəlanı görən Suleyman dizə çöküb səcdəyə düşdü. Ağladı-ağladı, huşdan getdi. Huşa gəlib dedi:

- Pərvərdigara! Mən bir qarışqa qabağında aciz qalan, sərçədən elm öyrənən aciz bəndənəm. Bilirəm, mənə dünya şahlığı verdin! Ömür qısa, zaman uzun. Mənim ömrüm çatmaz, o müsibəti görəm. Bir övladım yoxdur. Olsaydı, o uşağın nəslindən biri o müsibəti görüb ağlasaydı, bəlkə Qiyamət günü onun şəfaətindən mənə də şəfaət olardı!

ALLAHDAN nida gəldi:

- Ey Suleyman ! Əgər sənə övlad versəm, o müsibəti görsə və ağlasa, fani dünyada mənə nə verərsən?

Suleyman dedi:

- Ya RƏBBİM! Peyğəmbərliyimdən və şahlığımdan imtina edirəm. Mə-nim qəbrimi nə PEYĞƏMBƏR KİMİ, nə də şah kimi ziyarət etsinlər.

RƏBBİMİZ dedi:

- Ey Suleyman ! Axıtdım HÜSEYNİN qanını, sənin qanından! Olacaq bir oğlun Bulqeysdən! Onun soyundan gələr şəhidi KƏRBƏLA!

Müjdə aldı Suleyman !

***YARADAN, RƏHİM, ƏLİM, ƏZİM, ADİL, QADİR OLAN XALİQİ RƏHMANDAN!!!***

***SƏDƏQƏLLAHU ALLİYYUL ƏZİM !***

# HEKAYƏT

Bir gün şərab içən bir nəfər kişi Allah Rəsulunun yanına gəlib ona şikayət etdi. Dedi:

- Ey Allahın Rəsulu! Mənim ata-babam şərab içən olub, mənə şərab içməyi də onlar öyrədib. Mən şərab içmədən qala bilmirəm. Şərabı nə üçün haram buyurmusan. Mənə sübut elə ki, şərabın kimə zərəri var?

Həzrəti Məhəmməd şərab içənə bir ünvan verib dedi:

- Bu ünvana get! O evin sirrini öyrən. Bizi Yaradanın şərab içməyi nə səbəbə haram etdiyini anlayacaqsan.

Şərab içən adam Allahın Rəsulunun dediyi ünvanı axtarıb tapdı. Qapını döyub, ev sahibəsindən o evin sirrini öyrənmək üçün gəldiyini dedi.

Ev sahibəsi kişini evə dəvət edib dedi:

- Mənim sirrimi öyrənmək üçün əvvəl evin içərisində olan meyiti aparıb dəfn etmək lazımdır. Sonra sirrimi deyərəm.

Kişi gözü yaşlı qadının dediyini yerinə yetirir, yenə o qadının yaşadığı evə gəlir. Qadından soruşur:

- Dəfn etdiyim meyit kimdir və sən hansı sirr sahibisən?

Qadın dedi:

- Zəlzələdə ata-anamız ölmüşdü. Mənim qardaşım var idi. Məndən ötrü canın fəda etməyə hazır olan qardaşım bir gecə evə sərxoş gəldi. Sərxoşluq ona elə güc gəlmişdi ki, heç özündə deyildi. Özü də hiss etmədən üstümə cumdu. Nə qədər çalışdımsa, yaxamı əlindən qurtara bilmədim. O gecə doğma qardaşım məni zorladı. Səhər ayılanda mənim üz-gözümün cırmaqlanmış, özümü ağlar görən qardaşım soruşdu:

- Ey sevimli bacım! Nə üçün ağlayırsan? Saçlarını niyə yonursan? Səni kim ağlar qoyub? De mənə.

Mən deməl istəmədim. Çox sorğu-sual etdi, əl çəkmədi, axır axşamki əhvalatı ona danışdım. Qardaşım xəncəri çıxartdı, məni zorladığına görə ürəyinə soxub özünü öldürdü. Günlər keçdi, qardaşımdan uşağa qaldım. Uşağı doğub boya-başa çatdırdım. Sən dəfn etdiyin oğlan qardaşımın oğlu idi. O da atası kimi bir gün evə sərxoş gəlib məni zorlamışdı. Səhəri gün o da anasını zorladığını öyrənib özünü öldürdü. Mənim sirrim bu idi ki, sən də gəlib mənim sirrimə şərik oldun.

Allah Rəsulunun sirr öyrənməyə göndərdiyi şərab içən kişi qadını özünə ailə etdi və bir daha şərab içmədi. Şərabın haram olmasını qəbul etdi !..

## TƏMSİL

Bir gün eşşəklə at söhbət edirdilər. Eşşək ata deyir:

- Ay at qardaş! Nə üçün bizim sahibimiz məni tərs minir? Qarnıma dabanları ilə döyür, hələ azmış kimi, dərimi bizləyir. Özümə də qanqal yedirdir? Mənim yemim qanqaldır, sənin yemin arpa.

At deyir:

- Sən bisavadsan, iki hərf tanıyırsan, deyirsən: İii, Aaa! Yəni, İnsan, aman! İnsan, aman! Mən isə savadlıyam, dörd hərf bilirəm: R, r, Uu. H, i hi, . H, i hərflərini səsləndirməklə belə deyirəm: Rəbbim! Utanıram heyvanlığımdan! Oxusaydım, insan olardım! Oxumadım, at oldum! Yenə də şükür savadıma! Savadıma görə arpa yeyirəm. Sənin kimi savadsız olsaydım, mənə də qanqal yedirdərdilər! Vəssalam!. . .

*I HƏDİS*

# SULEYMAN PEYĞƏMBƏR HAQQINDA HEKAYƏLƏR

## *I hekayə*

Fərziyyələrə görə Həzrəti SULEYMAN şahlıq etdiyi zamanlarda hər il on gün gedib Bermud üçbucağında dincələrdi. Cinlərə tikdirdiyi sarayda qalardı. Ora getdiyi vaxt tufanların başladığı, tufanın şiddətindən suyun fırlana-fırlana yer altına axan vaxtı ildırım çaxmasından dəhşətə gələn Hz. Suleyman qorxusundan bir ildə yığdığı ətini töküb bir dəri-bir sümük olardı. Ora cinlər, ifritlər diyarıdır. Cinlərin, ifritlərin qəzəbinə tuş gələnlər orada həbs olunurdular. O yer okeanda yerləşən üçbucağa bənzər adalardan ibarətdir və Yer kürəsinin qara qapısıdır. O qapı açılanda sular axıb yerin qarnına daxil olur. Yer qabığı altından yeraltı çaylar (ceyhunələr) axıb gedir. Yerin nüvə qatından qalxan, üç-beş min dərəcədə olan qaynar lavaları soyudur. Həmçinin, yerüstü torpaqları soyudub, yenidən dağlardan, dənizlərdən axıb isti halda okeanlara qayıdır. O adalar Hz. NUHUN tufanı zamanı yaranıb. NUH haqqında danışarkən quyunun necə yaranmasını açıqlamaq yerinə düşərdi.

## *HAŞİYƏ : QUYUNUN SİRRİ BİSMİLLAHİR RƏHMANNİR RƏHİM (ALLAH RƏHMAN, RƏHİM, BAĞIŞLAYANDIR!)*

Suleyman peyğəmbər şahlıq etdiyi şəhərin gecələr qorunması üçün gözləri iti görən quşlardan şəhər gözətçiləri ayırmışdı. Bir gecə növbə hud-hud (şanapipik) quşuna çatdı. Hz. Suleyman quşu yanına çağırıb sual-cavab edərək deyir:

- Ey şanapipik, sənin hissiyatın necədir, gözlərin nə qədər uzağı görür?

Quş dedi:

-Ya peyğəmbər, yer altında axan çayların, çeşmələrin səsini eşidirəm. Yer dairəsinin on beş dərəcəsini görə bilirəm.

Hz. Suleyman şanapipiyin fərasətinə təəccüblənib soruşur:

- Ayağımızın altında nə görürsən?

Quş dedi:

- Ya Suleyman, sənin ayağının altında bir küp qızıl, üç küp gümüş var. Mənim ayaqlarımın altında iki zəhərli ilan var.

Hz. SULEYMAN mühəndis ifritləri çağırıb əmr etdi ki, hər iki yeri qazsınlar. İfritlər yeri qazıb qızıl-gümüşü çıxartdılar. Quşun fərasətini görən Hz. Suleyman gecə şəhəri qorumağı şanapipiyə

tapşırdı. Quş öz işini görməyə başladı. Həzrətin yuxusu gəlmədi. Durub şəhəri gəzməyə çıxdı. Baxdı ki, quş şəhərdə yoxdur. Quşlara onun tapılması üçün əmr etdi. Dedi:

- Kim onu tapıb gətirsə, tapdığınız yerdə onun tuklərini yonub lüt mənim qəbuluma gətirərsiniz!

Şahin quşu şanapipiyi tutdu, istədi onun tüklərini yonsun, şanapipik dedi:

- Mənim tüklərimi yonma. Suleyman a elə şad xəbər gətirirəm ki, hələ sənə də hədiyyə verəcək.

Şahin quşu onu Suleyman ın yanına gətirdi. Hz. Suleyman şahindən soruşdu:

- Nə üçün şanapipiyin tüklərini yonmamısan?

Şahin quşu dedi:

- Sənə şad xəbər gətirdiyini dedi, qorxdum ki, yonsam məni cəzalandı-rarsan.

Hz. Suleyman şanapipikdən soruşdu:

- Niyə şəhəri sahibsiz buraxıb getmisən?

Şanapipik dedi:

- Ya Suleyman, şəhərin ətrafına dolanıb gəzirdim. Gördüm hər yerdə sakitlikdir, heç tərəfdən şəhərə bir təhlükə yoxdur. Uçuş sahəmi genişlətdim, nə oldusa, ondan sonra oldu. Uçarkən dağların arasında bir şəhər gözümdən qaçmadı. Şəhərə daxil oldum. Şəhərin ən görkəmli binasını seçdim. O binanın kiçik bir pəncərəsindən gələn səs diqqətimi çəkdi. Pəncərəyə qondum. İçəridə olan şeylərə tamaşa edirdim. Otağın içərisi gözəl bəzə-

dilmişdi. Otaqda gözəl bir qız dizi üstündə oturub aya sitayiş edir və deyirdi:

- Ey Allahım Ay! Mənim dövlətimi SULEYMAN IN bəlasından qoru. Məni sevə biləçək bir kişi qismət et ki, yuxumda gördüyüm kişi olsun.

-Ya Suleyman , qız elə gözəl idi ki, ağlımı başımdan almışdı. O qız otaqdan çıxandan sonra huşum özümə gəldi. O qızda heç bir qüsur yox idi. Ancaq onun baldırları tüklü idi. Qız dünya gözəlidir. Sənin arvadlarından ona tay olanı yoxdur. O qız dağlıq yerlərin şahıdır, adı BULQEYS DİR. Məndən deməkdir, qalanı sənə qaldı.

Hz. Suleyman dedi:

- Məktub verim, Bulqeysə apar, cavabını da al, gətir.

Quş məktubu alıb Bulqeysin sarayına tərəf uçdu. Suleyman ın məktu-bunu Bulqeysin quçağına atdı. Bulqeys məktubu oxudu. Məktubda yazıl-mışdı: ”İNNƏHU MİN SULEYMAN Ə! BİSMİLLAHİR RƏHMANİR RƏHİM!”

Bulqeys təəccüb etdi, bir şahın elçisi quş olarsa, demək, onun qüdrəti böyükdür. Suleyman a cavab yazıb üç şey istədi:1-ci, mənə elə su göndər, nə yerdə olsun, nə göydə. 2-ci, üzüyümü göndərirəm, onu deşərək içərisindən sap keçirt və uc-uca bağla. 3-cü, mənə elə ev tikdir ki, mənim indiki evimdən

fərqli olmasın, içərisində olan əşyalar və taxt-tacımla eyni quruluşda olsun.

Məktubu hud-hud quşuna uzatdı. Quş üzüyü boynuna keçirtdi, məktubu caynağına alıb Suleyman mülkünə gəldi. Hz. Suleyman məktubu oxuyub dəmir qurduna əmr etdi ki, üzüyü deşsin. Sapı qarışqaya verib qurd deşən deşikdən keçirtdirdi və uc-uca düyünlətdi. 2 at mehtərini atlara mindirib qovdurdu, atların tərini yığdırıb şüşəyə doldurtdurdu və qıza göndərdi. Üzüyü şanapipik boynuna keçirtdi. Suyu da Şahin quşu boynuna keçirdib Bulqeysin sarayına gətirdilər. Qız suya baxib gördu ki, at təridir. Üzük isə deşilib, ip keçirdilib, uc-uca düyünlənib. Qız dedi:

- Binanı hazır etsin, sonra mənə sahib olar.

SULEYMAN PEYĞƏMBƏR ifritləri çağırıb BULQEYSİ və onun evini gətirməyi əmr etdi! İfritlər dağlar şəhərinə gəlib, Bulqeysi yuxuda bihuş etdilər, binanın altını qazıb çiyinlərinə aldılar. Suleyman ın sarayının qarşısında yerə qoydular. Ətafına Bulqeysin sarayının ətrafından çıxardılmış ağacları əkərək Bulqeysin sarayının eyni halına oxşatdılar. BULQEYS yuxudan ayılıb gördü ki, onun binasının qarşısında bina tikilib. Saray işçilərini çağırıb soruşdu:

- Bir gecənin içində mənim binamın qarşısında əzəmətli binanı tikən kimdir?

Saray işçiləri dedilər:

-Bulqeys xanım! O bina quş dimdiyindən tikilən "SULEYMAN" məbə-didir. Bu bina var idi. Sənin binan burada tikilib.

Bulqeys gördüklərindən heyrətlənərək dedi:

- Sənin dinini qəbul etdim, ya Suleyman ! İllərlə yuxumda gördüyüm, mənə layiq kişi sənsən!

Hz. Suleyman peyğəmbər mühəndisləri çağırıb şüşə ixtira etmələrini tələb etdi. Dünyada o vaxtacan hələ məlum olmayan "vacibini", yəni nuranı hazırlatdı. Sonra Bulqeysi sarayına çağırtdırdı. Suleyman sarayın içərisini qazdırıb ora su doldurtmuşdu. Suyun içərisinə diri balıq buraxdırmışdı. Suyun üzərinə şüşə çəkdirmişdi. Bulqeys saraya daxil olanda suda balıqları görub dedi:

- Mən suda boğularam, ora necə gəlim?

Hz. Suleyman dedi:

- Mənə yaxın gəl! Mənə inananlar suda boğulmaz. Bulqeys ətəyini yuxarı çəkə-çəkə Suleyman a tərəf yeridi. Suleyman gördü ki, quşun dediyi doğrudur. Qızın baldırları tüklüdür. Hz. Suleyman qızı geri qaytarıb dedi:

- Get səni çimizdirsinlər, sonra gəl. Bu gündən mənə qadın olacaqsan.

Qız hamama getdi. Vacibini bədəninə çəkdilər, bədəninin tükü töküldü. Bulqeys on ildən sonra su tuluğu içində oğlan uşağı doğdu. Uşaq on yaşına

çatanda MƏLƏKİL MOT - yəni “ƏZRAYIL” (ONA SALAM OLSUN!) Suleyman a dedi:

-Mən sənin KƏRBƏLADA verdiyin vədə görə iyirmi beş il ALLAH tərəfindən uzadılmış canını almağa gəldim! Mən heç kimə artıq zaman verməərəm, ancaq sənə son söz verəcəyəm.

Hz. Suleyman dedi:

- Mənim canımı sarayın ortasında alarsan. Canımı elə alarsan ki, daş kimi quruyum, məni sarayda görənlər elə bilsinlər ki, mən diriyəm. Əgər məni ölü bilsələr, yuz il əsir etdiyim palaz- qulaq divlər üsyan edər, qaf dağında sehirlənmiş, lehimlənmiş hasarı yıxarlar, insanları yeyib yer üzündən silərlər. Həm də mənə iman gətirməyən Nəsnas cinniləri var, divlər, ifritlər, al pəriləri, Şəyatinə tabe olan başqa ifritlər var. Oğlum şah olana qədər, mənim ayaq üstündə qalmağıma ehtiyac var.

Doğrudan da, Əzrayıl SULEYMAN IN canını sarayın ortasında qəbz etdi. İyirmi il əsasını çənəsinə söykəmiş halda ayaq üstündə dayandı. ALLAH TƏALANIN onun əsasının içərisində xəlq etdiyi taxtaqurdu ağacın özəyini yeyib qurtarmışdı. Ağac qırıldı, Suleyman ın quru cəsədi yerə dəydi. Hz. Suleyman ın cinnidən olan iki arvadı Suleyman ın cəsədini götürüb cinnilər diyarı olan Bermut üçbucağındakı Suleyman sarayına apardılar. Oradakı taxtının üzərinə uzatdılar. O

gündən sarayın qapısı ağzında dayanıb onu ziyarət etməyə heç yaranmışlara icazə vermirlər. Adaların arasında yeri soyudan quyu var. O quyudan okeanların suyu axaraq yeraltı hərarəti soyudur, suyun sürəti o qədər güclüdür ki, ora yaxınlaşan gəmilər yerin altına gedir. Su burulğanının gücündən hava burulğanı yaranır, havada uçan hər nə varsa, onu da sorub yerin qapısından yerin altına ötürür.

## *SALAMULLAHİ HÜSEYNİ ŞƏHİD*
### *və Lənətullahi yəzidi pəlid !*

## *HEKAYƏT*

Bir gün BƏHLUL DANƏNDƏ qardaşı HARUN ƏR-RƏŞİDƏ beş dirhəm pul verib deyir:

- Pulu xəzinəndə saxla, qorxuram itirəm, ancaq haçan istəsəm, pulumu qaytaracaqsan.

HARUN ƏR-RƏŞİD pulu xəzinəyə qoyur. Bir gün BƏHLUL qardaşı HARUNLA hamama çimməyə gedəndə özü ilə dəyənək götürür. Çimdikləri vaxt Bəhlul Haruna deyir:

- Pul lazımdır, mənim pulumu ver.

Harun deyir:

- Lüt adamda pul olar? Hamamdan çıxandan sonra pulunu verərəm.

Bəhlul dəyənəyi götürüb Harunu döyür. Tez-tez deyir: “Pulumu ver!” Harun deyir:”Hamamda pulu hardan tapım?” Bəhlul deyir:” Hamamda mənim pulumu verə bilmirsən, dünyada ibadətin yox, ədalətin yox, bu qədər camaatın haqqını qəsb edibsən! Qiyamət günü necə qaytaracaqsan?”

***DƏLİDƏN DOĞRU X Ə B Ə R!!***
***ALLAN BƏHLUL DANƏNDƏYƏ RƏHMƏT ETSİN ! RƏHİMƏLLAHU-MƏN-ADƏƏL FATİHƏH !!***

## SIMURQ QUŞU

Həzrəti Suleyman bir dəfə adəti üzrə ona tabe olan canlıların padşahlarını bir yerə yığıb moizə edirdi. Söhbət əsnasında dedi:

- Mənə bizi yaradan Allahdan vəhy gəlib ki, hind şahının qızının taleyi çin şahının oğluna yazılıb, onlar evlənib, SAM övladlarının dövlətlərini birləşdirərək vahid dövlət quraçaqlar. Allah onların qədərlərinin belə olmağını xəbər verib. Allah yazısını heç kim poza bilməz.

O məclisdə quşlar şahı Simurq quşu da var idi. Simurq quşu öz-özünə dedi: “Mən bu qədəri pozacağam.”

Quş uçub yaşadığı Qaf dagına gəldi. (Himalay, və ya Sərəndib dağı) Bir gun Simurq Hind şahının

sarayının yaxınlığına gəlib qızı güdməyə başladı. Qız saray bagına gəzintiyə cıxanda onu caynağına alıb Qaf dağına gətirdi. Quş insan dilində danışıb qıza dedi:

- Sənə heçnə etməyəcəm, səni bir gün insan içərisinə qaytaracağam. Səbr elə! İndi isə insanlar nə ilə qidalanır, mənə de, hər həftə sənə yemək gətirəcəyəm.

Qız yeməkləri dedi, quş da onları gətirməyə başladı. Çin şahının oglu isə ova cıxmışdı, qatı dumana düşmüşdülər. Ovçuların qabaqlarına ceyran sürüsü çıxdı. Şahzadənin dəstəsi ceyranların ardına düşdü. Hər kəs bir ceyranın ardınca at sürdü. Axır ki, Şahzadə adamlarından ayrılıb azdı. Gəlib qız olan qayaların altına cıxdı. Şahzadənin atı yol qaçmaqdan xəstələnib öldü. Şah oglu fıkirləşirdı ki, nə etsin? Qız da qayalardan aşağı baxırdı. Gördü dağdan aşagı bir insan görünür, sevindi! Öz-özünə dedi: “O insan burada olsa, darıxmaram. Qız əl işarələri ilə oğlanı çağırdı. Şahzadə gördü dağın başında bir qız var, təəccüb etdi. O qız dağın başına necə çıxıb? Qız əl işarəsi ilə oğlana dedi:

- O atın qarnını yırt, içini boşalt, içinə gir və içəridən tik. Səni quş vasitəsi ilə yanıma gətirdəcəyəm.

Oğlan qızın işarələrini başa düşdü. Onun dediyi kimi etdi. Həmin gün simurq quşunun qıza yemək gətirdiyi gün idi. Quş qıza yemək gətirdi.

Qız quşa dedi:

- Aşağıda görünən nədir?

Quş dedi:

- O, insanlar minən heyvandır, onlar ona at deyirlər, orda ölüb.

Qız dedi:

- Məni bura gətirəndə uşaq idim, sənin caynaqların məni əzmişdi, az yeyirdim. İndi böyümüşəm, mənim yeməyimi çox gətir ki, mənə bəs etsin. Həm də o atı buraya gətir, ona baxıb insanların iyini ondan alım, bəlkə darıxmayam.

Quş dedi:

- Nə desən onu edəcəyəm. Zaman gələcək, səni Suleyman ın yanına apa-racağam, deyəcəyəm ki, Allah yazanı mən pozdum! Mən hər şeyə qadirəm.

Quş atı gətirib qız olan mağaranın qabağına qoydu və uçub getdi. Qız atın qarnını söküb oğlanı oradan çıxartdı. Onlar başlarına gələn əhvalatı bir-birinə danışdılar, bir-birini tanıdılar. Quş hər ildə iki dəfə tük tökərdi. Onlar da o tüklərdən daşıyıb mağaraya doldururdular, öz yatacaqlarını düzəldib eyş-işrətlə məşğul olurdular. Hər il onların bir uşağı oldu. Üç uşaqları olmuşdu. Özlərini dünyanın ən xoşbəxt adamı hesab edirdilər. Yenə də Həzrəti Suleyman quşların şahları onun qulluğunda olarkən talelər haqqında danışırdı. Simurq quşu Suleyman peyğəmbərə dedi:

- Ey Suleyman! Dörd il bundan qabaq demişdin ki, Çin şahının oğlu hind şahının qızını alacaq. Qızı o vaxt mən götürüb Qaf dağının əlçatmaz zirvəsində saxlayıram. Oğlan isə ova çıxanda azıb, qurd quşa yem olub. Nə oldu, dediyin olmadı?

Suleyman dedi:

- Gələn həftə qızı gətir, sübut elə! Sübut etməsən, insanlardan üzr dilə, bir daha onların gözünə görünmə.

Quş Qaf dağına gəlib qıza dedi:

- Gələn həftə səni Suleyman peyğəmbərin hüzuruna aparacam.

Qız dedi:

- Məni bura gətirəndə cox qorxmuşdum, bir səbət toxuyum, girim icinə, səbəti götür, apar.

Quş razı oldu. Qızla oğlan, üzüm çubuqlarından səbət toxuyub uşaqları ilə birlikdə səbətin içinə girdilər. Quş gəlib qıza səsləndi: “Uçuşa hazırsan?”

Qız dedi:

- Bəli, səbətdəyəm.

Səbəti quş caynağına alıb Həzrəti Suleyman hüzuruna gətirdi. Suleyman qızı öz adı ilə çağırdı! Qız səbətdən səslənib dedi:

- Ya Suleyman! Mən tək deyiləm, mənim ərim və üc uşağım var. Onlar çıxarsa, çıxaram.

Suleyman dedi:

- Beşiniz də çıxın!

Qız və əri, üç uşağı ilə səbətdən çıxdılar. Həzrəti Suleyman dedi:

- Xaliq yazısını məxluq poza bilməz!

Simurq dedi:

- Ya Suleyman ! Bir daha insanların gözünə Qiyamət gününə qədər görünmərəm.

O gündən simurq quşu min il ömür edər, iki yumurta qoyar, cücələr yumurta icərisində cükküldəyəndə ata-ana quş cücələrinin səsini eşidib özlərini qayalara çırpıb öldürərlər. Simurq quşu qiyamətədək bala üzü görməz.

***SƏDƏQƏLLAHU ƏLİYYÜL ƏZİM,***
***ALLAHU ALƏM***

# CƏRCİZ PEYĞƏMBƏR

Həzrəti Cərciz peyğəmbər İsmayıl peyğəmbər soyundan gələn türk dilli mürsəl peyğəmbərdir. O, Şam hökmranlığı zamanında, təkallahlığın vüsət tapdığı dövrdə Allah vəhyi ilə göndərilmiş risalə sahibidir. Dəfələrlə Şam şahı tərəfindən öldürülüb, yenə Allahın qüdrəti ilə dirilmiş, əzəmətli, bəyənilmiş peyğəmbərdir. Allah Təaladan Cərciz peyğəmbərə vəhy gəlir:

-Ey Cərciz! Şam şahını Allahı tanımağa dəvət et!

Həzrəti Cərciz Şama gedir. Şahın sarayına daxil olur. Şahı atəşpərəstlikdən uzaqlaşıb, Allahı tanımağa, iman gətirməyə dəvət edir. Şah peyğəmbəri zindana saldırır. Onun azabla öldürülməsini əmr edir. Onu öldürmək üçün dəmir dişli məngənə düzəltdirir. Peyğəmbəri məngənənin içərisinə qoydurub sıxdırır. O qədər sıxdırır ki, kağız halına düşür. Sonra gön kimi qurutmağı əmr edir. Aallah Təaladan canlandıran məlaikəyə nida gəlir:

- Dirilt mənim dostumu!

Fəsmail Məlaikə yerə təşrif gətirir. Həzrəti Cərcizi yenidən canlandırır, əvvəki halına gətirib deyir:

- Ey Allahın elçisi! Sənə müjdəm var! Yaradan səni bəyənilmiş peyğəmbərlərdən qıldı.

Cərciz dedi:

- And olsun yaradan Tanrıya! Min dəfə öldürülsəm, Allahın şəriksiz varlığını tanıtdırmağa cəhd edəcəyəm.

Şah onun dirilməyinə təəccüb edib dedi:

- Cərciz sehr eləyir. Ey ölkənin böyük sehrbazları, Cərcizi elə sehrləyin, onu əzabla öldürün!

Sehrbazlar qırx gün sehr elədilər! Heyvan üzərində edilən sehrlə özləri od tutub yanaraq kül oldular. Hazrəti Cərciz yanıb ölən sehrbazların külünü yığıb öldürülən öküzün ağzına tökdü, öküz dirilib asqırdı, sehrbazlar öküzün ağzından tökülüb dirildilər. Onlar Cərciz peyğəmbərin ayağına düşüb səcdə etdilər. Dedilər:

- Sənsən Allahın Rəsulu! Sənin Allahına iman etdik! Haqq sənin Allahındır. Tövbə edirik, bu günə qədər onu tanımadıq, odur Yaradan!

Həzrəti Cərciz şah tərəfindən yenə də ölümə məhkum edildi. Onun başını kəsdirib, bədənini tikə-tikə doğratdırdı. Zeytun yağına tökdürüb, qazanda qaynatdırdı. Altında od yandıraraq kəndbəkənd gəzdirtdirdi. Cərcizi yağda qaynadanlar deyirdilər:

- Oda Allah deməyənin cəzası belə olacaq. Cərcizdən ibrət götürün!

Qaynanmış yağı axar çaya damcı-damcı axıtdılar. Axar cayın aşağısından su götürənlər deyərdilər: “Böylə insan qanı olar?” O gündən kəndin

adı “Böylə qan” adlanır. Beyləqanın üç min il yaşı var.

Yenə də həzrəti Mikayıl yer üzərinə göndərildi. Cərcizi diriltdi. Həzrəti Mikayıl dedi:

- Ey Cərciz! Səbr et! Səbr edən Allahın dostudur.

Camaat dedi:

- Doğrudan, Cərciz Allahın Rəsuludur.

Həzrəti Cərciz şaha dedi:

- Sən atəşi Allah bilirsən. Allah aləmləri yaradan, görən və biləndi. Ona iman gətir.

Şah iblisə aldanıb Həzrəti Cərcizi oda atdırdı, yandırıb kül etdirdi, mis əritdirib Cərcizin qolunu qaynar misə qatdırdı, mis soyuyub böyük külçə halına düşdü. Şam şahı Cudi sevinə-sevinə ata minib getmək istədi. At onu belindən yerə vurdu, başını gəmirib öldürdü, cəhənnəmə vasil etdi.

O zaman İsrafil əleyhissəlam yerə endi, misə qarışmış Cərciz peyğəmbərin qolunu diriltdi. Dedi:

- Ey Allahın dostu! Kainatda olan mələikələr sənin cəsarətinə heyran oldular. Allahın qüdrətini təsdiq edib səcdəyə düşdülər. Şükürlər yaradan Allaha aiddir.

O gündən İbrahimilər Cərcizə “Zər duş”, yəni “Qızıl baş” adı verdilər. Cərciz Musa peyğəmbərin zamanında yaşamışdır.

Sədəqəllahu Əliyyül Əzim.

## *TƏMSİL*

İt küçüklərinə hürməyi öyrədirdi. Deyirdi:

- Küçüklərim, əgər hər gördüyünüzə hürməsəniz, sizə it deməzlər. Nəyi gördünüz hürün! Aya, ulduza, adama, nə olsa, hürün!

O vaxt yoldan başı sarıqlı molla keçirmiş. Küçüklər başladılar hürməyə. İt tez balalarına acıqlanaraq dedi:

- Ay küçüklər, amandı, o adama hürməyin.

Balaları dedilər:

- Bəs demişdin, nə gəldi hürün, niyə ona hürməyək?

Ana it dedi:

- Görürsünüz, o, molladı! Ona hürsəniz, bizə acığı tutar, sonra kitabdan-kitaba salar, ətimizi halal buyurar. Camaat bizim ətimizi yeyib, nəslimizi kəsərlər.

***Əzizim, məndən deməkdir, istər inan, istər İNANMA!!!***
***Sən bilərsən. . .***

# HƏZRƏTİ TALUT PEYĞƏMBƏR

Bəni İsrail övladları bəzi günah və pis işlərə qurşanmışdılar. Ona görə onlara Calut adında bir kafir padşah müsəllət olmuşdu. Calut onların dövlətinə hüçum edib var dövlətlərini talan etmiş, cavan qızlarını əsir götürüb aparmışdı. İbrahim Peyğəmbərin soyundan gələn İsrail övladları pərişan halda idilər. Mələklər Yaqub övladları ağsaqqallarının yanına gəlib dedilər:

-Ya Əşmail! İsrail övladlarından biri- Binyamin oğlu Talut İsrail övladlarına padşah təyin olundu.

Əşmail Mələklərdən soruşdu:

- Nə səbəbə Yusif peyğəmbərin övladlarından padşah olmur? Onlar varlı və peyğəmbər oğludurlar. YAQUB oğlu BİNYAMİN peyğəmbər deyil, onun oğlu Talut da peyğəmbər ola bilməz! Talut kasıbdır, zənbil toxuyub satmaqla ailəsini çətinliklə saxlayır.

Mələklər dedilər:

- Yusif peyğəmbər atası Yaqub peyğəmbərin görüşünə gedəndə onun qarşısına padşah kimi gəlib. Onun qarşısına dizin-dizin getməyib, at üstündən əbasını atası Yaqub peyğəmbərin qırx il oğlu Yusifin həsrətilə tutulmuş gözlərinə sürtdürmüşdür. Onun soyundan olanlara peyğəmbərlik şərəfi nəsib etmədi! Binyaminin oğlu Talut peyğəmbər seçilmişdir!

Mələklər Həzrəti Talutun yanına gəlıb dedilər:

- Ey Talut! İsrail övladlarından qoşun yığ və İsmayıl peyğəmbərin soyundan gələn DAVUDU qoşun içərisinə al! Calut şahın cəhənnəmə vasil edilməsi onun əlindən olacaqdır.

On qardaşı olan Davud çobanlıq edirdi.

Həzrəti Talut çoban Davudun arxasınca adam göndərir, ancaq onun dağlarda qoyun otarmaqda olduğunu deyirlər. Qoşun arasında olan müna-fiq Bəni İsrail övladları dedilər:

- Davud qoyun otarandır, döyüş qabiliyyəti yox-dur. Həm də Bəni İsrail övladı deyil. O, yəhudi təriqəsini qəbul etmyənlərdəndir. Onun bizimlə getməyi layiq deyil.

Talut dedi:

- Biz Musaya Allahdan gələn "Torat" kitabını qəbul edənlərdənik. Yaqub oğlu Yahuda qardaşı Yusif peyğəmbəri quyuya atan, on səkkiz dirhəm qara pula satan qardaşlardan biridir. Onlardan peyğəmbər olması rəva bilinməyib. Musadan sizə çatmış "Tabutu-Səkinə" əllərindən alınmış, Bəni İsrail köməksiz edilmişdir. Allah da sizi cəzalan-dırıb. Kafir Calutu canınıza müsəllət eləyib.

Qısası, Talutun qoşunu dənizlər şahı Calutun üzərinə hərəkət elədi. Talutun qoşunu dağların arasından keçəndə Davud peyğəmbər gördü qoşun gəlir. Onların qabağına gəlib soruşdu: "Qoşun kimindir və hara gedir?" Dedilər:

- Calutun qoşununun üzərinə müharibəyə gedirik.

Davud yuxuda gördüyü peyğəmbəri tanıyıb dedi:

- Ya Talut! Məni də qoşuna qəbul edin.

Talut dedi:

- Ey çoban, biz hərbə gedirik. Sən qoşuna nə səbəbə qarışmaq istəyirsən?

Davud dedi:

- Mən yuxuda gördüm ki, bu qoşuna qoşulmuşam. Allah rəsuluna xidmət edirəm. Odur ki, mən də səndən ayrılmayacağam!

Talut razı oldu. Davud: "Siz gedin, mən qoyunları sahiblərinə təhvil verim, arxadan sizə çatacağam,"- dedi. O, qoyunları sahiblərinə təhvil verib qoşunun arxasına düşür. Yolda qoyunlara musiqi çaldığı tütəyi xurcundan çıxarıb axar çaya atır. Tütək ilan balığına dönür. Tütək məsğ olduğuna görə ilan balığının yeyilməsini Talut haram buyurmuşdur. Talutun adamlarının içməli suyu qurtarır. Susuzluqdan yol boyu adamlar qırılmağa başlayır. Həzrəti Talut əlini Allah dərgahına qaldırıb səbr diləyir:

- İlahi, mənim qoşunum Calutun qoşunundan yüz dəfə azdır. İndi də bizə susuzluq varid olub. Adamlarıma nicat ver ki, Bəni İsrail övladını Calutun bəlasından qurtaraq. Sənin əmrini qəbul etdim. Tək də olsam, Calutla hərbə gedəcəyəm. Müharibə olmadan adamlarım qırılır, ölənlərin sahiblərinə nə

cavab verəcəyəm! İlahi, hər şey sənin elmindən xali deyil, sən bilən və görənsən.

Allahdan nida gəldi:

-Ya Talut! Qarşıda rəngini dəyişmiş su var. O su imtahan suyudur. Hər kim o sudan üç ovucdan artıq içsə, onlar münafiqlərdir, içib öləcəklər. Onlar nə sənə, nə mənə qail deyillər. Onlar xain kafirlərdəndirlər.

Talut qoşunu yığıb dedi:

- Ey camaat! Qarşıda su olacaq. O sudan üç ovucdan artıq içməyin! Artıq içən adam olsa, deməк, o Allahın düşmənidir və o su həmin adamı öldürəcək.

Az sonra həmin suya çatdılar. Yenə Talut Allahın vəhyini onlara təkrar etdi. Onlar suya yaxınlaşıb içməyə başladılar. Hər kim iman əhli idi, iki və üç ovuc içdi. Susuzluğu kəsildi. Kim ki, üç ovucdan artıq içdi, ona susuzluq varid oldu, ağızlarını suya söykəyib doyunca içdilər. O qədər içdilər ki, orada partlayıb öldülər. Həzrət Talut gördü ki, qoşunun hamısı qırılıb, cəmi üç yüz on üç mömin adam qalıb. Allahdan vəhy gəldi:

- Ey Talut! Hərəkət et! Qalan adamlar pak möminlərdir! İman edənlər qaliblərdəndir!

Həzrəti Talut qalan qoşunu cəmləyib Calutun qoşununun üzərinə getməyə davam etdi. Həzrəti Davud qoşunun ardınca gedirdi. Qarşısına bir daş çıxdı. Daş dillənib dedi:

-Ya Davud! Dayan, mübarək olsun! Məni də Allah adına götür.

Həzrəti Davud o daşı Allah adına götürüb xurcununa qoydu. Bir az yol getmişdilər ki, başqa bir daş qarşısına diyirlənib dedi:

- Ey Davud! Məni də İbrahım adına götür.

Davud o daşı da İbrahim adına götürüb xurcununa qoydu.

Bir az getmişdilər ki, daha bir daş da qarşısına çıxıb dedi:

- Məni də Musa adına götür.

Davud peyğəmbər o daşı da götürüb xurcununa qoydu və yoluna davam etdi. Bir qədər getdikdən sonra Calutun şəhərinə çatdılar. Hərb çadırlarını şəhərin yaxınlığında qurdular. Calut şaha xəbər çatdı ki, şəhər Talut peyğəmbər tərəfindən mühasirəyə alınıb.

Calut mindiyi fillə müharibə meydanına yaxın gəldi. Talutun qoşununa tamaşa edib istehza ilə güldü. Calut qoşun yığılmasını əmr etdi. Üç yüz on üç nəfərə qarşı minlərlə qoşun topladı. Talut peyğəmbərin qoşununun bərabərinə yığdı. Calut insan əjdahası idi. Çox iri gövdəli, qorxunc simalı kafir idi. O qədər ağır bədənli idi ki, atın belinə minəndə atın ayaqları sınardı. Ona görə atın ayaqlarına kəsici, iti alətlər düzəltdirmişdi. Filə minər, insanları taptatdırıb öldürərdi. Bütün şahlarla birinci dava edib, faciəli şəkildə öldurərdi, sonra sahibsiz

qoşunu məhv edərdi. Məğlub olmuş şahın şəhər və kəndlərini talan edər, cavan qızlarını əsir götürüb eyş-işrət üçün qövmünə peşkəş verərdi.

Calut yenə də adəti üzrə hərb meydanına çıxdı. Talut peyğəmbəri hərb meydanına çağırdı. Calut zirehli hərb geyimi geymişdi. Bədəninin örtülməyən yeri yox idi, ancaq gözləri və alnında kicik bir yer qalmışdı. Calut Talutu meydana çağıra-çağıra na-layiq söyüşlər söyürdü. Həzrəti Davud Talut pey-ğəmbərin qarşısına gəlib dedi:

- Ya Peyğəmbər! Sərkərdə öləndən sonra şah döyuşə gedər. Meydana mənim çıxmağıma icazə ver.

Həzrəti Talut dedi:

- Oğlum, sən silahsız, o, silahlı, zireh geyinmiş bir cəngavərdir, o məni çağırır.

Davud təkrar icazə istədi:

- O, imansız kafirdir. Bir mömin min-min kafiri Allahın qüdrəti ilə məğlub etməyə qadirdir.

Həzrəti Talut Davudun meydana getməsinə icazə verdi. Davud bir sapandla meydana çıxdı. Peyğəmbəri görən Calut qəzəbli-qəzəbli dedi:

- Ey Talut! Məni çoban bildin, qarşıma çoban göndərirsən!?

Davud dedi:

- Ey məlun! Səni öz qanınla suvaracağam. İman et ki, Allahın qəzəbinə gəlməyəsən. Həzrəti Davud Allahın adına götürdüyü daşı sapanda qoyub

Caluta tərəf fırlatdı. Daş Calutun qoşununun qarşısında dolanıb göylərə ucaldı və Məkkə səmtinə getdi. Davud İbrahim peyğəmbərin adına götürdüyü daşı sapanda qoydu və qoşuna tərəf fırlatdı. Daş qoşunun arasında fırlana-fırlana dolanmağa başladı. Davud peyğəmbər Musa peyğəmbərin adına götürdüyü daşı sapanda qoyub Caluta tərəf atdı. Daş fırlana-fırlana Calutun alnındakı deşikdən beyninə girdi. Calut fildən yerə dəydi, yanmağa başladı. Calutun qoşunu bir-birinə qarışdı. Kim ki, Talutun qoşununa tərəf hücüm edirdi, İbrahimin adına atılmış daş ona dəyib öldürürdü. Musa peyğəmbər Ali Fironu Nil dəryasın qərq edəndən sonra Bəni İsrail övladlarına verdiyi "Tabutu-Səkinə" Əbabilquşu şəklində havada göründü. Kim ki, kafir idi, ona nicat vermirdi, o da ölürdü. Calutun qoşunu məğlub olandan sonra "Tabutu-Səkinə" quş görkəmində həzrəti Talutun sol çiyninə qondu. Calutun qoşunları iman gətirdilər. Şəhər və kəndlərdə olan camaat iman gətirdi. Həzrəti Talut qoşunu ilə birlikdə saraya qayıtdı. Həzrəti Talut şah taxtına əyləşdikdən sonra Davud peyğəmbəri yanına çağırıb dedi:

- Ey Davud! Sənin bu şücaətinin əvəzini ödəməyə yaranmışların gücü çatmaz. Mənim sənə verəcəyim hədiyyəni qəbul elə! Mənim ismət pərdəsi arxasında bir qızım var, onu özünə hərəm qəbul et! İkincı hədiyyəm olan bu yerin şahlığını qəbul elə!

Başındakı şah tacını götürüb Davudun başına qoydu və dedi:

- Mən qocalmışam, sarayda ağsaqqal kimi yaşamaq, qalan ömrümü balalarımla keçirib şəriksiz Allahıma ibadət etmək istəyirəm. Odda yanmaz peyğəmbər İbrahimin oğlu İsmayıl soyundan gələn Davud peyğəmbər, İshaq soyundan gələn İsrail oğlu, yəni Yaqub peyğəmbərin oğlu Binyaminin oğlu Talutun qızı ilə evlənir. Davudun Suleyman adında bir oğlu, Dünya adında bir qızı olur!

Davud peyğəmbər İbrahim peyğəmbərin soyundan gələn İamail peyğəmbərin nəslindəndir. Qılıncla döyüş aparan ilk peyğəmbər adı aldı! Səmavi kitab sahibi, üçüncü ülül-əzm peyğəmbərdir. Allah Təala İbrahim peyğəmbərə “Söhf”, Musa peyğəmbərə “Tövrat”, Davud peyğəmbərə “Zəbur” kitablarını nazil etmişdir. . .

Davud peyğəmbər “Zəbur”u elə gözəl səslə oxuyarmış ki, göydə uçan quşlar da qanad saxlayıb qulaq asarmış. Davud peyğəmbər dəmiri ovcunda yumşaldardı. Ondan döyüşçü geyimi-zirehli paltar toxuyub satarmış. Onunla ailəsini dolandırarmış. Pulunun yarısını fəqir-füqəraya, tələbələrin oxumasına sərf edərmiş.

Xəzinə malından öz ailəsi ücün xərc etməzmiş. İnsanlara zərər vuran cinnilər, ifritlər, maridlər, divlər, pərilər, nəsnaslarla döyüşmüş, onları təslim edərək oğlu Suleyman peyğəmbərə miras saxlamış-

dır. Onun vəfatı öz əcəli ilə olmuşdur. Talut peyğəmbər qızı və damadı ilə sarayda yaşamışdır. Ailəsini zənbil, çarıq toxuyub satmaqla saxlayıb. Mali-İmam yeməyən mürsəl peyğəmbərlərdəndir.

Talut peyğəmbərin babası nə üçün Allah tərəfindən cəzalandırılmışdır. Bəzi kitablarda qeyd edilir ki, Yaqub Əleyhissalamın evinə bir sail dilənçı gələr, onlardan dilənçi haqqı istəyər. Yaqub peyğəmbərin böyük oğlu Yahuda evdə olar, sailə sailhaqqı verər. Sail Yahudaya deyər:

- Ey peyğəmbər övladı! Mən xəstəyəm, həm də gecə düşüb. Qəribəyəm, qalmağa yerim yoxdur, məni qonaq saxlayın! Allah sizə rəhm edər, rəhm edənlər Allahın dostudur.

Yahuda deyər:

-Ay sail, sənin haqqını verdim, bizim səni saxlamağa yerimiz yoxdur. Atam Yaqub da evdə yoxdur. Burdan get!

Sail gedir. Gecə vaxtı sailin xəstəliyi artar, qayıdıb Yaqubun saman saxladığı sarayında otun arasına girib yatar. Sail gecə samanlıqda Allahın rəhmətinə qovuşub ölər. Səhəri gün Yaqub samanlıqda sailin öldüyünü görər. Peyğəmbər saili dəfn edir. Allah Təaladan xəbərdarlıq gəlir:

- Ey Yaqub! Mənim sailimə sahib çıxmadın. Məni qəmgin etdin. Ey Yaqub, sən də qəmgin olacaqsan.

Sonradan həzrəti Musadan miras qalan “Tabu-tu-Səkinə”ni mələklər göylərə çəkdilər.

İkinci cəza.

Hz. Yaqubun dördüncü arvadından olan Yusif peyğəmbəri anadan ögey qardaşları quyuya atarlar. Yaquba qardaşları: “Yusifi qurd yedi, ”- deyib, qana bulaşmış köynəyini gətirmişdilər. Sonradan Yahuda və qardaşları Yusifi quyudan çıxardan tüccar başçısı İsmayıl soyundan gələn Malikə qul əvəzinə ucuz qara pula-on səkkiz dirhəmə satmışdılar. Yaqub peyğəmbər qırx il Yusif ayrılığından ağlar qalmışdı. Ona görə on oğluna peyğəmbərlik Allah tərəfindən verilməmişdi. İshaq peyğəmbərin nəslindən gələn Yaqub peyğəmbərin övladlarından alınıb İsmayıl nəslindən gələn Davud peyğəmbərə verilmişdir. Musa peyğəmbərin qızının, Davud peyğəmbərin oğlunun nəslindən XATƏM-ÜL ƏNBİYA dünyaya gəlmişdir.

# OĞLUNDAN KİÇİK PEYGƏNBƏR

(TARİXİ ƏNBİYA və TARİXİ NƏS VAS kitablarına istinadən)

Üzeyir peyğəmbər Əziz peyğəmbərin qardaşıdır. Üzeyir peyğəmbər qırx yaşında bağbanlıq edib ailəsini dolandırırdı. Bir gün bağdan üzüm yığıb bazara aparırmış. Yol gedəndə yorulduğu üçün qəbiristanlıq yanında olan bir qoca ağacın altında əyləşib dincəlirmiş. Görür ki, qəbristana meyit gətirib dəfn etdilər. Camaat ölünü basdırıb geri döndü. Şeytan onun ağlını çaşdırdı. Fikrinə gəldi ki, ölən adam min illərlə yer altında çürüyüb topraq olacaq. Görəsən, bizi yaradan Allah torpaq olan insanları necə dirildib ərasati-məhşərə apacaq, ondan hesab soracaq? Allahdan Üzeyir peyğəmbərə vəhy gəldi:

- Ey Üzeyir! Allahın qüdrətinə şübhə etdin? Hələ üzüm yüklü eşşəyinə bax!

Hz. Üzeyir gördü, eşşək yıxılıb öldü. Quzğunlar onun ətini yedilər, sümükləri torpağa səpələndi. Eşşəyin belindəki tər üzüm çürüyüb eşşəyin sür-sümüyünə qarışdı. Hz. Əzrayıl Yer üzərinə enib Üzeyirə dedi:

- Ey Üzeyir! Ömrün tamamlandı. Ruhunu qəbz etməyə gəlmişəm.

Üzeyir dedi:

- Mənim bir yaşında oğlum var, o yetim qalar. Mənə zaman ver, onu böyüdüm.

Əzrayıl dedi:

- Zamanın çatıb, sənin bir nəfəs artıq almağına icazə verməyə haqqım yoxdur.

Sonra cəhənnəm əhlinə verilən cəza ilə onun canını aldı. Onun da ətini qurd-quş parçalayıb yedi.

Üstündən yüz il keçdi. Sür-sümükdən əsər-əlamət qalmadı. Allahın əmri ilə Üzeyir peyğəmbər canlandırıldı. Həzrəti Üzeyir Əzrayılin canalma tərzini yadından çıxara bilmirdi. Baxdı ki, altında oturduğu ağacın yerində cavan bir agac bitib. Ağacın altında oturub fikrə dalmışdı. Birdən eşşəyin öldüyü yerdə toz-torpaq bir-birinə qarışdı. Eşşəyin sür-sümüyü bir yerə toplandı, sümüklər eşşək şəklinə düşdü. Sümüklərin üzərinə damarlar çəkildi. Eşşəyin bütün orqanları tamamlandı, ətin və damarların üstünə dəri çəkildi. Eşşək dirilib ayağa qalxdı. Üzüm səbətinin çöpləri bir-birinə toxunub səbət oldu. Çürümüş üzüm toxumları sulanıb tər üzüm oldu.

Üzeyir peyğəmbər geri dönüb kəndə girdi. Kəndi tanımadı. Soraqlaşa-soraqlaşa öz evinin yerini tapdı. Xaraba yerdə pirani bir nəfəri görüb soruşdu:

- Bu xarabalar kimin mülkü olub?

Qoca kişi dedi:

- Bu xaraba yurd atam Üzeyir peyğəmbərin olub, yüz il bundan qabaq bazara üzüm satmağa gedib, bir daha evə qayıtmayıb.

Üzeyir qoca kişinin adını soruşdu. Kişi dedi:

- Mənə Üzeyir oğlu Saleh deyərlər.

Üzeyir dedi:

- Sən mənim oğlumsan! Sən məndən yüz yaş böyüksən. Mən qırx yaşlı atan Üzeyirəm!

Üzeyir və oğlu Allahın qüdrətinə heyran olub, Yaradana şükür etdilər!

***İNNA LİLLAHİ VƏ İNNA İLƏYHİ RACİUN !***

**Xxx ( ) xxX**

Bir kişi oğlu ilə turp əkirmiş. Oğlu atasından soruşur:

-Atacan, yerin altında adam var?

Atası deyir:

- Oğlum, əlbəttə, adam var. Adam olmasa, biz əkən turpu kim rəngləyər?

Hazırcavab uşaq tez dillənir:

- Nənəmi qəbristanlığa apardılar. Yəqin ki, o da bizim turpları rəngləyəcək, hə?

Uşağın cavabı atanı mat qoyur!

Hörmətli oxucu, turpumu bəyənsən, mənə müştəri göndər! Göndərsən də sağ ol, göndərməsən də sağ ol!

## *ALLAH SİZİ BAĞIŞLASIN !*
## *H E K A Y Ə T*

# COMƏRDİ QƏSSƏB

## *H E K A Y Ə T*

Rəvayətə görə bir şəhərdə Comərdi-qəssab adında bir kişi varmış. O, doğrucul, namuslu, öz haqqını yeyərək halal zəhmətlə yaşayırdı. Yaş ötürmüş bu kişi sonsuz idi. Qoca övrətilə qəssablıqdan qazandığı ruzu ilə günlərini keçirib, inandıqları Günəşə, Aya sitayiş edərdilər. Bir gün yuxudan qan-tər içində ayılıb yuxusunu arvada danışır. Arvad deyər:

- Ay kişi, vallahi, o yuxunu mən də gördüm.

Onlar ertəsi gün həmin yuxunu yenə görürlər. Kişi yuxu yozanlara yuxunu yozdurur. Deyirlər:

- Yuxunda gördüyün adam sənin qonağın olacaq. Sən də onun duası ilə dünyada arzuna çatarsan.

Kişi gəlib arvadına dedi:

- Arvad, yuxuda gördüyümüz islamın sütunu Əmir əl-Mömenindi, bizim qonağımız olacaq.

Onlar eşitdiklərinə qəlbən inanıb islam dinini qəbul edirlər və səbirsizliklə həzrəti Əlinin yolunu gözləyirlər. O insanlar Əli sevgisindən bir otaq bəzəyərək hər gün o otağı təmizləyər, gülab səpər, qonağın tez gəlməsindən ötrü dua edərdilər. Zaman gəldi, həzrəti Əli Əleyhissəlam həmin şəhərin

ətrafına gəlib çadır qurdu. Bir nəfər səhabələrindən çağırıb dedi:

- Get şəhərə, bir qədər ət al, bişirib nahar edək.

Səhabə şəhərə daxil oldu. Çörək, su və başqa azuqə alıb qəssab dükanına da gəldi ki, bir qədər də ət alsın. Gördü ki, qəssab baltanı ətə vuranda deyir:

- Verməərəm, verməərəm Bihəqqi Əli, almaram, almaram Bihəqqi Möla.

Baltanı ətə bir dəfə vurub çəkir, nə artıq, nə də əskik kəsilir.

Səhabə dedi:

- Qəssab qardaş, mənə bir qədər can əti çək.

Beş məkkə sikkəsi qəssaba verir, qəssab əti çəkib səhabəyə verir. Qəssab sikkəyə baxıb görür ki, sikkənin üstündə Mölayi Müttəqiyanın Zülfüqarının şəkli var. Öz-özünə deyər ki, bu sikkəni pul xəzinəsinə atım, xəzinəm bərəkətli olar. Səhabə əti gətirib Əli Əleyhissəlama verdi. Həzrəti Əli ətə baxıb dedi:

- Ətin sümüyü çoxdu, əti qaytar, bud əti al gətir.

Səhabə əti qəssaba qaytarıb dedi:

- Ağam əti bəyənmədi, dedi əti dəyişdir, bud əti al, sümüksüz və yaxşı ət olsun.

Qəssab əti alıb əvəzinə sümüksüz bud əti çəkib verdi. Səhabə əti gətirib Əli Əleyhissəlama verdi. Həzrət dedi:

-Bu ət də yaxşı deyil, apar, qaytar. Sikkəni də al, gətir.

Səhabə qəssabın yanına qayıdıb deyir:

- Ey qəssab, ağam bu əti də bəyənmədi, dedi ki, əti qaytar, sikkəni al gətir. Sikkəmi ver gedim.

Qəssab sikkə qədər yerli dinar verdi. Səhabə dedi:

- Mənim öz sikkəmi qaytar.

Qəssab cavab verir ki, o xəzinə həftədə bir dəfə açılır. O qədər pulun içindən necə ayırıb sənin sikkəni verim. O, qəssabın pulunun yüz bərabəri qədər pul təklif etsə də, səhabə öz sikkəsini istəyir. O zaman Mölayi Müttəqiyan danışıq olan yerə gəlib deyir:

- Ey qəssab, o insan öz sikkəsini tələb edir. Müştərinin sikkəsini qaytar.

Qəssab qəzəbli halda Həzrətin sinəsindən itələyib deyir:

- Birimiz alan, birimiz satan, sən kimsən, bizim aramıza girirsən?

Həzrət pul sandığına atın qamçısını uzadır, sikkəni sandığın ağzının kəsiyindən çıxardır. Sikkə cingildəyə-cingildəyə sandığın qapağının üstünə düşür. Qəssab təəccüblə Əli Əleyhissəlama baxıb tanıyır və deyir:

- Ağa, neçə ildir sənin həsrətinlə yanıb tutuşduq, sənə layiq olmadım.

Ağanı itələdiyi əlini ət kötüyünün üstünə qoyur, balta ilə qolunu biləngindən kəsib atır. Kəsilmiş

əlini digər əlinə götürüb düşür şəhərin küçələrinə. Kəsilmiş əlini başına döyə-döyə deyir:

- Ağasının üzünə ağ olanın aqibəti belə olar.

Şəhər camaatı dəstə-dəstə düşürlər qəssabın ardına, o zamana qədər ki, qəssab bitab olub huşdan gedir və canını tapşırır. Bu zaman Mölayi-Müttəqiyan gəlib durdu qəssabın cəsədinin bərabərində, kəsilmiş qolunu qoydu biləngdən kəsilmiş yerinə. Mübarək ağzının luğabından çəkdi yarasına, əbasını atdı meyidin üstünə, iki rükət hacət namazı əda edib qadir Allahdan meyitə həyyü-nicat istədi. Comərdi qəssab canlanıb ayağa qalxdı, düşdü ağanın qədəmlərinə, dedi:

- Canım sənə fəda olsun, ya Əli! Sənə qarşı biehtiramlıq etdim.

Şəhərin ağsaqqalları, valisi bu möcüzatı görüb tamam uşaqlı-böyüklü iman gətirərək islama müşərrəf oldular. Odur ki, şəhər və ətraf kəndlərin əhalisi zülfüqar çəkilmədən islam əhlilərindəndir.

“Səhehil-əxbar”da kitab sahibi yazır: «Əli Əleyhissəlam şəhərdə üç gün qaldı. Allah qonağı olan Hz. Əli Comərdi qəssaba onların Abbas adlı oğulları olacağının müjdəsini verib dedi:

- Ey Comərdi qəssab! Zaman gələcək, Məhəmməd əl-Müstəfa soyundan olan Abbas qardaşı Hüseyn yolunda Şəhidi-Kərbübəla olacaq. Ümidvaram, sizin oğlunuz Kərbübəla ziyarətində olar.

Oradan da külək döyən şəhərə - Badi-Kubəyə (indiki Bakı) tərəf üz tutdu.

İyirmi il sonra qəssabın ABBAS adlı oğlu olmuşdu. On doqquz yaşlı bu gənc sərv boylu, uzun qollu, Əli oğlu Abbas şücaətli bir pəhləvan, çox bilikli cavan idi. Bir gün o cavan bir yuxu gördü. Gördü ki, ağam Hüseyn Kərbübəlada qardaşı Abbasa toy eləyir. Mən də o toyda adaşım Abbas ilə qol-qola dolanıb oynayırıq, meydana su səpirik. Atası qəssab da yuxuda gördü ki, oğlum Abbas elmi-ürfandan dərs alır. Əşrəfi-Kainat oğlumun başına çalma dolayır. Abbasın anası yuxuda gördü: "Oğlum Fərat çayında çimir, ağam Əli oğlumu geyindirib belinə qurşaq bağlayır. "

Abbasın anası deyir: "Oğul, yuxuda gördüm, ağam Əliyyül-Mürtəza sənin belinə qurşaq bağlayır." Abbasın atası dedi: "Mən də yuxuda gördüm, oğlum elmi-ürfanı oxuyub tamamlayıb. Ağam - xanım Fatimə atası sənin başını sarıyır." Oğlu dedi: "Mən də gördüm qardaşım Əbülfəzl Abbasilə toy meydanına su səpirik." Qəssabın arvadı dedi: "Vay, qardaşın Abbas dardadır. Abbasın atası dedi:

- Oğul, Əhli-Beyt süfrəsinə ləyaqətin var. Əliyyül-Əkbərin toyudur, toya dəvətin var, get oğul, o toya məndən də, anandan da Əli balalarına, Əhli-Beytə salam söylə.

***Abbas süvar olur. Ana üz tutur Neynəva çölünə !***

Comərdi qəssabın arvadı Kərbübəlaya belə salam göndərir:

Getsən o yerə, bizdən salam götür,
Olsan şəhid, şərbətə cam götür.
0
Oldun sorağında ismi-Abbasın,
Ruhun Allahındı, ismin Abbasın.
Qollar sənin olsun, cismin Abbasın,
Əkbərin toyuna çeşmi-ənam götür.
1
Baxmazsan o yerin isti havasına,
Məlhəm qoyarsan Əliyyu-Əsgər yarasına.
Yananda xeymələr girərsən od arasına,
Qaranlıq xərabələrə şam götür.
2
Neynəva çölünü götürəndə qan,
Şimri-lənətullah gətirməz iman.
Əsiri-Kərbəlaya olarsan həyan,
Ac-susuz olana təam götür.
3
Qasim meydanıdə qalanda tənha,
Sinə ver oxlara, çəkməsin cəfa.
Qoymazsan xar olsun isməti-taha,
Əşrəfdi şəhid, çatsa əyyam, götür.

4
Hәna çәkilәndә Əkbәr әlinә
Bağlarsan iti xәncәr belinә.
Ağla fәqan edәn Leyla dilinә,
Əli qızı Zeynәbdәn әfam götür.
5
Ədrәkni, ya Əli, söylә eşqilә,
Daşınır Əsğәrә tiği mәşqilә.
Gedir bimarın әsiri Dәmәşqilә,
Gәl Ali әbanı tamam götür.
6
Nizә üstә gәzәr Hüseynin başı,
Cida düşәr ondan Abbas qardaşı.
Sudeyf, sәn dә ağla, axıt göz yaşı,
Qiyamәt günü bir mәqam götür.

# ƏDL

"Ədl" Allahın sifətlərindən və adlarından biridir. Xaliqin yer uzərində yaratdığı şahların ədalətli və ədalətsiz olanlarından söhbət açacağıq.

# ƏNUŞİRƏVAN ŞAH

Məhəmməd əl-Müstəfa (Salavat salam olsun ona!) dünyaya gələrkən Ənuşirəvanın şahlıq dövrü imiş. Odur ki, Allahın Rəsulu Ənuşirəvan şahın zamanında doğulduğuna görə şükür etmiş və demişdir:

- Xoşbəxtəm ki, adil şah dövründə dünyaya gəlmişəm. Ənuşirəvan şah öz sarayında olarkən heyvanlar şahı olan bir şir şah sarayına daxil olub. Ənuşirəvan şahın qarşısında dayanıb və əlləri ilə ağzına işarə edib. Əlini ağzının qarşısında hərəkət elətdirib. Ənuşirəvan şah şir dili bilən adamın saraya gəlməsini tələb edir. Saraya bir heyvan dili bilən gəlir. Şah heyvan dili bilənə deyir:

- Şirin bizdən nə istədiyini öyrən.

Heyvan dili bilən şirin işarələrinə baxıb dedi:

- Ey şah! Şir ağac ustası istəyir.

Təcili bir elmli ağac ustası tapıb saraya gətirirlər. Şah ustaya deyir:

- Şirə usta lazımdır. Ona görə səni çağırdıq ki, şir ilə gedəsən.

Usta şirin ardınca duşub saraydan meşələrə doğru gedir. Bir gündən sonra ağac ustası və şir saraya qayıdırlar. Şir ustanı sağ-salamat Ənuşirəvan şaha təhvil verib təşəkkür təzimi edərək saraydan xaric olunur. Ənuşirəvan şah şirlə gedən ustadan soruşur:

- Meşələr şahının ustaya nə ehtiyacı var imiş. Sən onun üçün nə iş gördün və səni niyə parçalamadı?

Usta dedi:

- Mən şirin arxasınca meşəyə getdim. Orada boş bir sahəyə çıxdıq. Gördüm bir dişi aslan orada nərə çəkir. Qəzəbli-qəzəbli hərəkət eləyir. Mən şirin qorxusundan donub yerimdə qalmışdım. Erkək şir gözləri ilə mənə işarə verdi ki, dişi şirə yaxınlaşım. Mən dişi şirə yaxınlaşıb gördüm ki, ağzında ceyran başı var. Ceyranın buynuzları şirin ağzına ilişib, şir başı nə uda bilir, nə də ağzından çıxara bilir. Bildim ki, erkək şir məni şirin ağzında olan ceyran başını çıxartmaq üçün gətirib. Mən heybəmdən ensiz bir mişar çıxartdım. Ceyranın buynuzlarını kəsib şirin ağzından rədd etdim. Şir isə başı uddu. Şir bu əzabdan azad olduğuna görə mənim ətrafımda fırlanıb erkək şirlə qucaqlaşıb oynadılar. Sonra dişi şir mənim qarşıma gəlib dizlərimin qarşısına

əyləşdi və mənə əyləşib gözləmək üçün işarə elədi. Erkək şir bizdən ayrılıb meşəyə girdi. Gün doğan vaxtı erkək şir gəlib çıxdı. Ağzında iki ədəd buğda sünbülü gətirib mənim heybəmə qoydu. Mən də kəsdiyim buynuzları heybəmə qoydum və saraya gəldim. Ey şah, mən şir ilə getməsəydim, sən məni öldürəcəkdin və ailəmə əziyyət verəcəkdin. Şir ilə getdim ki, tək özüm ölüm, ailəm mənim üzümdən zərər çəkməsin.

Ənuşirəvan şah dedi:

- Şahların ənamı böyuk olar. O, sənə iki ədəd buğda sünbülü verib, mən sənə şirin əvəzinə və öz əvəzimə min kisə qızıl hədiyyə verdim. O sünbüllərə baxaq ki, görək onun da danələri biz əkdiyimiz buğda kimidir, ya fərlidir?

Usta sünbülləri heybəsindən çıxarıb şahın qarşısında olan taxtın üzərinə qoydu. Şah əyanlarını da çağırıb buğdanın qabığından soydurdu. Buğda danəsi əvəzinə on dörd qırmızı yaqut çıxdı. İkinci sünbülü soydurdu. On beş ədəd yaşıl yaqut çıxdı. Saray adamları bu möcüzəni görüb təəccüb etdilər.

Mən də təəccüb etdim: on dörd nədir, on beş nədir? Ədl hansıdır - ədalətli Ənuşirəvan şahdır, ya Allahın şiri? Sən fikirləş, oxucum - kimdir Ədl?! Ənuşirəvan şahın xəzinələri bir danə qırmızı yaqut dəyərində deyil.

## *HEKAYƏT*

Bir gün bədəvi şahlarından biri şahlıqdan qovulub sürgün edilmişdi. Şah nökəri ilə birlikdə Vadeyi-əssəlama gəldi. Hündür bir təpənin başında olan ağacların altında mənzil etdilər. Hava qaralandan sonra gördülər yaxınlıqda şiddətli naleyi-fəryad səsləri gəlir. Onlar ağlaşma yerinə tərəf getdilər. Gördülər təpənin üzərində qadın heykəllərindən düzəlmiş fəvvarələr var. Bu fəvvarələr qadın heykəllərinin gözlərindən axır. Şah fəvvarənin lövhəsinə baxıb bu sözləri oxudu: "Burada Səxavətli Hatəm Əttai yatır." Şah gördü ki, heykəllər elə mühəndisi üsulla qurulub ki, qadınların gözlərindən axan sulara səhra mehi dəydikcə, bir-birinə qarışan suyun səsi qadınların nalə-fəryad səsinə bənzəyir. Bədəvi şahı istehza ilə dedi:

- Ey Hatəm! Bu gün sənin qonağınıq. Şahlıqdan qovulmuş şah fəqirdir. Hatəm də qonağın ac saxlayar?

Şah kürəyini heykəllərə söykəyib yatar, yuxuda görər ki, Hatəm Əttai onlara salam edib deyir:

- Ey taxtından salınan şah! Şahlar da dünyada qonaqdır! Siz mənim qonağımsınız, mən isə min ilin ölüsü. Qonağın ehtiramında durmaq borcumdur. Mən ölü olduğuma görə sənə qonaqlıq verə bilmirəm. Məni bağışla, ancaq sənin dəvəni kəsib

səni qonaq edəcəm. Hatəm Əttai qılıncı qaldırıb dəvənin boynunu vurdu.

Şah qan tər içində yuxudan ayılıb gördü ki, dəvə doğrudan da ölür. Tez nökərini yuxudan durğuzub dəvənin başını kəsdirir. Dəvənin ətindən bişirib yeyirlər. Səhər açılır. Onlar dəvə ilə gətirdikləri yükləri necə aparacaqlarını fikirləşirlər. Bir də görürlər ki, səhradan bir atlı gəlir. Atın quyruğuna dəvə bağlanıb. Atlı təpənin başına çıxıb keçmiş bədəvi şahına salam edir və deyir:

- Ey vəzifəsindən çıxarılıb sürgün edilmiş şah! Mən burada qəbri olan Hatəm Əttainin oğluyam. Yatmışdım, atam yuxuma girdi. Dedi: "Ey oğul, bu axşam bədəvi şahı mənim qonağım idi. Onları yedirtməyə bir şey tapa bilmədim. Onun yük dəvəsini kəsib onları qonaq etdim. Sən də qırmızı dəvəni apar, onlara ver. Onları gecikdirdiyimə görə mənim əvəzimə üzr istə." Mən də dəvəni gətirib sizə verirəm ki, siz də yolunuzdan qalmayasız.

Hatəm Əttainin anası Hatəm öləndən sonra: "Hatəm, Hatəm", - deyə çox ağlardı. Hatəmin böyük qardaşı Xatəm anasına dedi:

- Bu qədər ağlama. Hatəmin əvəzinə bir bina tikdirmişəm. O binaya qırx pəncərə qoydurmuşam. Hər pəncərədə bir qulluqçu qoymuşam. O binanın yanına gələn füqəralar hər pəncərənin ağzından keçəndə bir qızıl alır. Sail binanı bir dəfə dola-

nanda qırx qızıl alır. Oğlun Xatəm də Hatəm səxavəti ilə yaşayır.

Anası dedi:

- Oğul, sən Xatəmsən, Hatəm deyilsən. Körpə vaxtı sizi sınaqdan çıxarmışam. Sən südəmər vaxtı olanda qucağında körpə uşaqla gələn arvadı görüb qucağıma sığınardın, başını döşlərimin arasına qoyub əllərinlə döşlərimi gizlədərdin. Sən süd əmən vaxtı isə körpə uşaq evdə olanda döşümün birini əmərdin, o birinin üstünə də əlini qoyardın. Sən qısqanc və xəsis Xatəmsən. Hatəm isə südəmər uşaq görəndə ağlayıb o uşağı da qucağıma almağımı istərdi. Süd əmərkən görəndə döşümü ağzından çıxarıb uşağa tərəf tutardı. Boş qalan döşümü də qorumazdı. Sən Xatəmsən, o, Hatəm. Necə ağlamayım, bir səxavət əhlini itirmişəm?

## *HAŞİYƏ*

Peyğəmbər Əleyhissalam səhabələri ilə söhbət zamanı buyurdu:

- Mən Mehraca gedən vaxtı Ad oğlu Şəddadın tikdirdiyi dünya Behiştinin üzərindən keçirdim. Gördum, o Behiştdə iki Adəm övladı taxt üzərində əyləşib, üz-üzə söhbət edirlər. Əllərində yelpic var idi. Yelpic ilə bir-birinə tərəf küləkləyirdilər. Mən Hz. Cəbrayıla sual etdim: «O yer haradır və o iki insan nə üçün bir-birinə yelpic verir?» Hz. Cəbrayıl

buyurdu: "Ey Allahın Rəsulu! O yer Vadeyissalamdı. Zalım şahlardan olan Ad oğlu Şəddadın özu üçün tikdirdiyi dünya Behiştidir. Ad oğlu Şəddad min il ömr edib. Dörd yüz il Allahlıq iddiası edib. Dörd yüz ilə də o Behişti tikdirib. Behiştdən kənar min-min qala ucaldıb. Hər qalada Behişti təmin etmək üçün zülmkar müfəttişlər qoydurub. Özü isə Behiştdə daim yaşamaq üçün gələndə yolda bütün qövmü ilə birlikdə Səmum yelinə tuş gəlib. Onlar Behiştə az qalmış Səmum yelindən tamamilə qırılıblar. O Behişt Səmut qövmünün şəhəri kimi küləklər gətirən qumlar altında qalıb. Ad oğlu Şəddadın oğlu Nun şəhərə iki ağac qalmış o qövmdən ayrılıb geri qayıtmışdı. Səmum yeli əsəndə Şəddad və qövmünün necə həlak olduqlarını oğlu uzaqdan seyr etmişdi. Gördüklərini və atası Şəddadın etdiyi zülmləri orada böyuk bir sal daşın uzərinə həkk edib, özü də o daşların üzərində həlak olub. Allah Təbarəka və Təala Vadeyissəlamda Şəddadın tikdirdiyi Behişti insanların gözündən məxfi saxlayır. Haliyədə günah işləyənlər, Allahın varlığını tanımayanlar gördüyün Bəroot çölündə əzablara düçar olacaqlar. O taxt üzərində əyləşənlər səxavətli Hatəm və ədalətli Ənuşirəvan şahdı. Allah Təala Ənuşiravan şahı ədalətinə görə, Hatəm Əttaini səxavətinə görə qiymətləndirib. Onların dünyada gördükləri ədalətli və səxavətli əməlləri külək vuran yelpic olub cəhənnəm atəşlərini onlardan kənar

edir. Onlar Allah yaradan Behiştin havasatını alırlar. Yelpic yelləndikcə Cəhənnəm odu onlardan üç min illik yol qədər uzaqlaşır və Behişt havası üç min il yaxınlaşır. Qiyamət günündə onların yatdığı qəbristanda olan alimlər və onların nəslindən gələn insanlar sənin övladın Şəhidi-Kərbəla şəhidlərindən sayılacaqlar. Alim və şəhid xatirinə onların günahı bağışlanacaq. Çünki onlar Allah yaradanlara ehtiram ediblər.

***Allah Rəhman və Rəhimdi.***

# ARAŞDIRMALAR, MÜLAHİZƏLƏR, NƏTİCƏLƏR

-I-

Bildiyimiz kimi bütün canlıları idarə edən öz cinsindən olan şahlar vardır. Məsələn, ilanlar şahı. İlanlar çox müdrik, həm də çox qəzəbli və xain sürünənlərdilər. İlanlar xain olduqlarına görə hər qərinədə bir dəfə öz yerlərində müharibə edərlər, üçdə bir hissəsi qalana qədər bir-birini məhv edərlər. Hər yüz ildən bir öz yerlərindən başqa yerlərə gedib dünya ilanlarının müharibəsini aparарlar. Onlar da qırılıb məhv olar, üçdə bir hissəsi qalar. Şahmar (kral, kobra) ilanlar şahı heç bir heyvanla qidalanmaz, ancaq öz cinsindən olan və ya ən zəhərli ilanları zəhərləyib udarlar. Soyuqqanlı sürünən heyvanlarda öd kisəsi olmaz. Onların dişlərinin dibində olan zəhər ödu əvəz edər. Udduğu heyvanları zəhərlədikdən sonra udarlar. Udduğu zəhərli ilanlar parçalanıb qəlsəmələr arasında həzm olur. Şahmar ilan qış gələndə o biri heyvanlar kimi qış yuxusuna gedir. Yaz gəlib yer istiləşəndə qəlsəmələrində qan hərəkət edir. Ayılıb torpaq üzərinə çıxırlar. Yarım il yatmış ilan susuzluğa düçar olur. Onlar yazın şehini otlardan yalayıb bağırsaqlarını nəmləndirirlər. Su içmiş ilan keçən ildən qarnında qalmış ölşü ilanın hissələrini qusur.

Qara, pıspısa adlanan böcəklər həmin qusmağı yumrulayıb öz yuvalarının qarşısına aparırlar. Yumrulanmış qusmaq onların yuvalarına girmir. Onlar torpaqdan və sudan məhlul hazırlayıb yumrulanmıs qusmağın ətrafını palcıqlayırlar. İsti səhra qumlarının üzərində olan palçığa bükülmüs qusmaq gün qabagında qıcqırıb ilan mumiyasına çevrilir. İsti səhranı gəzən insanlar mumiyaları tapıb gətirirlər. Hər kim xərçəng xəstəliyinə düçar olsa, o mumiyanın birini 3 yerə bolub qara qoyunun südü ilə məhlul düzəldər, həm xəstəyə içirdər, həm də xərcəng olan yerə çəkərlər. Xərcəng xəstəliyinə düçar olan insan sağalar.

Dünyada 3 cür mumiya vardır:

***1. İlan mumiyası. 2. Arı mumiyası (vərəmum). 3. Daş mumiyası (propolis).***

Hər biri ayrılıqda insan saglığı üçün dərmandır. Arı mumiyasını (vərəmum) arı xüsusi maddələrdən hazırlayır. Arı pətəklərinin içərisində olan dəliklər-deşikləri suyuyur, pətəyin giriş-çıxış yerinin yanlarına, üstünə və altına həmin maddədən sürtür. Öz xəstəliklərinin qarşısını almaq üçün yeşiyin altına da o maddədən çəkib üzərində gəzirlər ki, özlərini xəstəlikdən və ora girən həşaratların zərərindən qorusunlar. Vərəmum qara ciyər xəstəliyinə və mədə-bağırsaq yaralarının sağalmasına kömək edir. Vərəmum əsasən südlə həll olunur. Arı bütün canlılardan şüurlu və kamil yaranmışlardandır. Arının

ana üçün hazırladığı süd ürək çatında, qan damarlarında kirəcləşmə yaranmasına qarşı və əsəb pozğunluğunu mualicə edən ən qiymətli məhsuldur. Arının yığdığı nektar baş tükünün tökülməsinin qarşısını alır. Bal bütün xəstəliklərdə istifadə olunur. İlan vurmuş adamı müalicə etmək mümkündür. İnsan gözündə qızıl gül xəstəliyi və ya bahar xəstəliyi olduqda üç gün gözə bal tökmək tam sağaldır. Bal Allahın insanlara bəxş etdiyi ən gözəl nemətdir.

Daş mumiyası isti yerlərdə olan dağlıqlarda mərmər daşlarından süzülən qara yağdır (daş yağı). Daş mumiyası (propolis) mədə-bağırsaq yaralarında və sümük sınıqlarının müalicəsi üçün əhəmiyyətli maddədir.

Əziz oxucum! Şahlar haqqında danışarkən ilanlar şahı haqqındakı söhbətlərim mənim əczaçılıq barədə bəzi fikirlər söyləməyimə səbəb oldu. Məncə bunun bəzi adamlara səmərəsi dəyə bilər.

## -II-

Şahların ədalətli və ya ədalətsizliyi haqqındakı söhbətimi yekunlaşdırarkən öz şəxsi mülahizələrimi sizinlə bölüşmək istəyirəm.

Bəzi hallarda şahların dini (səlib) müharibələrində və ya şahlıq uğrunda gedən mübarizədə günahsız insanlar qətl edilir. Fikrimizi əsaslandırmaq üçün tarixə müraciət edək. Xristofor Kolumb İngilis dilli Ortodoks dininə mənsub olan səyyah idi. O, gəmi ilə yeni torpaqlara getmiş, Ham və Kamran övladlarının mənfəət xatirinə və şahlıq etmək üçün qırılmasına səbəb olmuşdur. Oranı tanıyan ingilislər yerli əhalini qırıb didərgin saldılar. Orada işlətmək üçün Afrika qitəsindən az yaşlı və gənc qara, qırmızı dərililəri əsir götürüb yeni materikə daşımışlar. Hazırda Latın Amerikasında yerli sakinlərdən barmaqla sayıla biləcək qədər qalmışdır. O xalqın işlətdiyi latın yazı qrafikası dünyanın çox yerində işlədilir.

Amerika qitəsində Xristian din hökm sürür. Afrikadan qul məqsədi ilə daşınmış insanlar o qədər artmışlar ki, Amerikanı idarə etmək qabiliyətindədirlər.

Məzhəb çarpışmalarına aid daha bir misal: Cəfəri Məzhəbində olan İmam Museyi Kazim nəslindən gələn Şah İsmayıl Xətai ilə Dərəbəyi Qara

Yavuz Sultan Səlim arasında gedən Məzhəb müharibəsindən zərər çəkənlər də xalq oldu.

Çaldıran döyüşündə Dərəbəyli Qara Yavuz Şah İsmayıl Xətaini döyüşdə məğlub edib, böyük Azərbaycan dövlətinin Cənubunda olan Mosul və Suleyman iyyə şəhərlərinin əhalisini öldürməklə bərabər, qalan əhalini oradan Azərbaycanın şimalına sürgün etmişdi. Haliyədə salamat qalan Mosul əhalisinin qalıqları Şimali Azərbaycanın cənubunda yerləşən Masallı rayonunda məskunlaşmışlar. Biləsuvar rayonunda yerləşən Bəydilli kəndi, Ağcabədi rayonunda yerləşən Ovşar kəndləri, Masallı rayonunda Mosuldan köçürülmüş insanların haradan gəldiyi tarixdən gizlədilmişdir. Haliyədə Mosul və Suleymaniyyə şəhərlərinə Ubeydullahın nəslindən olan yəzdi kürdlər Şam şəhərindən və ətrafından köçürülərək məskunlaşdırılmışlar. Bəzi tarixçilərə görə Masallının doğru adı Mosuldur. Mosullu - Masallı kimi tələffüz edilmişdir.

-III-

(Kitabi "HƏQİQƏTİL MÖMİNİN-ə" istinadən). Şahlardan bəhs edərkən İslamiyyətin quruluş illərində baş vermiş bir hadisəni xatırlamaq yerinə düşər: Məhəmməd əl-Müstəfanın rəhbərliyi altında Kufədən Məkkəyə doğru hərəkət edən İslam qoşunları Beytül-Ələm çölünə çatırlar. Yol üstündəki bir ağacın dibində su quyusuna rast olurlar. Orada bir qoca kişi quyunun yanında olan ağacın altında əyləşmişdi. Hz. Məhəmməd əl-Mustafa o qoca kişidən soruşdu:

- Ey şəxs, bu quyuda su varmı?

Qoca dedi:

- Bu quyuda süddən ağ, baldan şirin su var. Ancaq bu vaxtacan bu quyudan su götürən olmayıb.

Hz. Peyğəmbərin səhabələrindən o quyuya girmək istədilər. Kim quyuya girirdisə, quyuda su olmadığını, quyunun içərisindən başqa yerə geden mağara olduğunu deyirdilər.

Məhəmməd əl-Mustafa əmisi oğlu Əli Əleyhissalamdan o quyuya girib şirin su çıxartmağını xahiş etdi. Hz. Əli Əleyhissalam nərdivanla quyunun təkinə düşdü. Orada olan mağara ilə getməyə başladı. Həzrət görür ki, Hz. peyğəmbərin qulluqçusu Salman Farsi quyunun yanında əyləşərək ağlayır. Hz. Əli Əleyhissalamı görən kimi sevincdən qəşş elədi. Dedi:

- Ya Əli! Mən 4 gündür bu quyunun ağzında səni gözləyirəm. Allahın Rəsulundan xəbər var: Hər kim əmim oğlu Əlinin sağ olma xəbərini mənə gətirsə, onun 2 arzusunu yerinə yetirəcəm. Ya Əli! Mən müjdə almaq üçün Peyğəmbərin yanına gedirəm. Bir az gecik ki, mən ondan öz tövhəmi alım.

Hz. Əli Əleyhissalam dedi:

- Ya Salman. Sən əmim oglundan nə müjdəsi alacaqsan? Dünya malı əl kiridir, yuyarsan, gedər. Ondan axirət haqqı istə.

Hz. Salman sorusdu:

- Ya Əliyyül-Mürtəza, mən əmin oğlundan nə müjdəsi istəyim?

Həzrət buyurdu:

- Birinci, soruşarsan ki, əmim oğlu mənim quyuda qazandığım qələbəni necə qiymətəndirir? ikinci, mehracda Allah Təalanın öyrətdiyi 3 min kəlmədən 1000-i aşkarda deyilir, 1000 kəlməsi onun ixtiyarındadır. 1000 kəlməsi isə onun və Allah arasında gizlidir. O, gizli olan kəlmənin birini istə.

Salman Peyğəmbər Əleyhissalamın yanına qaçdı. Hz. Əli Əleyhissalam onun arxasınca gedirdi. Hz. Əli Əleyhissalam gördü ki, Salman geri qayıtdı. Hz. Salmandan soruşdu:

- Nə üçün geri qayıtdın?

Salman dedi:

- Ya Əmir əl-möminin, mənim quyunun başında kiçik zənbildə yüküm qalıb. Onu götürəcəm. Həzrət

və Salman quyunun yanına gəldilər və gördülər ki, bağın yanında bir zənbil var. Salman dedi:

- Ya Əli, bu zənbili mənim çiynimə qoy!

Hz. Əli Əleyhissalam zənbili yerindən qaldırmaq istədi. Həzrət gördü ki, zənbil çox ağırdır və yerindən qaldırmaq mümkün deyil. Həzrət iki əli ilə zənbildən tutaraq, "Ya Mehdi!" deyib öz çiyninə aldı. Dedi:

-Ya Səlman, sənin kiçik yükün budur?

Hz. Cəbrayıl buyurdu:

-Ya Əli, sənin gücünü mələklər imtahan edirdi. Səninlə gələn mən idim, Salman deyildi. O zənbilin içərisində ayın ağırlığı qoyulmuşdu və mələklər də zənbildən aşağı çəkirdilər. Sənin çiynində olan zənbil və mələklərdir.

Mələklər Hz. Əli Əleyhissalamın arxasında dayanıb, o Əşrəfi yaratdığına görə Allah Təalaya səcdə edirdilər. Salman Farsi Peyğəmbər Məhəm-məd əl-Müstəfanın hüzuruna gəldi. Salam edib Həzrətdən müjdə istədi. Salman dedi:

-Ya Rəsulallah, iki müjdə istərəm: 1-ci, quyuda Cəfərin qoşunu ilə döyüşərək qələbə çalan Əlinin Həqq dərgahında yeri nədir?

Hz. Rəsulallah buyurdu:

- Hər kim əmim oglu Əliyə xaş-xaş danəsinin mində biri qədər məhəbbət etsə, Cəhənnəm əzablarından azad olar. İkinci müjdə nə istəyirsən?

Salman dedi:

- İkinci müjdəm, Ya Rəsulallah, sən Mehracda olarkən 3000 kəlmə öyrənmisən. 1000 kəlməsini deyirsən. 1000-i öz ixtiyarındadır, deyə də bilərsən, deməyə də bilərsən. 1000 kəlməsi Allah və sənin arandadır, deyə bilməzsən. Allahla sənin aranda olan deyilməz kəlmənin birini müjdə istəyirəm.

Hz. Rəsulallah Salmanın bu müjdəsini eşidib rəngi saraldı. O zaman Hz. Cəbrayıl Əleyhissalam dedi:

- Ya Rəsulallah, qorxma! De, o kəlməni ki, Salman müjdə sahibi olsun.

Hz. Peyğəmbərin üzünə nur gəldi. Dedi:

- Əssəlmani Minni - mənası Salman da bizimlədir. Ey Salman, mənim dostum mənə dost olar, Allaha da dostdur!

***Əssalamün Əleykum, Ya Əba Ədbüllah! Salam olsun sənə, ey Rəsulallah!***
***Salam olsun sənə, Ey Məhtiyi Sahibəzzaman!***



# ƏLF LAAM MİİM

Allah Təaladan nazil olunan Qurani-Kərim Allahın Rəsulu Məhəmməd əl-Mustafa (salam olsun ona!) vasitəsilə insanlara Allahı tanımaq üçün göndərilmişdir. Quranda olan "Əlif", "Laam", "Miim" şifrəli hərflərdəndir (hərfi-məqtəədir). Quranı təfsir edənlər "Əlif", "Laam", "Miim"i "Allah görən və biləndir" kimi təfsir etmişlər. Lakin Quran dini, fəlsəfi, bioloji, riyazi astronomik elmlər baxımından mənalandırılmalıdır. Quran təfsir edənlər onu dini-fəlsəfi məna ilə təfsir etmişlər. Quranın təfsirini oxuyanlar çıxarılmış üz mənaları anlamaqda çətinlik çəkirlər. "Əlif", "Laam", "Miim"in hər bir hərfi ayri-ayrılıqda üç hərfdən ibarətdir. Məsələn, Əlif bütöv "a" kimi oxunur, ikincidə yarımçıq "a" kimi, üçüncüdə "həmzə" kimi gizlənir. Məsələn, "agah" sözündə "Əlif" bütöv "A" kimi oxunur. İkinci, "Əl Şəms" sözü "Əşşəms" kimi oxunur. "Əlif" bu sözdə gizləndiyinə görə şin hərfinin üzərinə "təşdid" işarəsi qoyulur. "Təşdid" türkcə "hərfləri (səsləri) sıx" deməkdir. Bu zaman "şin" səsi iki səs qədər uzadılır. Üçüncü, "Möminin" sözündə "Əlif" tamamilə gizlənib, həmzə işarəsi ilə "ö" səsini verdi. "La" üzərində "Əlif" olmasa, "Lam Əlif La" oxunmaz.

"Miim" də üç hərfdən ibarətdir: bütöv Mim, qəlb Mim, gizlənən Mim.

Birinci: Əlif, Laam, Miim, - La İlahə İlləllah- Məəbud (türkcə mənası: Yoxdur Allahdan başqa Allah ki, Əbədi olsun. )

İkinci: La İlahə İlləllah, Məhəmməd ər-Rəsuləllah, Əliyyən Vəliyyullah (türkcə mənası: Yoxdur Allahdan başqa Allah, Məhəmməd onun Rəsuludur, Əli Yaradanın vəlisidir)

Üçüncü: La ilahə illəllahi məlum (Mənası: Yoxdur Allahdan başqa Allah ki, hər şeydən xəbərdar olsun. Odur bilən və görən. )

Dördüncü mənası: La İlahə İlləllahil Əl-Məhdi. (Yoxdur Allahdan başqa Allah, ona Həmd edənləri Hidayət edəndir. Məhdi Məhəmməd Əl-Müstəfa soyundan gələn sonuncu diri İmamdır (Üçuncu Adəmdir). Məhdi Quran elminin gizli sirlərini insanlara öyrədəcəkdir. İnsanlar elmin gücü ilə birinci göydə olan ulduzları gəzəcəklər. Biologiya elmi o qədər inkişaf edəcək ki, indi qorxduğumuz kimyəvi, fiziki, riyazi, lazer, atom, nüvə yeni bioloji elmlər qarşısında aciz qalacaq. İnsanlar biologiya elmi ilə bir adamın başını başqa bir adamın bədəni üzərində və heyvanların bədəni üzərində yaşadacaqlar. İnsanların boyu dörd dəfə kiçilib otuz, qırx santimetr hündürlüyündə olacaq. İnsanların başları bədənindən böyük olacaq. Belə həyat qalan iyirmi dörd min il ərzində olacaqdır.

"Əlif" Allahın adına bağlıdır. Allahın adını təfsir etmək və ya mənalandırmaq insanların elmi xaricindədir. "Əlif" hərfini mənalandırmaq Yaradanda olan və olmayan sifətləri, yəni Sifati- Səlbiyyəni və Sifati-Sübutiyyəni bilmək deməkdir. Onu qəbul etmək isə vacibdir!

Quranı doğru oxumaq Quran oxuyanlar üçün vacibdir. Quranda olan hərəkələr yerində oxunmazsa, oxunan ayələr mənasını dəyişər. Odur ki, həzrəti Əli Əleyhissəlam buyurmuşdur: "Rübbətlil Quranə vəl Qurani vəl Ənəhu" (türkcə mənası: Çox Quran oxuyanlar olar, Quran özü onlara lənət oxuyar.) Quranı oxuyub onu dərk etməlisən. Quran hökmlərini öz üzərində tətbiq etməlisən. Quran kəlamlarını öz uzərində tətbiq edərkən ruhun sənə Allah qarşısında aciz olduğunu göstərəcəkdir!

"La" ərəb dilində yox deməkdir. Əlif, Laam, Miimdə "La" dörd ədəddir. Laam və Miimin üzərində "mədd" işarəsi vardır. Mədd ərəb dilində "uzat", "çək" deməkdir. "Lam" hərfinin üzərində mədd olduğuna görə "Lam" dörd "La" hərfi olur. "Mim" hərfinin üzərində "mədd" işarəsi var. O da dörd "Mim" deməkdir. "Əlif", "lam, "mim" oxunanda, "lam"ın son səsi "mim" olur. Ondan sonra gələn hərf "Mim"dir. Hərflər eyni cinsdən olduğuna görə idğam "Mütəcaniseyn" kimi oxunur. İdğam olarkən üzərinə "təştid" işarəsi gəlir. "Təştid" hərfləri (səsləri) sıx deməkdir. Quran

oxunarkən "mədd" hansı hərfin üzərində olarsa, dörd səs qədər uzun oxunur. "Təştid" olarsa, iki hərf qədər uzun oxunmalıdır. Dörd "Lam"ın birini Allahın adına bağlı "Əlif"in qarşısına qoyaq. "La İlahə" deyilər, qalan üç "La"-nı düzsək, "İlləllah" oxunar. Dörd "Mim" hərfi yuxarıda göstərdiyim kimi Əzəmətli adlarla ifadə edilir. Dörd "Lam", iki təştid - edər altı. "Əlif, " "Laam, " "Miim"in riyazi hesablanması belədir:

-Tək "Lam" hərfi altı rəqəmdir. Altı o deməkdir ki, Allah Təala Qurani-Şərifdə xəbər vermşdir: yerlərin və göylərin bir-birinə bitişik halını bir zərblə ayırdım! Altı günə yerləri və göyləri xəlq edərək öz yaratdığım Aləmlərin sərhədlərini daima genişləndirirəm! Əgər dörd altı rəqəmini yan-yana düzsək, altı min altı yüz altmış altı (6666) edər. Bu, o deməkdir ki, Allah tərəfindən nazil olunan Quran ayələri də 6666-dır. Altını altıya vursaq, otuz altı edər. Allahın bir günü otuz altı min ildir. İki otuz altı yetmiş iki edər. Quranda yetmiş iki min MİM hərfi vardır. Üç Adəm ömrü yetmiş iki min ildir. Adəm, Nuh, Məhdi. (O Ənbiyalara salam olsun!) Altını beşə vursaq, otuz edər. Adəm övladlarının bir ayı otuz gündür. Altını dördə vursaq, iyirmi dörd edər. Adəm övladlarının bir gecə, bir günüzüdür. Altını üçə vursaq, on səkkiz edər. Yer ona məxsus iki ruhla birlikdə (həyat ruhu, cism ruhu) on səkkiz min aləmdir. İnsan dörd şeydən

xəlq olduğuna görə on altı min aləmdən ibarətdir. İnsanda üç Ruh Yerdən artıq olduğuna görə kamil insan iyirmi bir milyon canlı hüceyrədən ibarətdir. Laam, Miim hər biri dörd olduğuna görə iki dörd (səkkiz)-Cənnət qapılarına aiddir. Cənnət səkkiz qapıdan ibarətdir. Dörd ünsürdən xəlq olunan insan dörd rəngdədir: ağ, qırmızı, sarı, qara. Dördü dördə vursaq, on altı edər. Demək, insan daxili orqanları ilə birlikdə on altı rəngdədir. Altını ikiyə vursaq, on iki edər. Bir ilimiz on iki aydır. Bir ayın gecəsini və ya gündüzünü – yəni, 15 günü iyirmi dörd saata vursaq, üç yüz altmış edər. Yer kürəsi üç yüz altmış dərəcədir. Tək qalan altını, üç yüz altmışın üzərinə gəlsək, üç yüz altmış altı edər. Yer kürrəsi üç yuz altmış altı günə Günəş ətrafinda dövr edərək bir ili tamamlayır. Qalan altını, üç yüz altmışdan çıxsaq, üç yüz əlli dörd edər. Bu da ayın yer ətrafında bir dövrə edərək bir ilini - ay ilini tamamlamasıdır. “La” inkar hərfidir. Allahı inkar edənlər dünyasını və axirətini yox edər. Şeytanı inkar edənlər dünyasını da, Axirətini də var edərlər. “La” hərfinin bioloji mənasını Quran Kəlamlarından kənara çıxmadan isbat etmək üçün canlılar üzərində canlıların yaşamasını Əyyub Peyğəmbər haqqında danışarkən tanış olacaqsınız.

## *HEKAYƏT*

Həzrəti Əyyub peyğəmbər tək Allaha qəlbində yer edən varlı, qövmü arasında çox sevilən, on iki oğul atası idi. O da Mürsəl peyğəmbərlərdəndir. Bir gün İblisi-ləin Allaha minacat edib dedi:

-Ey Yaradan Xaliq! Mənə vəd vermişdin ki, Adəm övladlarının qəlbinə girim. Əyyuba o qədər sərvət vermisən ki, o, mənim fellərimə uymur. Onun sərvətini əlindən al ki, səni inkar etsin.

Yaradan Xaliq dedi:

- Aldım Əyyubun sərvətini əlindən. Get Əyyubu yoldan çıxart. Məni inkar etsin, səni qəlbində var etsin.

Az zaman keçdi, Həzrəti Əyyubun əkin bağları, ayrı-ayrı afətlərdən yox oldu. Qoyun sürüləri və bütün əmlakı məhv olub əlindən çıxdı.

İblis Əyyubun yanına gəlib dedi:

-Allah sənin bütün sərvətini əlindən aldı. Aya, Allahdan razısanmı?

Həzrəti Əyyub dedi:

-Sərvəti verən də Allahdır, alan da Allahdır. Mənim qəlbimə Allah sevgisindən başqa heç kimin sevgisi daxil ola bilməz!

İblis Allaha minacat edib dedi:

- Ya Rəbbi! Əyyuba verdiyin övladlar Əyyuba himayə edirlər. Övladlarını əlindən al ki, o, səni inkar etsin.

Az zaman keçdi, Əyyubun var olan övladları uçaraq çökən divarın altında qalıb fani dünyadan köç etdilər. İblis Əyyuba dedi:

- Allah sənin övladlarını əlindən aldı. Aya, Allahdan yenə də razısan?

Əyyub dedi:

- Övladı, sərvəti, şanı-şöhrəti verən də Allahdır, alan da Allahdır.

İblis Allaha minacat edib dedi:

-Ey Yaradan! Əyyuba elə sağlam bədən vermisən ki, heç can ağrısından əziyyət çəkməyib. Can ağrısı görsə, xəstəlik Səni onun yadından çıxarar, Səni inkar edər.

Az vaxt keçdi. Əyyubun bədəninə cüzam xəstəliyi müsəllət oldu. Onun bədənində olan sulu yaralardan bəd iylər gəlirdi. İblis şəhər əhlinin içərisinə girib vəs-vəsə etdi:

-Ey camaat, Əyyubun bədənində olan cüzam xəstəliyi sizi də vardan yox edər. Əyyubu şəhərdən çıxardın ki, xəstəlik sizə müsəllət olmasın.

Şeytana uyan münafiqlər Əyyub peyğəmbərin evinə gəlib dedilər:

- Ey Əyyub! Səndə olan pis xəstəlik bizə bulaşar, şəhərdən çix!

Əyyubu şəhərdən çıxartdılar. Yaşadığı evi yandırdılar ki, Əyyub yenə də ora gəlməsin. Əyyub arvadı ilə şəhərdən çıxıb çuxur bir yerdəki xərabəliklərə sığındılar. Əyyubun arvadı, Əyyubu çox

sevən saleh bir qadın idi. Qadın Yusif peyğəmbərin qızı idi. Əyyubun xəstəliyinə görə Əyyubun arvadı hər gün şəhərə gedər, varlı adamların evlərində işləyib gündəlik ruzu və dava-dərman haqqı qazanardı. Xəstəlik Əyyubu o qədər hərəkətdən salmışdı ki, durub-oturmağa taqəti qalmamışdı. İblisi-ləin Əyyubun arvadının iş tapıb işləməsinə və dilənməsinə maniələr yaradırdı. Qadın da son günlər nə iş tapa bilirdi, nə də dilənçi haqqı yığa bilirdi. Həzrəti Əyyub və arvadı günlərlə ac qalırdılar. İblis məlun Hz. Əyyubun sığınmış olduğu xərabəliklərə gəlib Əyyuba dedi:

- Ey Əyyub! Sənin çox sevdiyin Allah sənin var-dövlətini, oğlanlarını, el arasında şan- şöhrətini əlindən aldı. Sənə elə misli görünməyən xəstəliklər verən Allahından sən hələ də razısan?

Həzrəti Əyyub dedi:

- Varı, dövləti, övladı, şanı, şöhrəti mənə Yaradan vermişdi, mənim də cismim və ruhum Yaradanın haqqıdır. Allah mənim cəzamı şədid etsin, bəlkə Qiyamət günü Yaradan Allah Haqqını ödəməyə vəsilə olar.

Həzrəti Əyyub varla yox arasında qalmışdı. Həzrəti Əyyub bədənindən yerə düşən qurdları yerdən götürüb yaralarına qoyurdu. Əyyuba İblis dedi:

- O qurdlar sənin canını yeyir, niyə o qurdları yerdən götürüb öz yaralarına qoyursan?

Əyyub dedi:

- Bu qurdlar sənin kimi mənim cismimdə yox idi. Allah onları yoxdan var etdi, mənim cismimi onlara azuqə etdi. Əgər mən Allah yaradanları azuqəsindən ayırsam, qul haqqına görə Allah yanında günahkar olaram. O, Bilən və Görəndi. Onları cismimdən ayırmaq mənım haqqım deyil.

İblis Əyyubun sözunü eşidib xərabəliklərdən ayrıldı, gördu Əyyubun arvadı Rəhimə evlərinə gəlir. Onun qarşısını kəsib dedi:

-Ey övrət, bədənini qurd basmış Əyyubun yanından uzaqlaş! Sənin övladların öldü, zəhmətlə yığdığın sərvət dağıldı. Əyyub nə sənə, nə övladlarına vəfa qılmadı.

Arvad dedi:

- Allah sənə öz lənətini göndərsin, ey İblis! Allah Rəsulunun yanından uzaqlaş! Allah peyğəmbərini qəmgin etmə! Varı, dövləti, övladı Əyyuba verən bizi Yaradan idi. Vermək də onun haqqı idi, almaq da! Şükürlər olsun Yaradana ki, bizi yoxdan var edib. Biz İblis deyilik ki, ondan sən tək əda edək, Allah yaradan gözəlliklərə şükür etməyək!

İblis arvadın bu sözlərini eşidib başına döyə-döyə, ağlaya-ağlaya ordan uzaqlaşdı. İblis şəhər əhlini qadına qarşı o qədər kinli etmişdi ki, ona nə iş, nə də dilənçi haqqı verirdilər. Bir gün yenə də qadın Günəş qürub edəndə əliboş geri qayıdırdı. İblis onun qarşısını kəsib dedi:

- Ey övrət, haradan gəlirsən?

Qadın dedi:

- Günlərdir xəstə olan Allah peyğəmbərinin dərmanının və azuqəsinin pulunu qazana bilmirəm. Bu gün də heç nə qazana bilməmişəm. Can yoldaşım bu gün də dərmansız və ac qalacaqdır.

İblis məlun güya arvada və Əyyuba canı yanırmış kimi davranıb dedi:

- Mən sənə iş verərəm. Əgər mənim cırılmış köynəyimi yamasan, sənə bir qab ayran verərəm, həm yeyərsiniz, həm də məlhəm edərsiniz.

Rəhimə İblislə razılaşıb köynəyi yamamağa başladı. Yamadığı köynək sökülürdü, gecə yarıya qədər köynəyi tikə bilmədi. Köynəyi İblisə qaytarıb dedi:

- Köynəyi yamaya bilmədim ki, zəhmət haqqı alam. Bu gün də can yoldaşım ac qalacaq. Xəstə yoldaşımı tənha buraxmayım.

Qadın xərabəliyə gəlib:"Bu gün də rizqimiz olmadı, ya Əyyub. Dua et ki, sabah Allah bizə ruzi versin, "-dedi.

Əyyub əllərini Allah dərgahına qaldırıb dedi:

- İlahi, hər şeyi bilən və görənsən. Sən istəyən bizim qəbulumuzdur.

Yenə də arvadla birlikdə Yaradanın təqdirinə şükr etdilər. Səhəri gün arvad ruzu qazanmaqdan ötrü şəhərə getdi. Heç nə qazanmayıb geri qayıdırdı. İblis onun qarşısını kəsib dedi:

- Ey övrət, bu gün də bir şey qazana bilmədin?

Arvad dedi ki, bəli, heç nə qazana bilmədim.

İblis dedi:

- Mənim də xəstəlikdən başının tükü tökülmüş bir qızım var, ona saç almaq üçün şəhərə gedirəm. Saçlarını mənə satsan, sənə süd verərəm. Sənin ərin bu gün ac qalmaz, mənim də qızım saçsız qalmaz.

Arvad İblislə razılaşıb saçının birini İblisə satdı. İblis saçı götürüb Əyyubun yanına gəldi. Saçı Əyyubun üstünə atıb dedi:

-Ey Əyyub, sənin arvadın pis yola düşüb, bu da onun saçları.

Əyyub qəzəblənib dedi:

- Vallahi, mən bu xəstəlikdən ayılsam, arvada yüz çubuq vuracağam.

Arvad evə gəldi, gətirdiyi südü qızdırmaq üçün ocaq üstünə qoydu. Əyyubun bədəninə məlhəm çəkib südü gətirməyə getdi. Gördü çöl quşları südü dağıdıb. Ağlaya-ağlaya əllərini Allah dərgahına götürdü. Əyyuba Allahdan nicat istəyib dedi:

-İlahi, mənim ömrümü uzun et ki, sən Yaradan peyğəmbərin qulluğunda durum və birlikdə sənə qulluq edək.

Əyyubun saleh arvadının duasını Allah eşidib, Mələyi Cəbrayılı yer aləminə göndərdi. Həzrəti Cəbrayıl Əyyuba dedi:

-Allah sənə arvadının duası ilə nicat verdi. Arvadı çağır, səni yaxında olan tut ağacının altına aparsın.

Arvad bədəni ərimiş Əyyubu qucağına alıb tut ağacının altına apardı. Əyyubun sümüyə qədər qurd yemiş bədənini qumlar əzməsin deyə ayaqları arasında qucağına alıb yerə oturdu. Hz. Əyyubun ayaqları arasından torpaq aralandı, oradan su püskürməyə başladı. Arvad Əyyubu o suda çimizdirdi. Əyyubun bədənindəki yoxdan var olan qurdlar tökülüb, yaxında olan tut ağacına dırmandılar, tut yarpağından yeyib ipək parça toxudular. Suda çimən Əyyub və arvadı Allah nuruna boyanıb gözəlləşdilər. Barama qurdlarının toxuduğu parçalara bürünüb Yaradana şükr etdilər. Yaradandan nida gəldi:

-Ey Əyyub, sən doğurdan da, bəyənilmişlərdənsən!

Hz. Əyyub minacat edib dedi:

-İlahi, Yaradanın adına and içmişdim ki, arvadıma yüz çubuq vuracağam. Bilirəm arvad günahsızdır, Sənin adına vəd verdiyimi poza bilmərəm.

Allahdan nida gəldi:

-Ey Əyyub, vədə xilaf olan Allah yanında günahkardır. Sən yüz çubuğu bir yerə bağla, onunla bir dəfə arvadı vur. Əgər qadının bədənində rəng dəyişikliyi olsa, qul haqqı olaraq qırx manat qızıl

pul füqəralara kəffəra verməlisən! Arvadla halallaşmasan, mənim yanıma günahkarlardan biri olaraq gələcəksən. Sənin dünyada qazandığın savablar arvadın günahları ilə dəyişdiriləcək.

Allah Hz. Əyyubun divar altında qalan övladlarına həyat verdi. Əvvəlkindən də çox sərvət, şan-şöhrət verdi! "La" inkar hərfidir. Yoxdan var edən, vardan yox edən ULU Tanrıdır!

## *N Ə T İ C Ə*

Yaranmış bütün canlıların biri digəri ilə qidalanıb həyatlarını davam edərlər. Buna misal leş arılarıdır. O arılar nəmli torpaqları deşib torpaqda yaşayarlar. Onlar nəsillərini artırmaq üçün yer altında yaşayan soxulcan qurdlarını tapar, öz bizləri ilə onları keyləşdirər, ana arılar öz toxumunu soxulcanın qarnına boşaldarlar. İyirmi bir gün ərzində ananın qoyduğu toxumlar arı olar, soxulcanın keyi açılanda içəridən soxulcanın qarnını bizləyib yenidən keyidərlər. Arılar soxulcanın qarnından xaricə doğularaq bal arılarını yeyərlər. Qış gələndə onlar çuxurda olan yuvalarında sudan boğulub ölərlər. Ana arılar hündür qayalarda özlərinə yuva düzəldər, ölməzlər, öz nəsillərini beləcə davam etdirərlər. İblisə uyanlar yırtıcı arılar kimi öz yuvalarında boğulub Cəhənnəmə vasil ol-

arlar. Hər şeyi yoxdan var edən, vardan yox edən Allahdır!

Bildiyimiz kimi, bütün canlıların şahı və əşrəfi vardır. Bizə həyat verən hava və su da canlıdır. Onların da Əşrəfi vardır. Göylərdə olan buludlar bir-biri ilə toqquşub müharibə edərlər. Onların toqquşmasından yaranan ildırım və ya şimşək havanı yandırıb qara kömür kimi yerə tökər. İnsanlar o kömürləri tapıb qara almaz kimi bahalı qiymətə alıb-satarlar. Havanın Əşrəfi Almas olmaqla özünü göstərir. Novruz bayramından iyirmi dörd gün sonra yerin tavanında gəzən buludlar dünyanın hər yerinə yağışlar tökər ki, bu da iyirmi bir gün ərzində olar. Yeri canlandıran o yağışlar "Ağ yağış", "Babili", "Abi-leysan" və ya "Gövhər" adı ilə tanınır.

Sərhədsiz Yer tavanında gəzən bulud okeanı yerdə olan sərhədli dörd okeana da yağar. Okeanlarda yaşayan gövhər ilbizləri istilənmiş dəryalardan su üzünə çıxar, sümük qapaqlarını açıb yağan gövhər yağışlarını udarlar. Sudan doymuş ilbizlər suyun dibinə gedərlər, qarınlarında olan yüngül yağış suyu ağır, duzlu suda ilbizin qapağını açmağa qoymaz. İlbizin qarnında olan şirin su onu boğub öldürər. Su ilbizin qarnında illər keçdikcə gövhər yaranar. Qəvvaslar o gövhərləri suyun altından yığıb ziynət əşyası kimi baha qiymətə satarlar. Canlıların Əşrəfi su kimi gövhər olar.

Gözlərimiz Allah yaradan dağları-daşları, dənizləri, buludları, bütün canlıları seyr etməkdədir. Lakin ondan həyat aldığı havanı görmür. Ona görə ki, Allah Təala yaratdığı canlılardan gözlərimizə görünməyənlər də var. Məsələn, Mələklər, Cinlər. O cümlədən, hava. Hava da Cinlər kimi Lətifdir. Şüşə lətifdir, eynəkdən baxarkən ətrafımızda nə varsa, görürük. Hava min bir rəngdən ibarətdir. Bizim gözlərimizdə olan Allah nuru lətif yaradılmışları kəsib keçər. Lətif şeyləri görmək bizim gözlərimizin işığı qarşısında görünməzdir. Əgər başqa yerdə yağış yağarsa, yağışdan sonra çıxan Günəş işığı ilə havaya qarışan su buxarları havanın sıxlığını çoxaldır. O zaman hava altı rəngdən ibarət göy qurşağı kimi tanınır. Yarımçevrə şəklində gözümüzə görünür. Tanrı yer üzünün şahı olan insanları belə ziynətli hava içərisində yaşadır. İnsanların da su kimi, hava kimi, əşrəfi vardır. Allah sevgisinə layiq olanları öz "RUHU" təsdiq edir. Ruh beşdir:

Birinci, cismi ruh. O, insan cismini çöldən və içəridən sıxmaqla parçalanmağa qoymur.

İkinci, həyvani ruh, həyat ruhu.

Ücüncü, səhrayi, gəzəyən ruh, yuxu ruhu.

Dördüncü, ruhani, ağıl və şüur ruhu.

Beşinci, Təyyi ruh, təyinatlı ruh. Bu İmamlarda, kamil alimlərdə, Ənbiyalarda olur. Onların zəhməti və elminə görə verilir.

Yer kürəsinin cismi böyük olmasına baxmayaraq iki ruhu vardır. Cismi saxlayan ruh və həyat verən ruh. Heyvanlarda üc ruh vardır. Cismi saxlayan ruh, həyat ruhu və səhra ruhu. Səhra ruhu olmadıqda heç yaranmış yuxu görə bilməz- qarışqa kimi. Heç yatmayan canlı qarışqadır.

Dördüncü ruh insanlardadır.

Beşinci ruh onu qazananlara aiddir. Bu ruhu qazananlar insanların Əşrəfidir.

Hesab edin ki, mən ölmüşəm. Məni ölü yuyanlar yuduqdan sonra meydana qoyur, övlad, uşaqlarım və dostlarımla vidalaşmaq üçün icazə verirlər. Cəsədimin ətrafına yığılan insanları görən cismimdən ayrılan Ruh insanların içərisindən təəccüblə çıxdığı cismə tamaşa edir. Anlayır ki, o, cismdən ayrılmışdır. Əgər mən pis adam olsam, öz ruhum mənə baxıb deyər:

-Ey cism, səninlə bərabər yetmiş il bir yerdə yaşamağa məhkum idik. Ancaq sən heç haqq tanımadın. Allah verən əqldən yararlanmadın. Şeytanın fitnələrinə inanıb hər xətalı, bəlalı yerə məni sürüklədin. Qorxunc olan böhtanlara, qan tökməyə, Allahın haram buyurduğu şeylərə məni şahid etdin. Ey cism, yetmiş il səni çiyinlərimdə gəzdirdim. Sən o qədər ağır idin ki, səni gəzdirməyə əzab çəkirdim. Sən mənə o qədər əziyyət verdin ki, öz haqqımı sənə halal etmirəm. Allah səni mənimlə bir daha görüşdürməsin!

Ruh öz cisminə lənət oxuyub aləmi-Bərzəxə gedər. Aləmi-Bərzəx Ruhların qalan ömürlərini tamamlamaq üçün olan Ruhlar məkanıdır. O yer torpağı olmayan, yerdən uzaq hava və su ilə zəngin bir planetdir.

Hesab edin ki, mən yaxşı adamam! O zaman mənim ruhum cismimdən ayrıldığını hiss edər, yenə də cismimə qayıtmaq istər. Yaradan Xaliq o cismi diriltməyə icazə verməz. Ruhum insanlar kimi baş-gözünə doyüb ağlayaraq deyər:

- Ey cism, yetmiş il səninlə bir Cənnətdə yaşadıq. Yetmiş il mənə qulluq etdin. Allah qoyan qanunları artıqlaması ilə yerinə yetirdin. Məni həmişə sevindirdin. Yetmiş il sənin çiyinlərinə mindim. Cismindən qırx dəfə böyük olsa da məni gəzdirdin. Nə istədim, onu etdin. Məni incitmədin. Sənin yanında o qədər günahkaram ki, səninlə halallaşmağım çox çətindir. Dilərəm Allahdan, məni sənin kimi gözəl, ziynətli, xoş cismimdən ayırmasın. Qiyamətə qədər sənə qulluq edim. Qiyamət gününə qədər mənim günahlarımı bağışlayasan. Mən də Qiyamətə günahkar qismində getməyim. Dilərəm, Allah məni də sənin kimi sevdiklərindən hesab etsin. Qiyamətdən sonra da öz sifətinlə mənə mehman olasan. Səndə olan nur məni görməyə vadar etdi. Qulaqlarımla eşidirəm, gözlərimlə görürəm, dodaqlarımla danışıram, qəlbimlə hiss edirəm! Mə-

nə görməyi, eşitməyi, danışmağı, hiss etməyi təlim etdin.

Ruh əllərini Allah dərgahına götürüb Allahdan öz cismindən ayrılmamasını istər. Allah Təala ona məxsus olan Ruhu eşidib cismin ətrafında yaşamasına icazə verər. Mən öldükdən sonra insanlar da mənim yaxşı, ya pis olduğumu hiss edərlər. Pis adamların qəbirləri sahibi tərəfindən heykəllərlə bəzədilər. O heykəlləri görənlər onu yaşamış kimi hiss etməzlər. Daş parçası kimi faydasız bilərlər. Əgər mən yaxşı adam olsam, insanlar mənə Allahdan rəhmət dilər və özləri hiss etmədən mənim qəbrim üzərində Barigah (fars dilində ~ ruhun və cismin sığındığı yer mənasındadır) tikərlər. Çünki mənim ruhum canlı olaraq mənim cismimin yanında qərar tutduğuna görə, o Kamil İncan və Ruh xatirinə qəbr evi hazırlarlar. Özləri də mənim kimi yaxşı adam olmağa çalışaraq mənim qəbrimi ziyarət edərlər. Belə məqbərələr İmamlar, Nəbilər, Ənbiyalar üçün mövcuddur. Məsələn, Allahın Rəsulu Məhəmməd əl-Mustafanın barigahı, on iki imamın ziyarətgahları. İnsan yaşayarkən ona 21 mələk qulluq edər. İki mələk çiyinlərimizdə dünyada qazandığımız savab və günah işlərimizi qeyd edər. On doqquz mələk isə ixtiyar sahibi olaraq insanları qoruyar. Əgər insan kamil olarsa, onun əqlinə görə yaradan xaliqdən ona qulluq etmək üçün min-min mələk icazə istər. O mələklər kamil

insana qulluq edib, onun daxilinə və xaricinə nur səpərlər. Kamil insan öldükdən sora o mələklər də cismin qulluğunda qalar. O əşrəf insanlara qulluq edən mələklər cismin və ruhun xatirinə nəzir edən insanlara kömək edər. Onun nəzirinin qəbul olunması üçün yaradana səcdə edərlər. Əşrəfi-kainat olmaq şərəfinə 313 səhifə, bir yarım kitabə, 3 Səmavi kitabın cəmləşdiyi bir Quranın və ya Fürqanın sahibi olan Məhəmməd əl-Müstəfa layiq görülmüşdür. Odur əşrəfi-kainat, heç tövbə etməyən, heç günah etməyən.

Salavat salam olsun Əşrəfi-kainata və Ali-əbaya ki, biz onları tanıyıb Yaradan Xaliqin Adəm övladı kimi təsdiq edirik.

## *M Ü Ə L L İ F K Ə L A M I*

EY Allahın Rəsulu! Qədiri-xunda əmin oğlu Əlini Səndən sonra vəsi təyin etdin. Əlini təbrik edənlər, səndən sonra Sənin minbərini "QƏSB" etdilər! Mən də Sənin minbərini işğal etdim. Sənin Minbərini elmimlə, ruhumla təmizləmək üçün məşğul etdim ki, ağam MƏHDİ pak minbərdə əyləşsin!

"Laam" inkar hərfidir. İnkar yoxu var edər, varı yox edər. "Əlif", "laam", "mim"də olan "lam əlif la" hərfini sağdan sola və ya soldan sağa yığsaq, onun ardınca "əlif" hərfini yazsaq, "əlif" hərfinə

“mim” hərfini birləşdirsək, Məhdi Əleyhissəlamın (3-cü adəm) atası Allahın şiri olan Əli Əleyhis-salamın islam yolunda istifadə etdiyi Zülfüqarı görərsiniz. “Əlif”, “Lam”, “Mim” Zülfüqarın rəmzi işarələridir. Zülfüqarın kəsici hissəsinin son ucu “La” hərfidir. Dəstəyə birləşən düz xətt “əlif” hərfidir. Dəstəyin sonu “mim” hərfinin həlqəsidir. Dəstəklə kəsici hissəni ayıran hissə -“mim”lə “əlif”i ayıran hissə Əli Əleyhissalamın əlidir. “ƏLİF”, “LAAM”, “MİİM”-in üçünçü təfsir mənası yox-dur, Allahdan başqa Allah ki, əbədi olsun.

Allahdan başqa Allah yoxdur, Məhəmməd onun rəsuludur, Əli Yara-danın vəlisidir.

***ƏŞHƏDÜ ƏNLA İLAHƏ İLLƏLLAH!***
***ƏŞHƏDÜ ƏNNƏ MƏHƏMMƏD RƏSULƏLLAH!***
***ƏŞHƏDÜ ƏNNƏ ƏMİR əl-MÖMİNİNƏ ƏLİYYƏN VƏLİYYULLAH!***



# İBRƏT DƏRSİ

Bir gün nəvəm məndən xahiş etdi ki, bir hədis danışım, qulaq assınlar və ibrət götürsünlər. Siz də oxuyun ki, bəlkə səməri dəydi.

Keçmiş zamanlarda bir vilayətdə yaşayan insanların qəribə bir adəti varmış. Bu adət həm də ölkənin şahının əmri ilə həyata keçirilirdi: Ömürlərinin axır çağında, ölüm ayağında olan qoçaları övladları aparıb meşəyə atmalı idilər. Bu hal elə bir vərdişə çevrilmişdi ki, qocalıb əldən-dildən, işdən-gücdən düşmüş yaşlı adam özü oğul-uşağını çağırıb deyərmiş:

-Ay oğul, ay bala, mənim də vaxtım çatıb, məni də başqa yaşı keçmiş adamlar kimi aparıb qoyun meşəyə. Qoy həm sizə yük olmayım, həm də şahın əmrini yerinə yetirmiş olarsınız.

Bir dəfə də meşəyə atılmaq növbəsi yaşlaşıb əldən düşmüş bir pirani qocaya düşür. Qoca kişinin oğlu atasına deyir:

-Canım atam! Sən qırx il mənin zəhmətimi çəkmisən. Məni böyüdüb boya-başa çatdıranacan çox əziyyət çəkdin. Ataya xidmət övladının boynuna gəlir. Şah məni öldürsə də, səni gizlədib qulluğunda duracağam ki, mənim də övladıma ibrət dərsi olsun.

Oğul atasına evin çardağında kiçik bir güşə düzəldir, atasını Şahın ədalətsiz əmrindən gizlədib,

birlikdə yaşayırdılar. Qoça günü-gündən ona gələn yeməyin azaldığını görüb, oğluna deyər:

-Oğlum nə səbəbdən evdə yeməklər azalır, bəlkə məndən bezdin?

Oğul deyir

-Yox, ata ölkədə aclıq, səfalət var. Odur ki, aclıq sona yetər, biz də kasıblıqdan qurtararıq. Hər kəsin azuqəsini verən Allahdır!

Qoca deyir:

-Oğlum, taxılın bol olan vaxtı samanlığa taxıl basdırmışdım, onu çıxart, əkin yerinə səp. Qalanı ilə də təzə taxıl biçilənə qədər dolanarıq.

Oğlan samanlıqda olan taxılı çıxardıb bir qədərini əkin sahəsinə səpir, qalanını qənaətlə işlədirlər. Xəbərçilər şaha çatdırırlar ki, bəs, filankəs taxılın olmayan vaxtı torpağın əkib. Şah oğlanı çağırtdırıb soruşur:

-Bu aclıqda taxılı haradan tapmısan?

Oğlan dedi:

-Atamdan qalan taxılı samanlıqdan çıxardıb səpmişəm.

Şah dedi:

-Sənə məsləhət verən var. Sənə yol göstərən kimdir?

Oğlan dedi:

-Bir hadisə oldu, samanlığı təmizləyəndə taxıl çıxdı, onu əkdim.

Şah dedi:

-Sabah bir dostunu və bir düşmənini mənim yanıma gətir. Əgər gətirməsən, səni edam edəcəyəm.

-Oğlan evə gəlib atasına dedi:

-Ata, gəl vidalaşaq, sabah mən şahın sarayına bir dostumu, bir düşmənimi aparmasam, məni edam edəcək.

Atası dedi:

-Oğlum, sabah mən asılacağam, sən yox!

Oğlan dedı:

-Sənin yaşadığını heç kim bilmir ki, səni asalar.

Atası dedi:

-Sabah arvadını və itini saraya apar, de ki, itim mənim dostumdur. İtə bir-iki ağac vur. İt sənin ayaqlarına düşüb yaltaqlanacaq. Arvadı düşmənin kimi göstər, arvadı da vur. Arvad düşmənliyini biruzə verəcək.

Səhər oğlan arvadını və itini saraya aparır. Şah deyir:

-Bunların hansı sənin dostundur?

Oğlan deyir:

-Qapımda saxladığım it mənim dostumdur. Qoynumda saxladığım arvadım mənim düşmənimdir.

Şah dedi:

-Sübut elə.

Oğan itə təpiyi ilə vurur, yanından qovur, it yenə də sahibinin yanına gəlib sahibinin ayaqları arasına

girir, oğlanın ayaqlarını yalayıb yaltaqlanır. Oğlan arvadına bir şillə vurur. Arvad ərinə çımxırıb deyir:

-Axmaq kişi, məni evdə döyməyin bəs etmir, hələ şah sarayında da döyürsən? Pis kişi, qoca atanı şahdan gizlədib banda saxlayırsan.

Şah dedi:

-Ey oğlan! Dünən demişdin, mənə məsləhət verən yoxdur, arvadın səni satdı. Mənim əmrimə nə üçün itaət etmədin?

Oğlan dedi:

-Şah sağ olsun, məni sevən atamı ölümə tərk etmək mənim haqqım deyil, atamın əvəzinə məni asın, onun sağ qalması mənə Allah sevgisi kimi məlhəm olar.

Şah dedi:

-Ağsaqqalı olmayan ölkə viranə qalar, atan mənə vəzir olacaq. Atanın əvəzinə mənə qocaları asmağa təhrik edən vəzir asılacaq.

Bəli, nəvələrim, ağsaqqallara sahib çıxmasanız, özünüz sahibsiz, ac, əzab içində qalarsınız. Ağsaqqal olmaq üçün yaşlı adamları sevin!!

***ALLAH DA SİZİ SEVƏR !***

# Loğman həkim

Bir gün bir xəstə Loğman həkimin yanına gəlir və onun xəstəliyinə çarə etməsini xahiş edir. Loğman xəstəni yoxlayıb deyir:

-Ey xəstə, sənin müalicəni Allah etsin, mən səni sağalda bilmərəm. Sənin xəstəliyin böyüyüb, iki aya ömrün qurtaracaq. Get evinə, qalan ömrünü sakitcə yaşa. Allah istəyərsə, bir az artıq yaşayarsan.

Kişi evinə gələr, xəstəliyi barədə və loğmanın ona dediklərini heç kəsə bildirməz. Gah uzanar, gah gəzər, oturub ölümünü gözləyər. Günlər keçdikcə xəstənin xəstəliyi daha da şiddətlənər, kişi ağrı-acılara dözə bilməz. Ailəsi ilə halallaşıb evdən baş götürüb gedər. Kişi yəqin etmişdi ki, ömrünün axırına az qalır. Ona görə də heç nə yemir, içmir, xəstəliyin ağrı-acısı çoxaldıqca taqətdən düşürdü. Nəhayət, gəlib bir dağın yamacına yetişər. Yamacda bitmiş qocaman bir ağacın altına sığınaraq Allaha şükürlər edər, son günlərini ibadət etməklə keçirməyi qərarlaşdırar və bu sözlərlə Allahın dərgahına əlini qaldırar, səcdəyə yıxılardı:

-İlahi! Hər şeyi yaradan, yaşadan sənsən! Mənim dərdimə loğman həkim çarə bilmədi. Mənim həkimim Sənsən! Sənsən Həkim, Sənsən Rəhim, Sənsən Aləmlərə Öz Rəhminlə Şəfa verən!

O, bu sözləri elə səmimi, elə qəlbən deyirdi ki, özünü tamamilə unudardı, qəşş edib yıxılar, dərin

yuxuya gedərdi. Belə əzab və əziyyətlə keçirdiyi günlərin birində yenə də dərin yuxuya getmişdi. Yuxudan ayılanda gördü ki, qarşısında bir çoban dayanıb. Çoban soruşdu:

-Ey qərib insan! Kimsən? Haradan gəlirsən? Burada niyə uzanmısan?

Xəstə kişi dedi:

-Mən ağır xəstəyəm. Xəstəliyimi ailəmə demədim ki, onlar da xəstəliyimi bilib qəm –qüssəyə düşməsinlər. İndi də bu ağacın altını özümə məskən etmişəm, oturub ölümümü gözləyirəm.

Çoban dedi:

-Bu dağların gözəl havası, şəfalı bulaqları var. Gəl elə sən mənimlə qal, mənə kömək et, başın da qarışsın. Ölümə həkim yox, Allah qərar verər! Səbr et! Səbr edən Yaradanın dostudur.

Kişi razılaşıb çobanla qaldı. Bir gün çoban evinə getmişdi. Xəstəlikdən əziyyət çəkən kişi çobanın alaçığının ağzında uzanmışdı. Bir də gördü ki, bir şahmar ilan içərisi südlə dolu olan bardağa başını salıb südü içdı. Az sonra yenidən başını bardağa salıb içdiyi südü bardağa qusdu. Kişi öz-özünə deyir:

-İlan qusan südü içim, ölüm, canım qurtarsın.

Kişi ilanın içinə qusduğu bardağı götürüb südü içir. Ha gözləyir ki, indi öləcəm, bayaq öləcəm, amma ölmür. Əksinə, çox keçmir, bir azdan qarnı acır. Yavaş-yavaş ayağa qalxır, bulağın ətrafında

bitən bulaq otundan yığıb yeyir. Günlər keçir. Xəstə tamam sağalıb, evinə dönür. Kişi loğman həkimin yanına gəlib deyir:

-Mən beş ay bundan qabaq xəstələnmişdim. Sənə müalicəyə gəldim, mənə dedin ki, iki aya öləcəyəm. Hələ ölməmişəm.

loğman xəstəni yoxlayıb başa düşdü ki, xəstənin bədənində olan xərçəng xəstəliyi tamam sağalıb. Xərçəngin hüceyrələri tamamilə ölüb. Loğman bu işə təəccüb etdi. Kişidən soruşdu:

-Şahmar ilanın mumiyası, qara qoyunun südü sənin dərmanın idi. Onu da tapmaq çətin idi.

Sən onu haradan tapdın ki, sağaldın.

Kişi başına gələni həkimə danışdı. Loğman dedi:

-Həkimi ALLAH olanın dərmanı ayağına gələr.

## SON HƏKİM

Bir insafsız tacir varlanmaq üçün müamilə ilə pul götürüb İran ölkəsinə ticarətə gedir. Gəlib Ərdəbil şəhərinə çıxar. Bazara girib bazarın ucuz-bahalığını yoxlayır. Bazarın babat olduğunu görüb mal alıb-satmağa başlıyır.

Günlərin birində tacir oğluna deyir:

-Oğlum, mən günlərlə o dükana baxıram, görürəm orada yaxşı alver gedir. Nə qədər baha satırlar, camaat alır. Bir az gözləyək, adamlar dağılsın,

gedək, o dükanı kiralayaq. Tacirlər çox gözlədilər, axır ki, dükan boşaldı. Tacirlər həmin dükanı kiraladılar. Tacirlər bu dükana nə gətirdilər, nə satdılar, hamısını baha satdılar. Tacirin keyfi o qədər kökəldi ki, gözləri qızdı, elə qızdı ki, Ərdəbil şəhərinin adını dəyişdirib ”HƏR NƏ BİL” qoydu. Az keçdi, ata-oğul tacirlər sayı bilinməz qədər pul qazandılar.

Qış gəldı, ata oğluna dedi:

-Gedək öz məmləkətimizə. Bahar gələr yenə də qayıdıb Ərdəbildə hər nə bilsək, edərik.

Onlar Ərdəbildən qayıdanda kişi qızına qiymətli qızıl kəmər də alır. Bir neçə gündən sonra gəlib evlərinə çıxdılar. Kişı bir gün xəstələndı. Oğluna deyir:

-Gəz, yaxşı bir həkim tap gətir, məni tez sağaltsın.

Oğlu bir həkim tapıb gətirdi. Həkim xəstəni yoxlayıb dedi:

-Sənin dörd xəstəliyin var. Bu xəstəliyin biri daha çox inkişaf edib, müalicə olmasan, səni öldürər.

Həkim xəstə ilə müqavilə bağladı ki, filan vaxta səni sağaldacağam. Qızıl kəmərin dəyərinə razılaşdılar. Xəstə sağaldı, həkim qızıl kəməri alıb getdi. Az vaxt sonra kişi yenə xəstələndi. Oğlan yenə də həkim tapıb gətirdi. Həkim xəstəni yoxlayıb dedi:

-Sənin dörd xəstəliyin varmış. Xəstəliklərdən biri tamam sağalıb, qalan üç xastəlikdən biri inkişaf

edir, müalicə olmasan, bu xəstəlik səni öldürəcək. Həkim xəstə ilə razılaşdı, müqavilə bağladılar. Həkim xəstənin müalicəsinə başladı. Xəstə yenə sağaldı. Kişi Hərnəbildən qazandığı pulları və evdə olan əşyaları satıb həkimin müalicə haqqını verdi. Həkim getdi. Kişi dedi:

-Oğlum, mənim xəstəliyim üzündən hər şeyimiz əlimizdən çıxdı. Yaz gələr, gedərik Ərdəbilə, hər nə bilsək edərik. Əvvəlkindən də çox qazanarıq. Müamiləmizi də qaytararıq. Səni də, qızımıda iki baş-dörd əl-ayaq edərik.

Ancaq kişi yenə xəstəliyə düşdü. Oğlan yenə həkim gətirdi. Həkim xəstəni müayinə edib dedi:

-Kişinin dörd xəstəliyi var. İki xəstəliyi müalicə olunub, üçüncü xəstəliyin onu öldürəcək.

Kişi və həkim müqavilə bağladılar. Müalicənin əvəzində evlərini həkimə verməli idilər.

Həkim müalicə edib xəstəni sağaltdı. Kişi evdən çıxıb kirayə ev tutdular və yaşamağa başladılar. Çox keçmədi tacir kişi yenidən xəstələndi. Kişi oğluna dedi:

-İndi heç nəyimiz yoxdur. Pulsuz həkim gətir, elə etsin ki, heç olmasa, qoy ölüm.

Oğlan hara getdi, pulsuz həkim tapa bilmədi. Bir gün fikirli-fikirli evə qayıdırdı. Ona bir qoca rast gəldi, qoca dedi:

-Niyə fikir edirsən?

Oğlan dedi:

-Atam xəstədir. Ona müalicə etməyə pulumuz yoxdur. Pulsuz həkim gəzirəm, tapa bilmirəm.

Qoca dedi:

-Mən həkiməm. Allah yaradanlara əvəzsiz müalicə edən həkiməm! Atanı elə tez müalicə edim ki, bir daha xəstə olmasın.

Həkim xəstəni müayinə edib dedi:

-Sənin axırıncı müalicəni mən edəcəyəm. Birinci xəstəliyinin həkimi aldığın müamilədi, ikinci birə beş alverin, üçüncü xəstəliyinin səbəbi Ərdəbilə HƏR NƏ BİL adı qoymağın. Mən də son həkiminəm, ”ƏZRAYILAM“, pulzuz müalicə edəcəyəm!

# BƏHRİ-EYN

BƏHRİ - EYN ərəb dilində "göz dənizi" deməkdir. Bu dəniz dünyanın ən böyük gölü, okeanlarla əlaqəsi olmayan, dünyanın dördüncü duzlu gölüdür. Bu göl özündən başqa bir gölü də su ilə təmin edər. Əslində bu gölün adı XİZRİ gölüdür. Amma müxtəlif xalqlar öz xeyirləri üçün onu ya Kaspi, ya Bəhri - eyn, ya Xəzər dənizi kimi adlandırmışlar. Xəzər dənizi Qaraboğaz deyilən yerdən (Türkmənistanda yerləşir.) yer altından axıtdığı su ilə Aral gölünü su ilə təmin edir. Xəzər altı min il bundan qabaq "Bəhrieyn" adı ilə tanınırdı. Bəhri-eyn niyə Xəzər adı ilə çağırılır?

Bir gün dünyanın ilk şahlar şahı İsgəndər Zülqərneyn, Günəş doğan ölkələrdən Günəş batan ölkələrə qədər hökmranlıq edən İsgəndər iki yüz əllı yaşa çatmışdı. İsgəndərin vəziri İsgəndərə dedi:

-Ey İsgəndər! Zülmət ölkəsində dirilik suyu var. O sudan içsən, heç ölməzsən, əbədi yaşayarsan.

İsgəndər altı ay geçə, altı ay gündüz olan yerə getmək üçün qoşun yığmağı əmr verdi. Bir il hazırlıq işləri görüldü. Qoşunun içərisində iki xalaoğlu İlyas və Xizr də var idi. İsgəndər Zülqərneyn qoşunlara Qaf dağı --Qafqaz dağlarının o tayına yol etmək və həyat suyu axtarmaq ücün təlimat verdi. İsgəndərin qoşunu bir neçə aydan sonra Nuh peyğəmbərin oğlu Rəsin torpaqlarına girdi. Rusya

ərazisinə girən İsgəndər qışın soyuq yaxtı Rusiya torpaqlarında özü ilə gətirdiyi əsgərlərdən bir hissəsi şaxtadan donub məhv oldu. Onlar altı ay gecə olan zaman həyat suyu axtarırdılar. Su axtaran insanlar özlərilə saman götürmüşdülər. Hara gedirdilər, samanı öz izlərinə tökürdülər. Samanın işarəsilə də geri dönürdülər. Xizir və İlyas iki xalaoğlu birlikdə su axtarırdılar. Onlar özləri ilə duzlu balıq götürmüşdülər. Duzlu balıqları rast gəldikləri bulaqlara, çaylara, kiçik novalçalara iplə asıb dirilməyini gözləyirdilər, duzlu balıqlar bu göllərin heç birində dirilmirdilər. Bir gün İlyas və Xizir balıqları kiçik bir bulaq suyuna qoyub çörək yeyirdilər baxdılar ki, balıqlar dirilib, su yuxarı üzürlər. Onlar balıqları tutmaq istədilər. Balıqlar bulaq axan çeşməyə girdilər. İlyas Xizrə dedi:

-Ey Xizir! Balıqlar dirildi, bu su dirilk suyudur. Sudan içək, özümüz Qiyamət gününə qədər diri qalaq. Sudan bir tuluq İsgəndərə göturək.

Onlar sudan içdilər, tuluqları da doldurub yola səpdikləri samanın izi ilə İsgəndərin qərərgahına tərəf yol etməyə başladılar. Onlar çox yol etdilər, Qaf dağının arxasına keçə bilmədilər. Azıb Qaf dağının şimalında dolanırdılar. Xizir İlyasa dedi:

-Bizə dirilik suyunu göstərən tək Tanrıdı. Tək Tanrını tanımasaq, bizə Yaradandan nicat yoxdur.

Xizir və İlyas babaları İBRAHİM Peyğəmbərin daim oxuduğu KAF, HA, YA, EYİN, SAAD

hərflərini təkrar-təkrar oxuyurdular. Bu zaman Xizir və İlyasa Yaradandan Vəhy gəldi:

-Ey Xizir! Ey İlyas! Siz oxuduğunuz kəlamın sirrini bilirsinizmi?

Xizir və İlyas gələn səsdən qorxdular, bulaqdan götürdükləri suyu yerə atıb qaçmaq istədilər. Həmin səs təkrar gəldi:

-Ey xəlq olmuşlar! Qorxmayın sizi səsləyən sizi xəlq edəndir! Babanızdan qalan hərfi-Məqtəədir, yəni Müsibəti-Kərbəladır.

Xizir və İlyas Allahın Qüdrəti ilə Kərbəla müsibətini gördülər. İmam Hüseyn Əlehyissalamın qarşısına çəkmələrini qumla doldurub gələn Hürrün necə tövbə etdiyini, necə Hüseyndən nicat istədiyini görüb təəccüblə dedilər:

-Ya Rəbb! Gördüyümüz Hüseyn kimdir? Çəkmələrini qumla doldurub onun qarşısına tövbə edə-edə gələn kimdir?

Yaradandan nida gəldi:

O, Hürrüdür Südabə mənzilində Hüseynin qarşısını kəsən, indi peşiman olub Əhli beytdən əff diləyir. Odur Qiyamət gününün şəfaətçisi, odur həqq əleyhi-batil! Ey Xizir, ey İlyas! İsgəndər Zülqərneyn də peşiman olacaq, Hürrü Dilavər kimi! BİZ onu da peyğəmbərlik məqamına dəvət etdik, o, qəbul etmədi, dünya çirkabına batmaq üçün şahlıq istədi. İndi artıq yaşamaq üçün dirilik suyu axtarır. Qiyamət gününə qədər yaşamaq sizə verildi. ”Ha-

am mim", "Eyn, Sin, Qaf" "Haam mim"in türkcə mənası belədir:"Əbədi yaşayan." Yaradılmışlar əbədi deyildir. And olsun! Yaradan, yaşadan, var edən, yox edən Xaliq Əbədidir. Bilən və görəndir. Eyn, Sin, Qaf. Bu hərflər "Quran"da Məqtəə hərfi kimi göndərilmişdir. Hərflər ayrı-ayrılıqda dörd məna daşıyır. Hər məna özlüyündə altı məna verir. Məsələn: Eyn--elm və ya görmək kimi mənalandırılır. Sin-- Allah Təalanın yer üzərində yaratdığı xəlq olunanlarından ən kamili olan insanların adı ilə müraciət olunan son peyğəmbər Məhəmməd əl-Müstəfadır. Qaf—dünyanı həlqələyən Qaf daglarına işarədir. Qaf Qiyamət gününün dağlarla əhatə olunan mühakimə ərazisidir. O dağlar bunlardır:

Səfa, Mərva, Nur, Buqəbeyz, Mina. Qaf kimi görünən dağların arasındakı yer Kəbə və Məqami İbrahim indiki Təvaf olunan dörd künclü Allah evidir. Bu yer insanların Qiyamət günü mühakimə olunan yeridir. Ey Xizir və İlyas! İsgəndər Zülqərneyn qəbul etmədiyi peyğəmbərliyi sizə verdim. Siz qiyamətə qədər yaşayacaqsınız. And olsun ki, mən öz elmlərimlə sizi elmləndirdim. Siz insanlara öz elminizlə nicat verənlərdən olacaqsınız, dəryada, səhralarda qərq olanlara nicat verəcəksiniz. Elm öyrənmək istəyənlərə elm öyrədəcəksiniz.

İlyas və Xizir Qaf dağlarının cənubunda olan İsgəndər Zülqərneynin olduğu qərargaha gəldilər.

Özləriylə gətirdikləri su tuluqlarını İsgəndərə verdilər və dedilər:

-Ey İsgəndər, tuluqda gətirdiyimiz su dirilik suyudur.

İsgəndər onlardan suyu necə tapdıqlarını soruşdu. Onlar dedilər:

-Balıqları kiçik bir bulağa atmışdıq, balıqlar dirilib o suya girdilər. Biz də o sudan götürüb sənin üçün gətirdik. Özümüz də o sudan içdik. Bu su dirilik suyudur.

İsgəndər su tuluqlarını açdırıb içmək isdədi. Tuluqlardan sarı-qırmızı rəngli hava çıxdı, su çıxmadı. İsgəndər dedi:

-Ey mənim qohumlarım, siz mənə su gətirmədiniz, tuluqlara hava vurub gətirdiniz.

İlyas dedi:

-And olsun Allahın qüdrətinə! Biz sənin üçün su gətirmişdik. Allahın təqdiri ilə su hava oldu, çünki sən Allahın sənə vəd etdiyi peyğəmbərliyi qəbul etmədin. Qəbirdən dar şahlıq taxtını seçdin. Dünyada xalq səni mühakimə edər, qiyamətdə də bizi Yaradan Allah!

İsgəndər Xizri və İlyası dar ağacına çəkməyi hökm verdi! Xizir peyğəmbəri Beşbarmaq dağının başında, İlyası isə Qızılburun deyilən yerdə, qayaların üstündə asdırdı. İlyas və Xizir peyğəmbərlər oxuduqları vird ilə dar ağacından diri olaraq ayrıldılar. Xizrin asıldığı yerə orada yaşayan insanlar

Xizri zində dağı adını verdilər. İlyas peyğəmbərin asıldığı qayalara İlyası zində qayası adını verdilər. “Zində” sözü farsca olub türk dilində diri deməkdir. Yəni diri olan Xizir və diri olan İlyas.

Bəhri-Eyn- ərəb dilindədir, göz dənizi deməkdir. Bəhri-Eyn dənizi Nuh peyğəmbərdən İbrahim peyğəmbərə qədər Bəhri-Eyn kimi tanınmışdır. İsgəndər Zülqərneyn o dənizdə Xizrə və İlyasa xəsarət yetirə bilmədiyinə görə Bəhreynin adını dəyişdirib Xizri dənizi qoymuşdur. Altı min ildir ki, Bəhreyn dənizi Xizri (Xəzər) gölü kimi tanınır. Xəzərin qədim adı Bəhreyindir. Xizir və İlyas diri peyğəmbərlərdəndir. Xizir və İlyas ildə bir dəfə Həcc günü görüşürlər. İlin qalan günlərini insanlara xidmət edirlər.

# MUSA İLƏ XİZRİN HEKAYƏTİ

Bir gün Allah Təaladan Hz. Musaya vəhy gəldi:

-Ey Musa, ayaqlarına dəmir çarıq geyin, əlinə dəmir əsa götür, elmli insan axtarıb tap, ondan elm öyrən!

Hz. Musa elmli insan axtarmağa başladı. Bir gün bir vadinin yanında Xizir peyğəmbərə rast gəldi. Xizir Musa peyğəmbərə sual etdi:

-Ey Musa! Sən kimi axtarırsan?

Musa dedi:

-Mən özümdən elmli adamı axtarıram ki, ondan elm öyrənəm.

Xizir peyğəmbər dedi:

-Sən məndən elmli insan tapa bilməzsən! Mən sənə elm öyrədərəm. Amma məndən elm öyrənmək istəyən adamın səbri olmasa, məndən elm öyrənə bilməz.

Musa dedi:

Mən çox səbirliyəm. Qırx il fironla səbrimə görə müharibə apardım. Səbrimlə fironu Allah qarşısında necə məğlub etməyi öyrəndim. Mən səbrli peyğəmbərlərdənəm! Ya Xizir! Mən səndən elm öyrənmək üçün səbr edəcəyəm.

Xizir dedi:

-Elm öyrənmək istəyirsənsə, ardımca gəl, amma məndən heç nə soruşma.

Onlar bir neçə gün yol getdilər. Bir dəniz sahilinə çatdılar. Sahilin o tərəfinə keçmək üçün təzə düzəlmiş gəmi sahibinə onları dəryanın o tayına keçirməyi xahiş etdilər.

Xizir gəmiçiyə dedi:

-Ey gəmi sahibi! Bizim minik haqqı verməyə pulumuz, özümüz yeməyə çörəyimiz yoxdur. Bizim qarnımızı doyurub o biri sahilə keçirsən, bizi yaradan Allah sənə əvəzini verər.

Gəmiçi dedi:

-Siz Allahı zamin etdiniz! Allah eşqinə sizi dəryanın o tayına keçirəcəyəm. Xizir və Musa gəmiyə mindilər. Gəmiçinin hesabına yeyib-içib, yol gedirdilər. Sahilə az qalmış Xizir maha götürüb gəmini deşdi və yerinə taxta poz vurdu. Musa bu hadisəni görəndə, Xizir peyğəmbərin ədalətsizliyinə dözməyib dedi:

-Gəmiçi bizi Allah xatirinə o taya keçirdir. Sən isə onun təzə gəmisini deşib zay edirsən?

Xizir Musaya dedi:

-Sənə dedim elm öyrənən səbrli olmasa, elmdən uzaq olar. Sənin isə səbrin yoxdur. Mən səbirli insana dərs verirəm, sənə dərs verə bilmərəm! Gəmidən düşüb ayrılaq. Mən bu gəmini Allah sevgisinə görə deşirəm. Gəmiçinin haqqını verirəm, sən isə get öz işinin ardınca.

Musa dedi:

-Bağışla, Ya Xizir! Elm öyrənmək xatirinə səbr edəcəyəm.

Xizir dedi:

-Səbirsiz olsan, sənə heç nə öyrətməyəcəyəm.

Musa səbr edəcəyinə söz verdi. Gəmidən düşüb yollarına davam etdilər. Şəhər kənarına çatanda bir dəstə uşaq oynayırdı. Onların içərisində bir körpə uşaq kənarda dayanıb oynayan uşaqlara baxırdı. Hz. Xizir həmin körpəyə yaxınlaşıb sakitcə tutdu və yerə yıxıb başını kəsdi. Hz. Musa gördüyü hadisəyə dözə bilməyib təəccüblə Xizirdən soruşdu:

-Bu körpənin günahı nə idi? Onu niyə öldürdün?

Xizir dedi:

-Ya Musa, demədimmi ki, səbr et, elm öyrən! Şərtimizi nə tez unutdun?

Musa yenidən Xizirdən üzr istəyib, daha səbr edəcəyinə söz verdi. Hz. Xizir sonuncu dəfə üzrü qəbul etdiyini deyib yenə də yola düşdülər. Qarşılarına çıxan bir kəndin kənarında uçulub-sökülmüş köhnə bir evə çatanda Hz. Xizir dayanıb Musaya dedi:

-Su daşı, bu xarabada ev tikək.

Musa dinməz-söyləməz əmri yerinə yetirdi. Hər ikisi çalışıb orada bir daxma tikdilər. Hz. Musanin dözməyə daha taqəti qalmamışdı. Odur ki, özündən ixtiyarsız dilləndi:

-Ey Xizir! Sənin mənə elm öyrətməyin mənim ağlımı çaşdırdı. Sən ya Allahı zamin qoyub Allah

xatirinə bizi gəmisinə mindirmiş adamın gəmisini dəlmə-deşik edirsən, ya günahsız uşağın başını kəsib gələcək həyatından məhrum edirsən, ya da səhradakı bir kəndin köhnə, uçuq-sökük bir daxmasını bərpa eləyib yenidən tikirsən. Məni bu sirdən agah elə ki, aldığım elm məni qane etsin!

Xizir dedi:

-Ey Musa! Birinci gördüyün ki, var idi, gəmini deşib gəmiçinin muzdunu qaytardım, o kişi çox kasıb adamdır, ailəsini də o gəmidən gələn mənfəətlə saxlayır. Yaxın vaxtlarda dövlətlər arası müharibə olacaq, yararlı gəmiləri müharibəyə yığacaqlar. Gəmini deşdim ki, o gəmi müharibəyə yararsız olsun. Gəmi sahibi də öz gəmisi ilə kasıbkarlıq edib ailəsini saxlasın, zamin etdiyim Allaha şükr etsinlər. İkinci gördüyündə ki, gözəl oğlan uşağının başını kəsdim, əslində mən onu cəhənnəm odundan qoruyaraq ona həyat verdim. Allahın düşməni onu ələ keçirmişdi, ətrafında fırlanırdı ki, onu zalimliyə, əxlaqsızlığa, cinayətə yönəltmişdi. Üçüncü hadisədə də xeyirxah bir iş gördük. Səhrada xarabaya dönmüş binanı ki, biz təmir etdik, onun sahibinin üç uşağı var. O uşaqlar valideynlərini itiriblər. Zamanı gələndə onlar ata-baba mirasını tapmaq üçün haçansa, dədə-baba yurdlarına gələcəklər. Xaraba qalmış o daxmanın təməlində varisi olduqları xəzinələri yatır. O uşaqlar təmir edilmiş evə köçəcəklər və nə vaxtsa onu yenidən təmir

edəndə xəzinəni tapıb xeyir işlərə sərf edəcəklər. Ey Musa! Sənin elm öyrənməyə səbrin yoxdur. Mən səbr ilə elm öyrənəni axtarıram!

Xizir bu sözləri deyib qeyb oldu. Musa da öz qövmünün yanına döndü.

Bəli, SƏBR Yaradanın bir adıdır! Səbrli olsan, ömrün uzun olar!

## TƏMSİL

Bir dəfə qoyun inəkdən soruşur:

-Nə üçün insanlar bizdən elmli olurlar, bizi idarə edirlər, ətimizi yeyib, südümüzü içirlər?

İnək qoyuna cavab verib dedi:

-Onlar uşaqlıqda insan südü içirdilər, elmli olurdular. Amma indi bəzi insanlar bizim südümüzü sağıb yeni doğulan uşağa verir ki, öz fiquralarını saxlasınlar. Ancaq bilmirlər ki, südümüzü içə-içə uşaqları bizim kimi elmsiz, bizim kimi malxasiyyət, bizim kimi qısaömürlü olacaq.

Bu da son dərsim: ELMLƏNSƏN DƏ öz işindir, ELMLƏNMƏSƏN DƏ !

***VƏSSƏLAM.***

# SUSAN BÜLBÜL

Gül eşqi ilə yanib tutuşan bülbül ahu fəqan edib deyər: Ya RƏBBİM!! Gül heç mənə vəfa qılmadı. Ah-ah istəyim gül qönçəsi açılanda görməkdir. Məni yuxu tutur, gül qönçəsi açılanda, onu görmək mənə nəsib olmur. Heç arzuma çatmadım. Ah, vay gəzəbim artır, güllərin özəyini qırıb tökürəm. İLAHİ. . . səndə mənə cəza verirsən. İki yumurta doğuram, biri gecəm olur, biri gündüzüm, biri bülbül olur, biri pitdiyan.

Söz bitdi, bülbül susdu. . .

Hə. . . Əziz oxucum mən ömrümün bitdtyi yerdə də susmaram. Yəqin ki, arzu etdiyiniz yol yoldaşınızı tanımaq istərsiniz. Arzunuza çatasınız. Biz ki, bülbül deyilik susaq.

Ata-Anamın istəyi ilə mənə ərəb adı qoymuşlar SUDEF (Sudef sözünün mənası, qara daşdan doğulan ağ daş deməkdir.) Dörd yaşımdan QURAN elmini oxumuşam. Otuz il ilahiyyət elmi təlim almaqla bərabər Fəlsəfə və Astranomiya elmi “DARUL FƏNN” (Ədzaçı) Tibb elmini öyrənmişəmBu fəndləri oxumaqla bərabər 1968-ci ildə həsənli kənd orta məktəbini bitirib 1970-72 ci illərdə hərbi xidmətdə olmuşam. 1974-cü ildə Şirvan neft texnikomunu bitirməklə 82 ci ilə qədər, Şir BUR - da neft qazma ustası, 1982 ci ildən kəndim həsənlidə elektirik mantiyoru, 1993 cü ildən

"FƏDAİ" kiçik müəssəsinin prezidenti, 1999cu ildən isə bələdiyyə sədiri işləməkdəyəm.

**(hadisə)**

Bir gün, rəhmətlik atam MOLLA ABBAS FƏDAİ gecə hüzür evindən evimizə qayıtdı. Həmən gün mən dərsimi oxuyub öyrənməmişdim. Atam məni yuxudan oyadıb dərsi soruşdu, səhər aldığım dərsi bilmədiyimə görə məni soyundurub, həyətdə şaxtadan donmuş su quyusunun üstündə oturdub dərsimi əzbərlətdirdi. Mən dərsi əzbərləyəndən sonra su quyusunun üstündən qalxanda yanımın dərisi buzlamış kərpicin üstündə soyulub qaldı. Falaqqaya düşəndə doqquz yaşım var idi. (1959-cu ildə). O gündən elm öyrənməyə davam edirəm.

Cəza aldığım gün öyrənmədiyim dərs belə idi.

*(Qələm qufta :ki, mən şahi cəhanəm.)*
*(Qələm deyər: mən dünyanın şahıyam.)*
*(Qələm zədra, be dövlət mirəsanəm.)*
*(Qələm tutsan, hər dövləti yetirrəm.)*

***SƏ"Dİ ŞİRAZİ. Gülüstan əsəri.***

***KİTABIN ikinci hissəsi olacaq.***
***İNŞALLAH***

## KİTABIN İÇİNDƏKİLƏR

AÇILAN QAPI ........................................................ 3
İNŞAALLAH ........................................................ 6
ƏLİF LAAM RA ........................................................ 7
YA SİİN (EY İNSAN)........................................................ 8
İLK YARANIŞ........................................................ 10
FƏTƏBARƏKƏLLAHU ƏHSƏNUL XALİQİN .............. 16
YARANIŞDAN SONRA ........................................................ 17
YARANIŞDAN SONRA ........................................................ 19
YARANIŞDAN SONRA ........................................................ 23
NUN VƏL QƏLƏMİ VƏMA........................................................ 28
YƏSTİRUN........................................................ 28
HAL ATA ........................................................ 31
QAÇ, AT BASDI........................................................ 33
QƏFFARIN QULU........................................................ 35
TÜLKÜ SIQƏSI ........................................................ 64
MARAQLI QARAVƏLLI........................................................ 67
DASTANI ŞIRAZI........................................................ 73
ODDA YANMAZ PEYQƏMBƏR........................................................ 76
MUSA NƏBİYYULLAH ........................................................ 108
MUSA NƏBİYYULLAH ........................................................ 109
FİRONUN RUDİ NİLDƏ........................................................ 118
QƏRQ OLMASI........................................................ 118
TAHA........................................................ 136
HEKAYƏT........................................................ 142

SULEYMAN PEYĞƏMBƏR HAQQINDA HEKAYƏLƏR ........................................................... 145
SIMURQ QUŞU ........................................................... 153
CƏRCİZ PEYQƏMBƏR ........................................................... 158
HƏZRƏTİ TALUT PEYĞƏMBƏR ........................................................... 162
OĞLUNDAN ........................................................... 172
KİÇİK PEYGƏNBƏR ........................................................... 172
XXX ( ) XXX ........................................................... 175
COMƏRDİ QƏSSƏB ........................................................... 176
ƏDL ........................................................... 183
ƏNUŞİRƏVAN ŞAH ........................................................... 183
ARAŞDIRMALAR, ........................................................... 191
MÜLAHİZƏLƏR, NƏTİCƏLƏR ........................................................... 191
ƏLF LAAM MİİM ........................................................... 201
İBRƏT DƏRSİ ........................................................... 221
LOĞMAN HƏKIM ........................................................... 225
SON HƏKİM ........................................................... 227
B Ə H R İ - E Y N ........................................................... 231
MUSA İLƏ XİZRİN HEKAYƏTİ ........................................................... 237
T Ə M S İ L ........................................................... 241
SUSAN BÜLBÜL ........................................................... 242

**Sudef sail Molla**
**Abbas Fədai oğlu**

# ƏNBİYALAR MƏCLİSİ
# I CİLD

*Dizayner: Rafael Qasımov*

*Çapa imzalanmışdır:17.12.2010*
*Kağız formatı: 60x84 1/16*
*H/n həcmi: 15,5 ç. v.*
*Sifariş: 338*
*Sayı: 1000*

*Kitab «ADİLOĞLU» nəşriyyatında*
*nəşrə hazırlanmış və çap edilmişdir.*
*Ünvan:Bakı şəh., Şərifzadə küç., 202*
*Tel. : 418-68-25; 433-00-43*
*Web: www. adiloglu. az;*
*E-mail: adiloglu2000@gmail. com*